Xalqın qəzeti!

# Xalq qəzeti

№ 268 (30962) 20 dekabr 2025-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Prezidentin amnistiya təşəbbüsü Milli Məclisdə həyata vəsiqə aldı



“Konstitusiya və Suverenlik İli” münasibətilə amnistiya elan edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Səhifə ➩ 4

## “Müşahidə”, yoxsa “müdaxilə?”

*Avropa İttifaqının bölgədə sülh pərdəsi arxasında geopolitik oyunu*



Ermənistanın Azərbaycanla həmsərhəd ərazilərində qeyri-legitim fəaliyyət göstərən Avropa İttifaqının müşahidə missiyası – EUMA-nın (European Union Mission in Armenia) son aylarda fəallaşması regional prosesləri diqqətlə izləyənlər üçün təsadüfi sayıla bilməz. Rəsmi Brüsselin bu missiyanı “sülh və etimad quruculuğu” aləti kimi təqdim etməsinə baxmayaraq, real mənzərə tamamilə fərqlidir. EUMA-nın davranışı, marşrutları, informasiya sızmaları və siyasi kontekstdə səsləndirilən açıqlamalar onu göstərir ki, söhbət neytral müşahidədən deyil, məqsədli geosiyasi müdaxilədən gedir.

*(ardı 10-cu səhifədə)*

## Azad torpaqlar “ölüm tələləri”indən də xilas edilir

*Minatəmizləmə işləri həm də bu məqsədə xidmət edir*

**Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan bərpa və yenidənqurma prosesinin ən vacib mərhələlərindən biri humanitar minatəmizləmə fəaliyyətləridir. Uzun illər davam edən işğal dövründə bu ərazilər geniş şəkildə minalanıb, nəticədə mülki əhali üçün ciddi təhlükə yaranıb. Mina və partlamamış hərbi sursatlar Böyük Qayıdışı ləngitməklə yanaşı, insanların həyatına, sağlamlığına, eləcə də bölgənin sosial-iqtisadi inkişafına ciddi maneələr törədir.**

*(ardı 10-cu səhifədə)*






## Zəngəzur dəhlizi XXI əsrin yoluna çevrilir

Səhifə ➩ 7

## Türk dünyasının müdafiə strategiyası



Səhifə ➩ 6

## EUMA sülh axtarışında deyil!

*Ermənistan rəhbərliyinin düşünməli olduğu məqamlar*



**Avropa İttifaqı Ermənistandakı mülki müşahidə missiyasının (EUMA - EU Mission in Armenia) mandatının əlavə 2 il müddətinə, yəni 19 fevral 2027-ci ilədək uzadılması barədə qərar qəbul edib. Üstəlik, göstərilən müddət üçün missiyaya 44 milyon avrodan artıq büdcə vəsaiti ayrılıb.**

Bəri başdan deyək ki, belə bir təsisatın mövcudluğu Azərbaycan–Ermənistan sülh prosesinə zidd təmayüldür. Çünki EUMA iki ölkə arasında münaqişə məntiqini daşıyır. Bu məntiq isə barış mühitinə tamamilə tərs mütənasibdir. Eynilə ATƏT-in artıq rəsmən fəaliyyətini dayandırmış Minsk qrupu kimi.

*(ardı 10-cu səhifədə)*

## Cənubi Qafqazda mülayimləşməyə Şimal küləyi əsirmi?




Səhifə ➩ 8

## Fransada fermerlərin etirazlarını eşidən yoxdur



Səhifə ➩ 8

## Ərzaq bazarında qiymət artımı inflyasiyanı necə üstələyir?



Səhifə ➩ 11

## 100 il əvvəldən gələn səslər



Səhifə ➩ 14

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli cənab Prezident!**

Doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Məqsədyönlü rəhbərliyimizlə Çin-Azərbaycan hərtərəfli strateji tərəfdaşlıq münasibətləri sürətlə inkişaf edir, ölkələrimiz arasında qarşılıqlı siyasi etimad daim möhkəmlənir, ikitərəfli faydalı əməkdaşlıq durmadan inkişaf edir və beynəlxalq səviyyədə fəaliyyət səmərəli şəkildə reallaşdırılır.

Bu il ərzində Sizinlə iki dəfə görüşmüşük, əldə etdiyimiz mühüm razılaşmalar səmərəli və hərtərəfli şəkildə həyata keçirilir.

Çin ilə Azərbaycan arasında münasibətlərin inkişafına böyük əhəmiyyət verirəm. Hər iki ölkənin xalqlarının rifahı naminə hərtərəfli əməkdaşlıqda yeni nəticələr əldə etmək üçün Sizinlə birlikdə çalışmağa hazıram.

Sizə möhkəm cansağlığı və firavanlıq arzulayıram.

***Si CİNPİN,***
***Çin Xalq Respublikasının Sədri***

* * *

**Hörmətli İlham Heydər oğlu!**

Əziz qardaşım.

Zati-aliləri, Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı çatdırmaqdan böyük məmnunluq hissi duyuram.

Sizi əzəli qardaşımız olan Azərbaycan xalqının əsl vətənpərvər və fədakar övladı, müdrik və sədaqətli rəhbəri, dövrümüzün görkəmli dövlət xadimi, beynəlxalq miqyasda yüksək hörmət və nüfuza malik böyük siyasətçi kimi yaxşı tanıyır və yüksək qiymətləndiririk.

İdarəçilik sahəsindəki zəngin bilik və təcrübəniz, uzaqgörən, müdrik və səmərəli siyasətiniz nəticəsində doğma Vətəninizin təkcə ərazi bütövlüyü bərpa olunmayıb, həm də onun beynəlxalq arenadakı mövqeyi və nüfuzu ildən-ilə daha da möhkəmlənib ki, bütün bunlar bizi sonsuz dərəcədə sevindirir.

Bu məqamda Sizin irəli sürdüyünüz mühüm regional və qlobal təşəbbüslərin dünya ictimaiyyəti tərəfindən geniş dəstək görməsini də xüsusi vurğulamaq istərdim.

Dost və qardaş dövlətlərimiz arasında strateji tərəfdaşlıq, müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsi yolundakı böyük xidmətləriniz və qətiyyətli səyləriniz sayəsində qardaşlıq əlaqələrimizin tamamilə yeni keyfiyyət mərhələsinə yüksəldiyini məmnuniyyətlə qeyd edirik.

Hörmətli İlham Heydər oğlu, qarşıya qoyduğumuz ali məqsədlərə çatmaq üçün birgə səylərimiz, ali səviyyədə aparılan fəal və konstruktiv dialoqumuz nəticəsində çoxşaxəli və uzunmüddətli əməkdaşlığımızın qardaş xalqlarımızın ümumi tərəqqisi naminə bundan sonra da səmərəli inkişaf edəcəyinə qəti şəkildə inanıram.

Əziz dostum, həyatınızın bu sevincli və unudulmaz günü münasibətilə Sizi bir daha səmimi-qəlbdən təbrik edir, Ulu Tanrıdan Sizə möhkəm cansağlığı, ailə səadəti, ölkənizin əmin-amanlığı və rifahı naminə həyata keçirdiyiniz məsuliyyətli dövlətçilik fəaliyyətinizdə yeni-yeni nailiyyətlər, dost Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və davamlı inkişaf arzulayıram.

*Səmimi ehtiramla,*

***Şavkat MİRZİYOYEV,***
***Özbəkistan Respublikasının Prezidenti***

* * *

**Hörmətli İlham Heydər oğlu!**

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Əminəm ki, bu il Siz bayramınızı xüsusi əhvali-ruhiyyə ilə qarşılayırsınız. Sizin siyasi müdrikliyiniz və möhkəm iradəniz sayəsində Azərbaycan Respublikası qarşıya qoyulmuş məqsədlərə nail olaraq beynəlxalq nüfuzunu inamla artırır.

Belarusda ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinə, həmçinin müxtəlif sahələrdə dövlətlərarası əməkdaşlığın ardıcıl inkişafına xüsusi əhəmiyyət verilir.

Çoxtərəfli platformalarda etimada əsaslanan təmasları və qarşılıqlı dəstəyi, eləcə də Belarus-Azərbaycan dialoqunun bütün səviyyələrdə dərinləşdirilməsinə göstərdiyiniz diqqəti yüksək qiymətləndirirəm.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və Azərbaycan xalqının rifahı naminə yeni nailiyyətlər arzulayıram.

*Hörmətlə,*

***Aleksandr LUKAŞENKO,***
***Belarus Respublikasının Prezidenti***

* * *

**Hörmətli cənab Prezident!**

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi və xoş arzularımı qəbul etməyinizi xahiş edirəm. Bu xoş fürsətdən istifadə edərək, birgə səylərimiz nəticəsində Bolqarıstan Respublikası ilə Azərbaycan Respublikası arasında strateji tərəfdaşlığın və çox yaxşı münasibətlərin gələcəkdə də fəal şəkildə inkişaf edəcəyinə və dərinləşəcəyinə əminliyimi bildirirəm.

Son bir neçə ildə hər dəfə konstruktiv və dostluq mühitində keçən, ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli formatlarda strateji münasibətlərin, səmərəli əlaqələrin, fəal siyasi dialoqun genişlənməsinin təsdiqləndiyi görüşlərimizi məmnuniyyətlə xatırlayıram.

Ümid edirəm ki, Veliko Tırnovo şəhərində Sizinlə birlikdə böyük səylər göstərdiyimiz Şuşa parkının açılışı ilə əlaqədar Bolqarıstana uzun müddət gözlənilən səfəriniz ölkəmizdəki mövcud siyasi böhrandan asılı olmayaraq 2026-cı ildə baş tutacaqdır.

Sizin şəxsi diqqətiniz və iştirakınız sayəsində ötən il uğurla keçirilmiş Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasından (COP29) sonra 2026-cı ildə Azərbaycanda ilk dəfə olaraq Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) çərçivəsində təşkil ediləcək zirvə toplantısında da ölkələrimiz arasında ən yüksək səviyyədə dialoqu davam etdirməyə hazıram.

Sizə möhkəm cansağlığı, rifah və ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

Hörmətli cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Rumen RADEV,***
***Bolqarıstan Respublikasının Prezidenti***

* * *

**Hörmətli İlham Heydər oğlu!**

Doğum gününüz münasibətilə səmimi təbriklərimi və ən xoş arzularımı qəbul edin.

Sizin müdrik rəhbərliyinizlə qardaş Azərbaycan dövlətçiliyin möhkəmləndirilməsində, beynəlxalq nüfuzunun yüksəldilməsində və xalqın rifahının yaxşılaşdırılmasında əhəmiyyətli uğurlar qazanıb.

Böyük məmnunluqla qeyd etmək istərdim ki, mehriban qonşuluq, dostluq və qarşılıqlı anlaşma kimi möhkəm prinsiplərə əsaslanan Türkmənistan-Azərbaycan münasibətləri son zamanlar yeni vüsət alıb.

Bu münasibətlər yüksək səviyyədə qarşılıqlı etimad və anlaşma ilə fərqlənir ki, bu da dövlətlərimizin gələcək uğurlu inkişafı üçün möhkəm təməl rolunu oynayır.

Bu xoş fürsətdən istifadə edərək Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, ailə səadəti və ali dövləti fəaliyyətinizdə yeni uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, davamlı tərəqqi və firavanlıq arzulayıram.

*Dərin hörmətlə,*

***Sərdar BERDİMƏHƏMMƏDOV,***
***Türkmənistanın Prezidenti***

* * *

**Çox hörmətli cənab Prezident!**

Zati-alinizin doğum günü münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Sizin liderliyiniz sayəsində Azərbaycan müasir və uğurlu bir dövlətə çevrilmiş, beynəlxalq aləmdə öz rolunu və nüfuzunu inamla gücləndirərək, dövlət üçün mühüm nəticələrə, o cümlədən ərazi bütövlüyünün bərpasına və möhkəmləndirilməsinə nail olmuşdur.

Xalqlarımızın dostluğunun və Ukrayna ilə Azərbaycan arasında qarşılıqlı dəstəyə, beynəlxalq hüquqa, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət prinsiplərinə əsaslanan strateji tərəfdaşlığın möhkəmləndirilməsində Azərbaycan Respublikasının Prezidenti kimi Sizin şəxsi töhfənizi yüksək qiymətləndirirəm.

Bu tərəfdaşlıq Qara dəniz-Xəzər regionunda ədalətli sülhə nail olmaq niyyətinə, eləcə də enerji, iqtisadi-ticari, humanitar və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın inkişafına xidmət edir.

Ukrayna Rusiya Federasiyasının silahlı təcavüzü şəraitində göstərilən həmrəylik və praktiki dəstəyə görə Sizə və Azərbaycan xalqına dərin minnətdarlığını bildirir. Xüsusilə ölkənin enerji sistemi obyektlərinin fəaliyyətinin təmin edilməsi məqsədilə göstərilən humanitar yardım, Kiyev vilayətində işğaldan azad edilmiş İrpen şəhərinin yenidən qurulmasında iştirak, cəbhəyanı regionlardan olan ukraynalı uşaqların sağlamlığının bərpası və reabilitasiyası yüksək dəyərləndirilir.

Zati-aliləri cənab Prezident, icazə verin, Sizi bir daha ürəkdən təbrik edim, Sizə möhkəm cansağlığı və dövlətçilik fəaliyyətinizdə yeni uğurlar, dost Azərbaycan xalqına isə sülh, rifah və tərəqqi arzulayım.

*Dərin ehtiramla,*

***Volodimir ZELENSKİ,***
***Ukraynanın Prezidenti***

* * *

**Hörmətli İlham Heydər oğlu!**

Rusiya Federasiyasının Hökuməti adından və şəxsən öz adımdan Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sizin rəhbərliyinizlə dost Azərbaycan milli iqtisadiyyatın və sosial sahənin inkişafına, vətəndaşlarının rifahının yaxşılaşdırılmasına və beynəlxalq aləmdə nüfuzunun gücləndirilməsinə yönəlmiş genişmiqyaslı islahatlar yolu ilə inamla irəliləyir.

Rusiya-Azərbaycan münasibətlərinin mehriban qonşuluq və qarşılıqlı hörmət ruhunda möhkəmləndirilməsinə göstərdiyiniz daimi diqqəti xüsusilə qeyd etmək istərdim. Ən yüksək səviyyədə qəbul edilmiş qərarlara uyğun olaraq, iqtisadi-ticari və investisiya əməkdaşlığı durmadan inkişaf edir, perspektivli birgə layihələr həyata keçirilir, regionlararası əlaqələr və işgüzar təmaslar genişləndirilir.

Əminəm ki, əməkdaşlığın daha da gücləndirilməsi, müxtəlif sahələrdə yeni qarşılıqlı faydalı təşəbbüslərin təşviqi Rusiya Federasiyasının və Azərbaycan Respublikasının maraqlarına tam cavab verir.

Həmişə səmimi və etimad mühitində keçən söhbətlərimizi xoş duyğularla xatırlayıram. Konstruktiv ünsiyyətimizi davam etdirmək imkanına şad olaram.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, firavanlıq və ali dövləti fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

*Səmimi hörmətlə,*

***Mixail MİŞUSTİN,***
***Rusiya Federasiyası Hökumətinin Sədri***

* * *

**Hörmətli İlham Heydər oğlu!**

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Sizin siyasi karyeranız cəsarətlə irəliləyən, dürüstlük, qətiyyət və ölkəsinin taleyinə görə məsuliyyət nümayiş etdirən, enerjisi ilə həmfikir insanları və tərəfdarları ruhlandıran bir liderin yoludur.

Sizin çoxillik fədakar əməyiniz sayəsində Azərbaycan sosial-iqtisadi inkişafda, dövlətçiliyinin möhkəmləndirilməsində və beynəlxalq nüfuzunun yüksəldilməsində mühüm nəticələrə nail olmuşdur.

Rusiya-Azərbaycan parlament dialoqunun genişləndirilməsi məsələlərinə göstərdiyiniz davamlı diqqəti minnətdarlıqla qeyd edirəm. 2025-ci ilin mart ayında Bakıya səfərimi xüsusi səmimiyyətlə xatırlayıram. Mənə göstərdiyiniz mehriban münasibəti yüksək dəyərləndirirəm.

Sizə möhkəm cansağlığı, dost Azərbaycan xalqının rifahı naminə məsuliyyətli fəaliyyətinizdə böyük uğurlar arzulayıram.

Ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Valentina MATVİYENKO,***
***Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri***

* * *

**Hörmətli İlham Heydər oğlu!**

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Siz ölkənizin mənafeyi naminə xalqınızın və dahi atanızın gözləntilərini layiqincə doğruldursunuz.

Uzaqgörən siyasətiniz sayəsində Azərbaycanın beynəlxalq nüfuzu artmış, regionda sülh və qarşılıqlı etimadın yeni bir mərhələsi formalaşmışdır.

Ölkənizə davamlı rifah və yeni nailiyyətlər arzulayıram.

Aramızda yaranan hörməti xüsusilə yüksək qiymətləndirirəm. Dostluq və hörmət ruhunda keçən bütün görüşlərimizi, söhbətlərimizi həmişə xoş duyğularla yada salıram.

Hörmətli İlham Heydər oğlu, bu əlamətdar gün münasibətilə Sizə möhkəm cansağlığı, nəcib təşəbbüslərinizdə müvəffəqiyyət, qardaş Azərbaycan xalqına isə firavanlıq və yeni uğurlar diləyirəm.

*Ən xoş arzularla,*

***Nursultan NAZARBAYEV,***
***Qazaxıstan Respublikasının birinci Prezidenti***

* * *

Hörmətli İlham Heydər oğlu.

Sizi doğum gününüz münasibətilə təbrik edirəm.

Ən səmimi və xoş arzularımızı qəbul etməyinizi xahiş edirəm.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, uğurlar və bütün arzularınızın asanlıqla reallaşmasını diləyirəm.

"Komsomolskaya pravda"nın bu xüsusi yubiley ilində Sizə dostluğunuza görə səmimi-qəlbdən təşəkkür edirəm.

*Hörmətlə,*

***Olesya NOSOVA,***
***Rusiyanın "Komsomolskaya pravda" media qrupunun baş redaktoru və baş direktoru***

* * *

**Hörmətli cənab Prezident!**

Sizi doğum gününüz münasibətilə Avstraliyada yaşayan azərbaycanlılar adından səmimi-qəlbdən təbrik edir, Zati-alinizə ən xoş arzularımızı çatdırırıq.

Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası müstəqil, güclü və nüfuzlu dövlət kimi beynəlxalq aləmdə öz layiqli yerini möhkəmləndirmiş, milli maraqlarını qətiyyətlə qoruyan, gələcəyə inamla addımlayan bir ölkəyə çevrilmişdir. Dövlətçiliyin möhkəmləndirilməsi, xalqın rifahının yüksəldilməsi və Azərbaycan diasporunun dünya miqyasında birliyinin gücləndirilməsi istiqamətində göstərdiyiniz ardıcıl fəaliyyət yüksək qiymətləndirilir.

Eyni zamanda, Sizi 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə də ürəkdən təbrik edirik. Bu əlamətdar gün dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların milli kimlik, mədəniyyət və dövlətçilik idealları ətrafında birliyini ifadə edir. Diaspor təşkilatlarının güclənməsi və ana Vətənlə əlaqələrinin möhkəmlənməsi istiqamətində aparılan dövlət siyasəti bizim üçün xüsusi qürur mənbəyidir.

Avstraliyada yaşayan azərbaycanlılar Azərbaycan Respublikasının inkişafı, beynəlxalq nüfuzunun artması və xalqın həmrəyliyi üçün atılan hər bir addımı dəstəkləyirlər.

Zati-aliləri, Sizə möhkəm cansağlığı, uzun ömür, Azərbaycan xalqı və dövləti naminə fəaliyyətinizdə davamlı uğurlar arzulayırıq.

*Dərin hörmətlə,*

***Mikayil OYTA,***
***Avstraliya Azərbaycan Assosiasiyasının prezidenti***

* * *

**Möhtərəm cənab Prezident!**

Ərəb Ölkələrində Yaşayan Azərbaycanlıların Koordinasiya Şurası adından Sizi doğum gününüz münasibətilə təbrik edirik.

Azərbaycan dövlətinin güclənməsi, xalqımızın rifahının yüksəlməsi, ölkəmizin regional və qlobal proseslərdə aparıcı mövqeyə sahib olması istiqamətində göstərdiyiniz əvəzsiz xidmətlərə görə Sizə ən yüksək ehtiramımızı bildiririk. Sizin müdrik siyasətiniz, uğurlu fəaliyyətiniz bu gün milyonlarla azərbaycanlı üçün qürur mənbəyidir.

Bu il biz Qarabağ Zəfərinin 5 illiyini böyük fərəh hissi ilə qeyd etik. Beş il öncə Azərbaycanın müasir tarixində yeni bir dövr başlanmış, Sizin qətiyyətli rəhbərliyiniz, Müzəffər Ali Baş Komandan kimi müstəsna siyasi iradəniz və Azərbaycan Ordusunun rəşadəti nəticəsində ölkəmizin ərazi bütövlüyü bərpa olunmuşdur. Qarabağ Zəfəri həm xalqımızın milli iradəsinin, həm də dövlətimizin gücünün parlaq təcəssümüdür. Bu zəfər dünya azərbaycanlıları üçün iftixar mənbəyinə çevrilmiş, Azərbaycanın beynəlxalq mövqelərini daha da möhkəmləndirmişdir.

Sizin rəhbərliyinizlə həyata keçirilən ardıcıl siyasi, diplomatik və hərbi strategiya sayəsində təkcə işğala son qoyulmadı, eyni zamanda bölgədə dayanıqlı inkişaf, sülh və təhlükəsizliyə yeni baxış formalaşdırıldı. Bu gün Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa-quruculuq işləri məhz Sizin müdrik rəhbərliyinizin nəticəsidir.

Cənab Prezident, Sizi, eyni zamanda, 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə də təbrik etməkdən şərəf duyuruq. Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız bu bayramı Sizin həyata keçirdiyiniz uğurlu diaspor siyasətinin nəticəsi kimi daha böyük birlik, həmrəylik və milli özünüdərk ruhu ilə qeyd edirlər. Biz - Ərəb ölkələrində yaşayan azərbaycanlılar olaraq hər zaman Vətənə bağlılıqla fəaliyyət göstərir, Azərbaycan həqiqətlərinin təbliği, dövlətimizin maraqlarının müdafiəsi və milli birliyin gücləndirilməsi istiqamətində səylərimizi davam etdiririk.

2026-cı ilin Sizin rəhbərliyinizlə Azərbaycan üçün daha böyük nailiyyətlər, zəngin inkişaf perspektivləri və dayanıqlı tərəqqi ili olacağına əminliyimizi ifadə edirik. Sizə möhkəm cansağlığı, uzun ömür, ali dövləti fəaliyyətinizdə davamlı uğurlar arzulayırıq.

*Dərin hörmət və ehtiramla,*

***Ərəb Ölkələrində Yaşayan Azərbaycanlıların Koordinasiya Şurası***
***(Birləşmiş Ərəb Əmirlikləri, Bəhreyn, Küveyt, Qətər, Misir, Oman, Səudiyyə Ərəbistanı)***

* * *

**Hörmətli cənab Prezident!**

Sizi doğum gününüz münasibətilə ABŞ-ın Texas ştatının Hyuston şəhərində yaşayan azərbaycanlılar adından səmimi-qəlbdən təbrik edirəm. Sizin sayənizdə Azərbaycan bu gün dünyada öz sözünü qətiyyətlə deyən, haqqını qoruyan, xalqını birləşdirən bir dövlət kimi tanınır və ucalır.

Biz harada yaşamağımızdan asılı olmayaraq bu ucalığın bir parçası olmaqdan qürur duyuruq.

Sizin rəhbərliyinizlə Azərbaycan son beş ildə tarixinin ən parlaq səhifələrindən birini yazdı. Beş il əvvəl qazandığımız Zəfər təkcə hərbi qələbə deyil, həm də uzun illər boyu ürəklərdə yaşayan haqq-ədalətə qovuşma arzusunun reallığa çevrilməsidir. 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" kimi qeyd edilməsi isə həmin Zəfərin mənəvi davamı, dövlətimizin əzmkarlığının və iradəsinin daha bir göstəricisidir. Sanki Zəfərdən doğan işıq bu dəfə dövlətçilik sütunlarımızı daha da möhkəmləndirir, suverenliyimizin səsi hər bir azərbaycanlının qəlbində yenidən ucalır. Biz bu ili yalnız təqvimdə yox, ruhumuzda, yaddaşımızda, dövlətçilik sevgimizdə qeyd edirik. Dünyanın müxtəlif guşələrində yaşayan biz azərbaycanlılar Vətənlə aramızdakı məsafələrə baxmayaraq, Sizin qətiyyətli siyasətinizlə güc tapırıq. Hər çıxışınız, hər addımınız bizim üçün ruh yüksəkliyi, ilham mənbəyi olur. Biz Sizi dəstəkləməklə təkcə bir liderə yox, həm də Vətənimizin əzəmətinə, gücünə, gələcəyinə inamımızı ifadə edirik.

Sizi qarşıdan gələn 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə də təbrik edir, 2026-cı ildə Sizə və ölkəmizə daha böyük zəfərlər, xalqımıza firavanlıq arzu edirik.

*Dərin hörmət və ehtiramla,*

***İradə AXUNDOVA,***
***ABŞ-da fəaliyyət göstərən Hyuston-Bakı Qardaşlaşmış Şəhərlər Assosiasiyasının və Azərbaycan Mərkəzinin rəhbəri***

* * *

**Hörmətli cənab Prezident!**

ABŞ-ın Yuta ştatında yaşayan azərbaycanlılar adından Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirik. Biz, dünyanın müxtəlif guşələrində yaşayan azərbaycanlılar Sizin xarici siyasətinizin uğurlarını, milli dəyərlərə söykənən inkişaf strategiyanızı, rəhbərliyinizlə həyata keçirilən islahatları, dövlətimizin keçdiyi inkişaf yolunu böyük qürurla izləyirik. Azərbaycan bu gün dünyada güclü və etibarlı dövlət kimi tanınır. Vətənimizin nailiyyətləri bizi çox sevindirir.

Sizin rəhbərliyinizlə 44 günlük Vətən müharibəsində qazanılan və bu il beş illiyini qeyd etdiyimiz şanlı Zəfər qətiyyətinizin, uzaqgörənliyinizin və milli maraqlara möhkəm bağlılığınızın nəticəsidir. Azərbaycan xalqının uzun illər həsrətində olduğu torpaqlar azad edilmiş, tarixi ədalət bərpa olunmuşdur. Zəfər Günü yalnız hərbi qələbəmiz deyil, həm də milli birliyimizin, xalq-dövlət həmrəyliyinin parlaq təcəssümüdür.

Bu möhtəşəm günün yaratdığı tarixi qüruru yaşayırıq və bu qürurun memarı kimi Sizin liderliyinizi alqışlayırıq.

Son illər Azərbaycan ilə Yuta ştatı arasında formalaşmağa başlayan əlaqələr bizi xüsusilə sevindirir. İqtisadiyyat, təhsil, mədəniyyət sahələrində yaranan bu yeni əməkdaşlıq xalqlarımız arasında qarşılıqlı anlaşma və dostluğun möhkəmlənməsinə xidmət edir. Bu əlaqələrin gələcəkdə daha da genişlənəcəyinə inanırıq.

Cənab Prezident, Sizin prinsipial mövqeyiniz, Qarabağın yenidən qurulması istiqamətində gördüyünüz işlər və Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzu bizim üçün böyük motivasiya mənbəyidir. Biz, Yutada yaşayan azərbaycanlılar daim Vətənimizin yanındayıq.

Doğma Azərbaycanımızın gələcək inkişafı yolunda Sizə yeni-yeni nailiyyətlər arzulayırıq. Qoy ölkəmiz daim güclü və qüdrətli, xalqımızın birliyi və bütövlüyü əbədi olsun!

***Əsmər GƏRAY,***
***ABŞ-da fəaliyyət göstərən Yuta Azərbaycan Dostluq Təşkilatının rəhbəri***

* * *

**Hörmətli cənab Prezident!**

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edirəm.

"Konstitusiya və Suverenlik İli" olan 2025-ci il mühüm təşəbbüslər və nailiyyətlərlə yadda qalır. Sizin uzaqgörən siyasətiniz, strateji addımlarınız sayəsində Azərbaycan bu gün dünyada öz mövqeyini daha da möhkəmləndirir, milli maraqlarını ardıcıl şəkildə müdafiə edir, güclü və sülhsevər bir dövlət kimi beynəlxalq ictimaiyyətin hörmətini qazanır.

Bu il həm də Zəfər Gününün beşinci ildönümünün qeyd edilməsi ilə əlamətdar oldu və bu, Azərbaycan tarixində yeni bir fəsil açdı.

Bu mühüm tarixə həsr olunmuş tədbirlər, regional sabitliyin və təhlükəsizliyin gücləndirilməsi istiqamətində səyləriniz, Zəngəzur dəhlizinin açılması ilə bağlı görülən işlər, keçirilən beynəlxalq görüşlər və azad edilmiş ərazilərin bərpası üçün həyata keçirilən genişmiqyaslı tədbirlər - bütün bunlar tarixi Qələbənin məntiqi davamıdır.

Xaricdəki Azərbaycan diasporuna göstərilən diqqəti xüsusi qeyd etmək istəyirəm. Yeni həftəsonu məktəblərinin yaradılması gənc nəslin Azərbaycan dilini öyrənməsinə, mədəniyyəti ilə tanış olmasına, eyni zamanda, birgə mədəni layihələrin həyata keçirilməsi digər xalqların Azərbaycanın mədəni irsinin zənginliyinin şahidi olmasına imkan yaradır.

Cənab Prezident, Sizi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə də təbrik edirəm. Göstərdiyiniz diqqət və qayğıya, həyata keçirdiyiniz uğurlu siyasətə görə Sizə səmimi-qəlbdən təşəkkür edirəm. 2026-cı ilin bütün Azərbaycan üçün daha da uğurlu olmasını arzulayıram.

*Dərin hörmətlə və ən xoş arzularla,*

***Şaul SİMAN-TOV,***
***İsraildə fəaliyyət göstərən "Şolumi" Mərkəzinin rəhbəri, "Azİz" Assosiasiyasının icraçı direktoru, STMEGI TV-nin İsrail filialının rəhbəri***

# Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun 90 illiyinə həsr olunmuş beynəlxalq elmi-praktiki konqresin iştirakçılarına

Hörmətli konqres iştirakçıları!

Sizi Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun 90 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi-praktiki konqresin öz işinə başlaması münasibətilə salamlayır, hər birinizə məsuliyyətli və şərəfli fəaliyyətinizdə yeni müvəffəqiyyətlər arzulayıram.

Dünyanın mötəbər tibb qurumlarını təmsil edən tanınmış alim və mütəxəssislərin iştirak etdiyi bu konqresdə tibb elminin və səhiyyənin müxtəlif aspektlərinə dair ətraflı fikir mübadiləsi aparılacaqdır. Beynəlxalq praktikadan qarşılıqlı surətdə faydalanmaqla aktual məsələlərin müzakirəsinə və həllinə yönəlmiş birgə səylərinizin səmərəli olacağına inanıram.

Ölkəmizdə səhiyyə sistemi öz inkişafının yeni mərhələsinə qədəm qoymuşdur. Dövlətin səhiyyə siyasətinin hədəflərinə uyğun olaraq tibb ocaqları ən müasir standartlar səviyyəsində yenidən qurulur, araşdırmaların son tibbi texnoloji nailiyyətlərin tətbiqi ilə elm və təcrübənin vəhdətində aparılması təşviq edilir. Bu istiqamətdə üzərinə düşən vəzifələrin öhdəsindən bacarıqla gələn Həkimləri Təkmilləşdirmə İnstitutunun özünəməxsus xidmətləri vardır.

İnstitut yarandığı vaxtdan etibarən zəngin bir yol keçmişdir. Tarixinin parlaq səhifələri görkəmli dövlət və elm xadimi Əziz Əliyevin adı ilə bağlı olan bu qocaman elm-tədris müəssisəsində məşhur alimlər nəslinin vaxtilə formalaşdırdığı peşəkar mühit indi də lazımınca qorunur. İnstitut öz bazasında topladığı yüksək hazırlıqlı professor-müəllim heyəti ilə həkimlərin təkmilləşdirilməsi və ixtisaslarının artırılması sahəsində uğurlar əldə edən, mütərəqqi təcrübənin öyrənilərək elmi-praktiki müstəvidə tətbiqinə böyük diqqət yetirən və beynəlxalq əlaqələrini davamlı genişləndirən mərkəz kimi nüfuz qazanmışdır.

Bu baxımdan beynəlxalq miqyaslı belə mühüm bir tədbirin məhz İnstitutun 90 illik yubileyinə həsr olunması rəmzi məna daşıyır. Əminəm ki, konqres azərbaycanlı mütəxəssislərin öz xarici həmkarları ilə əməkdaşlığını daha da möhkəmləndirəcək, insanlara göstərilən tibbi yardımın keyfiyyətinin yüksəldilməsi və ümumilikdə tibb elminin inkişafı işinə töhfəsini verəcəkdir.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 dekabr 2025-ci il**

# Abşeron rayonu ərazisində avtomobil yollarının əsaslı təmiri ilə bağlı əlavə tədbirlər haqqında

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Abşeron rayonunun Hökməli və Qobu qəsəbələri ərazisində avtomobil yollarının əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli 445 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.19.21-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 1,4 milyon (bir milyon dörd yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yollarının əsaslı təmirinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 dekabr 2025-ci il**

# AHİK-də TDHİT İcraiyyə Komitəsinin iclası

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında Türk Dövlətləri Həmkarlar İttifaqları Təşkilatının İcraiyyə Komitəsinin iclası keçirilib.**



Toplantıda TDHİT çərçivəsində koordinasiyalı əməkdaşlığın əmək hüquqlarının qorunması və sosial dialoqun genişləndirilməsi baxımından əhəmiyyəti vurğulanıb, birgə layihələrin icrası, təlim proqramlarının təşkili və təcrübə mübadiləsinin önəmi qeyd edilib. Məclisdə əmək bazarında yeni çağırışlar və onların iş yerlərinə təsiri, müasir tələblərə və beynəlxalq standartlara uyğun layiqli iş şəraitinin yaradılması, eləcə də TDHİT-nin gələcək fəaliyyət istiqamətləri barədə fikir mübadiləsi aparılıb, 2026-cı il üçün iş planı müzakirə olunub.

Sonra qonaqlar AHİK-in "Çağrı Mərkəzi"ndə vətəndaş müraciətlərinin qəbulu üçün yaradılmış şəraitlə, "Kurort" Turizm İnformasiya Mərkəzində tətbiq olunan yeniliklərlə, eləcə də Əməyin Mühafizəsi və Hüquqi Yardım Mərkəzinin fəaliyyəti ilə tanış olublar.

***Q.ƏLİYEV***
***XQ***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli cənab Prezident!**

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edirik.

Sizin rəhbərliyinizlə "Konstitusiya və Suverenlik İli" olan 2025-ci il də uğurlarla və qürur mənbəyi olan hadisələrlə zəngin keçdi. Azərbaycan Respublikasının beynəlxalq müstəvidə öz sözünü inamla deməsi, milli maraqların ardıcıl şəkildə müdafiəsi və ölkənin dünya tərəfindən sülhsevər və güclü bir dövlət kimi qəbul olunması məhz Sizin siyasi iradəniz nəticəsində reallaşmışdır.

Vətən müharibəsində qazanılan Zəfərin 5 illiyinin qeyd olunduğu bu il Azərbaycan xalqının yaddaşına bir sıra mühüm uğurlarla həkk olundu. Zəngəzur dəhlizinin açılması istiqamətində görülən işlər, müxtəlif ölkələrin dövlət başçıları ilə keçirilən mühüm görüşlər, işğaldan azad olunmuş ərazilərin sosial-iqtisadi inkişafı üçün atılan addımlar və s. bu uğurlara nümunədir.

Diaspor fəaliyyətinin genişləndirilməsi istiqamətində görülən işləri də xüsusi qeyd etmək istərdik. Belə ki, xarici ölkələrdə yaradılan yeni həftəsonu məktəbləri gənclərimizin milli ruhda yetişdirilməsində mühüm rol oynamışdır. Diaspor nümayəndələri və digər qurumlarla birlikdə təşkil olunan mədəni proqramlar və digər tədbirlər müxtəlif xalqların Azərbaycan mədəniyyəti və reallıqları barədə daha dolğun məlumat əldə etməsinə şərait yaratmış, ölkəyə marağı artmışdır. Bütün bunlar məhz Sizin xaricdə yaşayan həmvətənlərlə bağlı siyasətinizin bəhrələridir.

Cənab Prezident, Sizi, həmçinin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edir, 2026-cı ilin də zəfər, sülh, nailiyyət, firavanlıq ili kimi yadda qalmasını diləyirik.

Hörmətlə,

***Ben Sion ŞMOELOV,***
***İsraildə fəaliyyət göstərən Qafqaz Yəhudilərinin Mədəniyyət Mərkəzinin rəhbəri***

* * *

**Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan!**

Kanadanın Toronto şəhərində fəaliyyət göstərən və Azərbaycan milli musiqisini, mədəni irsini, klassik və müasir incəsənətini yaşadan və dünyaya tanıdan "Baku Production" layihəsinin təsisçiləri olaraq Sizə dərin ehtiram, qürur və minnətdarlıq hissi ilə müraciət edirik.

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı, tükənməz enerji və Azərbaycanı daha parlaq sabahlara aparan yolda böyük uğurlar arzulayırıq.

Son illər Azərbaycan xalqı Sizin rəhbərliyinizlə tarixin ən şərəfli dönəmini yaşayır. Beş il öncə qazanılmış şanlı Zəfər xalqımızın milli yaddaşına əbədi həkk olunmuş, bütün dünyada yaşayan azərbaycanlılara böyük ruh yüksəkliyi, iftixar hissi bəxş etmişdir. Tarixi Zəfərimiz Azərbaycan xalqının əzmini, iradəsini və birliyini bütün dünyaya nümayiş etdirdi. Zəfərin yaratdığı milli ruh və qürur gələcək nəsillərə yol göstərən əbədi bir işıq olacaqdır. Arzu edirik bu Zəfərin işığı daim sönməz olsun, güc və ilham mənbəyi kimi xalqımızı daha böyük zirvələrə aparsın.

2025-ci ilin "Konstitusiya və Suverenlik İli" kimi qeyd olunması dövlətimizin müstəqilliyinin dönməzliyini, milli iradəmizin gücünü və Zəfərdən doğan yeni geosiyasi reallığın möhkəmlənməsini təsdiqləyən böyük bir hadisədir. Biz bu ili yalnız təqvim kimi deyil, həm də ürəklərimizdə, milli kimliyimizi yaşatdığımız bütün mədəni layihələrimizdə qeyd etdik.

Sizin qətiyyətli və uzaqgörən siyasətiniz Azərbaycanı bu gün beynəlxalq arenada öz sözünü inamla deyən, haqqını qoruyan və mədəni irsini fəxrlə təbliğ edən güclü bir dövlətə çevirmişdir. Məhz bu siyasətin nəticəsidir ki, biz - Kanadada yaşayan mədəniyyət təbliğatçıları Azərbaycan incəsənətini, musiqisini, muğamını, xalq mahnılarını müxtəlif icmalara böyük qürurla təqdim edirik.

Əsas məqsədimiz milli musiqimizi, sənət irsimizi qorumaq, gələcək nəsillərə çatdırmaq və Azərbaycanın adını Kanadada ən yüksək səviyyədə təmsil etməkdir. Bu missiyanı yerinə yetirərkən Sizin uğurlu siyasətiniz bizə həm güc, həm motivasiya, həm də istiqamət verir.

Hörmətli cənab Prezident, Sizi, həmçinin 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə də ürəkdən təbrik edirik. Yeni ilin Vətənimizə əvvəlki illərdə olduğu kimi, firavanlıq, rifah və davamlı qələbələr gətirməsini diləyirik.

*Ən dərin hörmət və ehtiramla,*

***Sənan ƏLİZADƏ və Sultanhüseyn QASIMZADƏ,***
***Kanadada fəaliyyət göstərən "Baku Production" layihəsinin təsisçiləri***

* * *

**Möhtərəm cənab Prezident!**

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edirik.

Hansı ölkədə yaşamalarından asılı olmayaraq bütün azərbaycanlılar Sizinlə fəxr edirlər. Sizin qürur mənbəyi olan uzaqgörən siyasətiniz sayəsində ölkəmiz sürətlə inkişaf edir, onun beynəlxalq aləmdə nüfuzu getdikcə daha da artır. Azərbaycan dövlətinin gücləndirilməsini böyük fəxarət və sevinc hissi ilə izləyirik.

Sizin qətiyyətli rəhbərliyinizlə beş il əvvəl Azərbaycan tarixində yeni bir mərhələ başlandı və torpaqlarımızın işğaldan azad edilməsi xalqımızın yaddaşına əbədi olaraq şanlı Zəfər kimi həkk olundu. Ötən illər ərzində həmin Qələbənin möhkəmləndirilməsi, azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işlərinin həyata keçirilməsi və insanların öz doğma yurdlarına qaytarılması Sizin yorulmaz fəaliyyətiniz sayəsində reallığa çevrilmişdir.

Ölkəmizin suverenliyinin bərpası, inkişaf edərək möhkəmlənməsi istiqamətində həyata keçirdiyiniz uğurlu siyasətə görə Azərbaycan-Yaponiya Dostluq Mərkəzi adından Sizə dərin minnətdarlığımızı bildiririk.

Cənab Prezident, biz, Yaponiyada yaşayan azərbaycanlılar hər zaman doğma Vətənimizin inkişafına və Azərbaycanın maraqlarının beynəlxalq aləmdə təşviqinə öz töhfəmizi verməyə hazırıq. Əminik ki, Sizin rəhbərliyinizlə ölkəmiz gələcəkdə daha böyük nailiyyətlərə imza atacaqdır.

Fürsətdən istifadə edərək Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə Sizə təbriklərimizi çatdırır, xalqımızın müdrik lideri kimi dərin ehtiramımızı bildiririk.

Ulu Tanrıdan Sizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti, şərəfli fəaliyyətinizdə yeni uğurlar, zəfərlər arzulayırıq.

Yaşasın Azərbaycan!

*Hörmətlə,*

***Xəlil KƏLƏNTƏR,***
***Azərbaycan-Yaponiya Dostluq Mərkəzinin sədri, Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvü***

**Hörmətli cənab Prezident!**

Doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırırıq. Sizin rəhbərliyinizlə Azərbaycanın regionda yaratdığı yeni reallıq, qazandığı tarixi nailiyyətlər xaricdə yaşayan azərbaycanlılar üçün böyük iftixar mənbəyidir. Milli həmrəyliyimizin güclənməsi, dövlətimizin daha da inkişafı, beynəlxalq miqyasda nüfuzunun artması ilə bağlı əldə olunan bütün nailiyyətlər birbaşa Sizin möhkəm iradənizin, qətiyyətinizin və uzaqgörən liderliyinizin nəticəsidir. Sizin sayənizdə beş il əvvəl qazanılan tarixi Zəfər bu gün də hər bir azərbaycanlının qəlbində qürur və birlik hissini yaşadır.

Biz, Vətəndən uzaqda yaşayan azərbaycanlılar ölkəmizin uğurları ilə fəxr edirik, Sizin siyasətinizi dəstəkləyirik və hər zaman yanınızdayıq.

Cənab Prezident, Sizi, həmçinin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edirik. 2026-cı ildə Sizə və ölkəmizə yeni-yeni nailiyyətlər arzulayırıq.

*Dərin hörmətlə,*

***Tamella SEVERCAN,***
***Kanadanın Vankuver şəhərində fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzinin rəhbəri***

* * *

**Hörmətli cənab Prezident!**

Sizi dərin hörmət və ehtiramla salamlayır, doğum gününüz münasibətilə ən səmimi təbriklərimizi çatdırırıq. Sizə möhkəm cansağlığı, xoşbəxtlik və Azərbaycan Respublikasının daha da inkişafı üçün fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayırıq.

Bu il 44 günlük Vətən müharibəsində əldə edilən tarixi Qələbənin

5-ci ildönümünü böyük iftixar hissi ilə qeyd etdik. Sizin uzaqgörən siyasətiniz, əzminiz, qətiyyətiniz və xalqın milli birliyi bu möhtəşəm Zəfərin reallaşmasında mühüm rol oynamışdır. Azərbaycan xalqının qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazılan bu Qələbə müdrik rəhbərliyinizin parlaq təcəssümüdür.

Sizi, həmçinin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni 2026-cı il münasibətilə də səmimi-qəlbdən təbrik edir, xalqın həmrəyliyinin, milli birliyinin daha da möhkəmlənməsini, ölkənin davamlı şəkildə böyük nailiyyətlər, zəfərlər qazanmasını arzu edirik.

*Dərin hörmətlə,*

***Cavid AYDIN,***
***Türkiyədə fəaliyyət göstərən Əskişəhər Azərbaycanlılar Dərnəyinin sədri***

* * *

**Möhtərəm cənab Prezident!**

Sizi doğum gününüz münasibətilə Hatay Azərbaycan Evi adından səmimi-qəlbdən təbrik edirik.

Sizin rəhbərliyinizlə Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biri yazılmış, Vətən müharibəsində əldə olunan şanlı Qələbə xalqın gücünü, iradəsini və birliyini bütün dünyaya nümayiş etdirmişdir.

Bu gün regionda formalaşan yeni siyasi və təhlükəsizlik mühiti, eyni zamanda Azərbaycanın suverenliyinin tam təmin olunması Sizin düşünülmüş, ardıcıl və prinsipial siyasətinizin bariz göstəricisidir.

Sizə möhkəm cansağlığı, tükənməz enerji, Azərbaycanın daha da inkişafına yönəlmiş fəaliyyətinizdə davamlı uğurlar diləyirik. Əminik ki, Sizin liderliyinizlə Azərbaycan qarşıdakı illərdə daha böyük nailiyyətlər əldə edəcək və ölkənin mövqeyi beynəlxalq arenada daha da möhkəmlənəcəkdir.

Fürsətdən istifadə edərək Sizi bütün soydaşlarımızın birliyinin təcəssümü olan 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə də təbrik edirik. Sizin həyata keçirdiyiniz siyasət sayəsində bu həmrəylik daha möhkəm, Azərbaycan diasporu isə daha fəal və məqsədyönlü şəkildə fəaliyyət göstərməkdədir.

Sizə dərin hörmət və ehtiramımızı bildirir, Azərbaycan xalqına və dövlətinə göstərdiyiniz xidmətlərdə davamlı nailiyyətlər arzulayırıq.

*Hörmətlə,*

***Başar KÖMÜR,***
***Türkiyədə fəaliyyət göstərən Hatay Azərbaycan Evinin rəhbəri***

* * *

**Hörmətli cənab Prezident!**

Doğum gününüz münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan böyük şərəf duyuram.

Qarabağ Zəfəri ilə müasir Azərbaycan dövlətçiliyinin qüdrətini bütün dünyaya nümayiş etdirmiş Lider, Türk dünyasının qürur mənbəyi olaraq Sizin qətiyyətli və uzaqgörən siyasi rəhbərliyinizlə Azərbaycan xalqı Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş dövlətçilik yolunu tarixi Zəfərlə başa çatdıraraq 30 illik işğala son qoymuşdur. Bu möhtəşəm nailiyyət milli tariximizdə mühüm dönüş nöqtəsi olmaqla yanaşı, Türk dünyasının ortaq yaddaşında da silinməz iz buraxmışdır və xalqın birliyinin, siyasi iradəsinin və dövlətçilik əzminin parlaq təcəssümüdür.

Bu əlamətdar gündə Türk Dövlətləri Parlament Assambleyası adından Sizi təbrik etməklə yanaşı, qeyd etmək istərdim ki, Sizin rəhbərliyinizlə yazılmış Zəfər salnaməsi Türk dünyasında mənəvi həmrəyliyin möhkəmlənməsinə, ortaq dəyərlər ətrafında daha sıx birləşməyə və gələcəyə birlikdə inamla addımlamağa mühüm töhfə vermişdir. Bu gün Türk dünyası Sizin liderliyinizə və xidmətlərinizə dərin ehtiramla və minnətdarlıqla yanaşır.

Bu xoş fürsətdən istifadə edərək, Zati-alinizə möhkəm cansağlığı, uzun və gümrah ömür, Azərbaycan Respublikasının davamlı inkişafı və xalqımızın rifahı naminə həyata keçirdiyiniz ali dövləti fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

*Yüksək hörmət və ehtiramla,*

***Ramil HƏSƏN,***
***Türk Dövlətləri Parlament Assambleyasının Baş katibi***

# “Konstitusiya və Suverenlik İli” münasibətilə amnistiya elan edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasının Milli Məclisi,

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin siyasi iradəsi və xilaskarlıq missiyası sayəsində müstəqil Azərbaycan dövlətinin qurulub möhkəmləndiyini, Ulu Öndərin rəhbərliyi ilə qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasının müasir dövlətçiliyimizin hüquqi təməlini yaratdığını dərin ehtiramla xatırlayaraq,

Azərbaycan Respublikası Konstitusiyasının ümumbəşəri dəyərlərə əsaslanaraq müasir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, digər ölkələrlə dostluq, sülh və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ülvi niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası olduğunu xüsusi qeyd edərək,

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və uzaqgörən strategiyası, sarsılmaz liderliyi və Silahlı Qüvvələrimizin misilsiz qəhrəmanlığı sayəsində Vətən müharibəsində qazandığımız Zəfər və lokal xarakterli antiterror əməliyyatı nəticəsində Azərbaycan Respublikasının ərazi bütövlüyünün və suverenliyinin tam bərpa edilməsinin, Konstitusiyamızın ali qüvvəsinin ölkəmizin bütün ərazilərində bərqərar olunmasının xalqımızın ən böyük tarixi qələbəsi olduğunu böyük qürur hissi ilə vurğulayaraq,

suverenliyin bərpasının milli həmrəyliyimizi, dövlətçilik ideologiyamızı daha da möhkəmləndirdiyini, xalq–dövlət birliyinin sarsılmazlığını bütün dünyaya nümayiş etdirdiyini və gələcək nəsillər üçün əbədi örnək olduğunu fəxrlə bəyan edərək,

humanizm və mərhəmət ənənələrinə sadiq qalaraq, cinayətlərin xarakterini və ictimai təhlükəlilik dərəcəsini nəzərə alaraq, cəzadan azad etmənin tərbiyəvi əhəmiyyətinə inanaraq, cəzadan azad olunacaq şəxslərin qanunlara dönmədən əməl edəcəklərinə və dövlətimizin inkişafına öz töhfələrini verəcəklərinə ümid edərək,

suverenliyimizin və ərazi bütövlüyümüzün bərpasının memarı olan Azərbaycan Respublikasının Prezidenti tərəfindən irəli sürülmüş təşəbbüsü dəstəkləyərək və Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq, “Konstitusiya və Suverenlik İli” münasibətilə aşağıdakı amnistiyanın elan edilməsini **qərara alır:**

**I. Amnistiya tətbiq edilən şəxslərin dairəsi**

1. Təyin edilmiş cəzanın müddətindən asılı olmayaraq, aşağıdakı məhkumlar müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasından azad edilsinlər (bu Qərarın 6-cı və 7-ci hissələrində qeyd edilən məhdudiyyətlər nəzərə alınmaqla):

1.1. Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda aparılan döyüş əməliyyatlarında, o cümlədən Vətən müharibəsində və 2023-cü il sentyabrın 19–20-də keçirilmiş antiterror əməliyyatında iştirak etmiş şəxslər, habelə bu əməliyyatlarda həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumları;

1.2. Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda aparılan döyüş əməliyyatlarında, o cümlədən Vətən müharibəsində və 2023-cü il sentyabrın 19–20-də keçirilmiş antiterror əməliyyatında iştirakla əlaqədar, habelə digər xüsusi xidmətlərə görə Azərbaycan Respublikasının orden və medalları ilə təltif olunmuş şəxslər (qanunvericiliklə müəyyən edilmiş qaydada orden və medallardan məhrum edilmiş şəxslər istisna olmaqla);

1.3. bu Qərar qüvvəyə mindiyi günədək, o cümlədən Vətən müharibəsi dövründə mülki əhaliyə qarşı Ermənistan Respublikasının hərbi təxribatı nəticəsində əlil olmuş şəxslər və ya həlak olmuş şəxslərin yaxın qohumları;

1.4. Xocalı soyqırımında əlil olmuş şəxslər, həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumları;

1.5. 1948–1953-cü və 1987–1991-ci illərdə etnik təmizləmə, terrorçuluq və soyqırımı siyasəti nəticəsində Ermənistandan deportasiya olunmuş şəxslər;

1.6. 1988–1993-cü illərdə Azərbaycan ərazisinin bir hissəsinin Ermənistan tərəfindən işğalı nəticəsində öz doğma torpaqlarından məcburi köçkün düşmüş şəxslər;

1.7. 1990-cı il 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər və şəhid olmuş şəxslərin yaxın qohumları;

1.8. Azərbaycan Respublikasının, habelə keçmiş SSRİ-nin Silahlı Qüvvələri tərkibində beynəlmiləl borcunu yerinə yetirmiş və ya sülhməramlı əməliyyatlarda iştirak etmiş şəxslər, həmçinin həmin vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumları;

1.9. İkinci Dünya müharibəsi dövründə faşizmə qarşı döyüşlərdə iştirak etmiş, eləcə də həmin dövrdə keçmiş SSRİ-nin Silahlı Qüvvələrində və arxa cəbhədə xidmət etmiş və qanunvericiliklə müəyyən edilmiş qaydada bunlara bərabər tutulan şəxslər, həmçinin bu döyüşlərdə həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumları, habelə keçmiş SSRİ-nin orden və medalları ilə təltif olunmuş şəxslər (qanunvericiliklə müəyyən edilmiş qaydada orden və medallardan məhrum edilmiş şəxslər istisna olmaqla);

1.10. keçmiş SSRİ dövründə siyasi repressiyaya məruz qalmış, sonradan səlahiyyətli orqanların qərarları ilə bəraət almış şəxslər və onların yaxın qohumları;

1.11. Çernobıl qəzasının aradan qaldırılmasında iştirak etmiş şəxslər və onlara himayəçilik edən şəxslər (himayəçilik qanunvericilikdə nəzərdə tutulmuş qaydada müəyyən olunmuşdursa);

1.12. qadınlar;

1.13. cinayət törədərkən 18 yaşına çatmamış şəxslər;

1.14. bu Qərar qüvvəyə mindiyi günədək 60 yaşına çatmış şəxslər;

1.15. bu Qərar qüvvəyə mindiyi günədək orqanizmin funksiyalarının 61–100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslər;

1.16. öhdəsində (himayəsində) yetkinlik yaşına çatmayan övladı, yaxud orqanizmin funksiyalarının 61–100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş övladı olan şəxslər, o cümlədən bu Qərar qüvvəyə mindiyi günədək atalığı, övladlığa götürməsi, qəyyumluğu və himayəçiliyi qanunvericilikdə nəzərdə tutulmuş qaydada müəyyən olunmuş şəxslər.

2. Bu Qərarın 1-ci hissəsində nəzərdə tutulan şəxslərdən başqa, aşağıdakı məhkumlar cəzadan azad edilsinlər (bu Qərarın 6-cı hissəsində qeyd edilən məhdudiyyətlər nəzərə alınmaqla):

2.1. yalnız böyük ictimai təhlükə törətməyən cinayət törətdiklərinə görə müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslər;

2.2. bu Qərarın 2.1-ci bəndində nəzərdə tutulan şəxslərdən başqa, ehtiyatsızlıqdan cinayət törətdiklərinə görə 5 ildən artıq olmayan müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxslər;

2.3. bu Qərarın 2.2-ci bəndində nəzərdə tutulan şəxslərdən başqa, az ağır cinayət törətdiklərinə görə təyin edilmiş müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasının bu Qərar qüvvəyə mindiyi günədək çəkilməmiş hissəsi 1 ildən artıq olmayan şəxslər;

2.4. bu Qərarın 2.2-ci bəndində nəzərdə tutulan şəxslərdən başqa, ilk dəfə ağır cinayət törətdiklərinə görə təyin edilmiş müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasının bu Qərar qüvvəyə mindiyi günədək çəkilməmiş hissəsi 6 aydan artıq olmayan şəxslər;

2.5. intizam xarakterli hərbi hissədə saxlama cəzasına məhkum edilmiş şəxslər;

2.6. azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş şəxslər;

2.7. hərbi xidmət üzrə məhdudlaşdırma cəzasına məhkum edilmiş şəxslər;

2.8. islah işləri cəzasına məhkum edilmiş şəxslər;

2.9. ictimai işlər cəzasına məhkum edilmiş şəxslər;

2.10. əsas cəza kimi müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cəzasına məhkum edilmiş şəxslər;

2.11. böyük ictimai təhlükə törətməyən cinayət törətdiklərinə görə əsas və ya əlavə cəza kimi cərimə cəzasına məhkum edilmiş şəxslər, habelə əsas və ya əlavə cəza kimi üç min manatdan artıq olmayan miqdarda cərimə cəzasına məhkum edilmiş və ya bu Qərarın tətbiq edildiyi gün cərimə cəzasının ödənilməmiş hissəsi üç min manatdan artıq olmayan şəxslər;

2.12. böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətdiklərinə görə azadlıqdan məhrum etmə cəzasına şərti məhkum edilmiş və ya bu növ cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş, yaxud bu növ cəzanın çəkilməsi təxirə salınmış şəxslər;

2.13. azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzaya şərti məhkum edilmiş və ya bu növ cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş, yaxud bu növ cəzanın çəkilməsi təxirə salınmış şəxslər.

3. Bu Qərarın 1-ci və 2-ci hissələrində nəzərdə tutulan şəxslərdən başqa, aşağıdakı məhkumların cəzası 6 ay azaldılsın (bu Qərarın 6-cı hissəsində qeyd edilən məhdudiyyətlər nəzərə alınmaqla):

3.1. az ağır cinayət törətməyə görə təyin edilmiş müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasının bu Qərar qüvvəyə mindiyi günədək çəkilməmiş hissəsi 1 ildən artıq olan şəxslər;

3.2. ehtiyatsızlıqdan ağır cinayət törətdiklərinə görə təyin edilmiş 5 ildən artıq müddətə azadlıqdan məhrum etmə cəzasının bu Qərar qüvvəyə mindiyi günədək çəkilməmiş hissəsi 6 aydan artıq olan şəxslər.

4. Bu Qərarın 1.1–1.16-cı bəndlərində nəzərdə tutulan şəxslər, habelə böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxslər haqqında təhqiqat və ibtidai istintaq orqanları tərəfindən amnistiya tətbiq olunaraq cinayət təqibi başlanmır, başlanılmış cinayət təqibinə isə xitam verilir (bu Qərarın 6-cı və 7-ci hissələrində qeyd edilən məhdudiyyətlər nəzərə alınmaqla).

5. Məhkəmələr:

5.1. icraatında olan bu Qərar qüvvəyə mindiyi günədək baxılmamış cinayət işləri və məhkəməyədək sadələşdirilmiş icraat materialları üzrə bu Qərarın 1.1–1.16-cı bəndlərində nəzərdə tutulan şəxslər, habelə böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxslər barəsində cinayət təqibinə xitam verir və ya həmin şəxsləri təyin edilmiş cəzadan azad etməklə ittiham hökmü çıxarırlar (bu Qərarın 6-cı və 7-ci hissələrində qeyd edilən məhdudiyyətlər nəzərə alınmaqla);

5.2. bu Qərar qüvvəyə mindiyi günədək çıxarılaraq amnistiyanın tətbiq edildiyi günədək apellyasiya qaydasında mübahisələndirilməyən qanuni qüvvəyə minməmiş hökmlər üzrə:

5.2.1. bu Qərarın 1.1–1.16-cı bəndlərində nəzərdə tutulan şəxsləri təyin edilmiş cəzadan azad edirlər (bu Qərarın 6-cı və 7-ci hissələrində qeyd edilən məhdudiyyətlər nəzərə alınmaqla);

5.2.2. bu Qərarın 2-ci hissəsində nəzərdə tutulan şəxsləri təyin edilmiş cəzadan azad edirlər (bu Qərarın 6-cı hissəsində qeyd edilən məhdudiyyətlər nəzərə alınmaqla);

5.2.3. bu Qərarın 3-cü hissəsində nəzərdə tutulan şəxslərin cəzalarını azaldırlar (bu Qərarın 6-cı hissəsində qeyd edilən məhdudiyyətlər nəzərə alınmaqla);

5.3. icraatlarında olan apellyasiya və ya kassasiya şikayətləri (protestləri) üzrə işlərə baxarkən bu Qərarın 5.1-ci və 5.2-ci bəndlərinin müddəalarına müvafiq olaraq amnistiya tətbiq edirlər.

**II. Amnistiyanın tətbiqinə məhdudiyyətlər**

6. “Amnistiya aktlarının tətbiqinin məhdudlaşdırılması haqqında” Azərbaycan Respublikasının 1994-cü il 24 fevral tarixli 793 nömrəli Qanununda nəzərdə tutulmuş şəxslər barəsində amnistiya tətbiq edilmir.

7. Bu Qərarın 1-ci və 4-cü hissələri, 5.1-ci bəndi və 5.2.1-ci yarımbəndi aşağıdakı şəxslər barəsində tətbiq edilmir:

7.1. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 15.4-cü və 15.5-ci maddələrində nəzərdə tutulan ağır və xüsusilə ağır cinayətlərə, həmçinin Cinayət Məcəlləsinin 101, 115.1, 122.2, 124, 125, 127.2, 133.2, 136.3, 137, 138.2–138.4, 139.2, 139-1, 140.2, 140.4, 141.4, 142.4, 142.5, 145.2, 146.2, 151, 152.1–152.3, 153.1–153.3, 159.4, 162.2, 162.3, 167-1.3–167-1.5, 167-2.2, 167-3, 168, 168-1.2, 168-1.3, 169.2, 170.1, 170.2, 171.1, 171-1.1, 171-2, 172, 176-1, 176-2, 177.1, 177.2, 180.1, 180.2, 182.1, 183.1, 185.2, 186.2, 188.3, 189-1.4, 192.2, 192.3, 192-2.1, 192-2.2, 192-2.4, 192-2.5, 193.2, 193.3, 193-1.1, 194.2, 195-1.3, 195-2.2, 199.2, 200.4, 200-1.3, 200-2.3, 200-3.1–200-3.4, 201.2, 204.1, 205, 205-1, 206.1–206.2, 206-1, 207, 208, 209.3, 213.2, 213.3, 213-1.2, 214-2, 220.2, 221.2, 221.3, 222.3, 222-1.3, 222-2.2, 223.2, 224, 224-1, 224-2, 225.2, 226.3, 227.1, 227.2, 227-1, 228.1, 228.2, 229.1, 229.2, 232.1, 233, 233-1.1, 233-4.2, 233-4.3, 234.2, 234.3, 235.1, 235.2, 236.1, 238.1, 240.1–240.2, 243, 244, 244-1.2, 244-1.3, 245, 247, 248.2, 250.3, 251.3, 252.3, 253.2, 254.3, 255.2, 256.3, 258.3, 259.2–259.4, 260.2, 260.3, 262.2, 263.2, 263-1.1, 263-1.2, 264, 265.2, 265-1.2, 266.2, 267.3, 268.2, 270-1.3, 271.3, 272.3, 273.4, 281.1, 281-1.1, 283, 283-1.4, 284.1, 284-1, 284-2.1, 285, 288.1–288.3, 289, 290, 291, 292.2, 292.2-1, 294.2, 294.3, 295.1, 296.2, 297.2, 299.3, 299.4, 301.2, 302.2, 302.3, 304.2, 306, 307.3, 308, 308-1, 308-2.4, 309.1, 312.1, 312-1, 313, 314.2, 314.3, 314-1.1, 314-2.2, 314-3.2, 314-3.3, 314-4, 315, 316.2, 316-1.3, 317.1, 317.2, 317-1.2, 318, 318-1.2, 319.2, 320, 321.2, 323, 324, 328.2, 328.3, 329.1, 329.2, 330.1–330.3, 332.1-2, 332.2, 335.3, 336, 338.2, 339.2, 340.2, 341.2, 342.1-1, 342.2, 344.1, 346.1, 348.2, 349, 350.2, 351.2, 352.1 və 353.1-ci maddələrində, habelə “Korrupsiyaya qarşı mübarizə ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2006-cı il 7 aprel tarixli 92-IIIQD nömrəli Qanunu ilə sanksiyaları ağırlaşdırılanadək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 311.1-ci maddəsində, “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 405-IVQD nömrəli Qanunu ilə sanksiyası ağırlaşdırılanadək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 296.2-ci maddəsində, “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2013-cü il 19 aprel tarixli 610-IVQD nömrəli Qanunu ilə sanksiyası ağırlaşdırılanadək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 144-2.2-ci maddəsində, “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 6 mart tarixli 1231-IVQD nömrəli Qanunu ilə sanksiyası ağırlaşdırılanadək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 284.2-ci maddəsində, “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2016-cı il 5 aprel tarixli 184-VQD nömrəli Qanunu ilə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 199-cu maddəsi yeni redaksiyada verilənədək həmin Məcəllənin 199.3-cü maddəsində, “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2017-ci il 20 oktyabr tarixli 816-VQD nömrəli Qanunu ilə sanksiyası ağırlaşdırılanadək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 309.2-ci maddəsində, “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2020-ci il 1 may tarixli 68-VIQD nömrəli Qanunu ilə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 315-ci maddəsi yeni redaksiyada verilənədək həmin Məcəllənin 315.1-ci və 315.2-ci maddələrində və həmin Qanunla Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 335-ci maddəsi yeni redaksiyada verilənədək həmin Məcəllənin 335.2-ci maddəsində, “Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, “Uşaq hüquqları haqqında”, “Vəkillər və vəkillik fəaliyyəti haqqında”, “Təhsil haqqında”, “Sosial xidmət haqqında”, “Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında” və “Ümumi təhsil haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 22 dekabr tarixli 776-VIQD nömrəli Qanunu ilə sanksiyası ağırlaşdırılanadək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 150.1-ci maddəsində və “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2025-ci il 13 iyun tarixli 212-VIIQD nömrəli Qanunu ilə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 142-ci maddəsi yeni redaksiyada verilənədək həmin Məcəllənin 142.3-cü maddəsində nəzərdə tutulmuş cinayətlərə görə təqsirləndirilən və ya məhkum olunmuş şəxslər;

7.2. 2000-ci il sentyabrın 1-dək qüvvədə olmuş Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 7-1-ci maddəsində nəzərdə tutulmuş ağır cinayətlərə, habelə həmin Məcəllənin 69-cu maddəsinin ikinci hissəsində, 93-5-ci maddəsinin birinci hissəsində, 93-6-cı maddəsinin birinci hissəsində, 93-9-cu maddəsinin ikinci hissəsində, 100-cü maddəsinin birinci hissəsində, 113-cü maddəsinin ikinci hissəsində, 114-cü maddəsinin dördüncü hissəsində, 120-ci maddəsinin ikinci hissəsində, 126-cı maddəsində, 171-ci maddəsinin birinci hissəsində, 178-ci maddəsinin ikinci hissəsində, 185-ci maddəsində, 208-ci maddəsinin ikinci və üçüncü hissələrində, 220-ci maddəsinin birinci və üçüncü hissələrində, 229-cu maddəsinin birinci hissəsində, 241-ci maddəsinin “q” bəndində, 255-1-ci maddəsinin “v” və “q” bəndlərində nəzərdə tutulmuş cinayətlərə görə təqsirləndirilən və ya məhkum olunmuş şəxslər;

7.3. “Qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə və digər məcəllələrinə dəyişikliklər və əlavələr edilməsi haqqında” Azərbaycan Respublikasının 1998-ci il 7 aprel tarixli 463-IQD nömrəli Qanunu ilə 2000-ci il sentyabrın 1-dək qüvvədə olmuş Azərbaycan Respublikasının Cinayət Məcəlləsindən çıxarılmış 83-cü maddənin üçüncü və dördüncü hissələri, 88-ci və 88-1-ci maddələr, 91-ci maddənin ikinci və üçüncü hissələri, 143-cü maddənin üçüncü və dördüncü hissələri, 145-ci maddə, 147-ci maddənin üçüncü hissəsi ilə, həmçinin “Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə bəzi dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 1996-cı il 29 may tarixli 90-IQD nömrəli Qanunu ilə 2000-ci il sentyabrın 1-dək qüvvədə olmuş Azərbaycan Respublikasının Cinayət Məcəlləsindən çıxarılmış 60-cı, 65-ci və 191-1-ci maddələrlə məhkum olunmuş şəxslər;

7.4. bu Qərar tətbiq olunanadək maddi ziyanı tam ödəməmiş şəxslər;

7.5. təhlükəli və ya xüsusilə təhlükəli residiv yaradan cinayətlərə görə məhkum edilmiş və ya 2000-ci il sentyabrın 1-dək qüvvədə olmuş Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən xüsusi təhlükəli residivist hesab olunmuş şəxslər;

7.6. 1991-ci il oktyabrın 18-dən sonra amnistiya və ya əfvetmə aktları ilə qəsdən törədilmiş cinayətlərə görə cəzaçəkmə müəssisələrində azadlıqdan məhrum etmə cəzasını çəkməkdən azad olunmuş və yenidən qəsdən ağır və ya xüsusilə ağır cinayət törətmiş şəxslər;

7.7. cəzaçəkmə müəssisələrində və ya intizam xarakterli hərbi hissədə cəza çəkərkən, habelə həbs yerlərində saxlanılarkən qəsdən cinayət törətmiş şəxslər.

**III. Amnistiya aktının hüquqi qüvvəsi**

8. Bu Qərar qəbul olunduğu gündən qüvvəyə minir.

9. Bu Qərarın 1–3-cü hissələri amnistiya aktı qüvvəyə mindiyi günədək qüvvəyə minmiş hökmlər əsasında məhkum edilmiş, həmçinin həmin tarixədək qüvvəyə minmiş məhkəmə qərarları əsasında cəza təyin edilmiş və ya şərti məhkum edilmiş, cəzasının çəkilməsi təxirə salınmış, şərti olaraq vaxtından əvvəl azad edilmiş, habelə bu Qərar qüvvəyə mindiyi günədək çıxarılaraq amnistiya aktı qəbul edildikdən sonra qüvvəyə minmiş hökmlər əsasında məhkum edilmiş şəxslər barəsində tətbiq edilir.

10. Bu Qərarın 4-cü və 5-ci hissələri amnistiya aktı qüvvəyə mindiyi günədək cinayət törətmiş şəxslər barəsində tətbiq edilir.

11. Bu Qərarın 12-ci hissəsində nəzərdə tutulan şəxslər istisna olmaqla, uzanan və ya davam edən cinayətlər amnistiya aktı qüvvəyə mindiyi günədək bitmədikdə, onları törətmiş şəxslərə amnistiya şamil edilmir.

12. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 321.1, 333.1–333.4-1-ci və 334.1-ci maddələrində nəzərdə tutulmuş cinayətləri bu Qərar qüvvəyə mindiyi günədək törətmiş şəxslərə, bu Qərarın 39-cu hissəsində nəzərdə tutulmuş müddətdə onlar könüllü gəldiyi və tutulduğu hallarda, amnistiya şamil edilir.

13. Bu Qərar qüvvəyə mindikdən sonra hökmün və ya məhkəmənin digər yekun qərarlarının icrası qaydasında məhkumun cəzasının çəkilməmiş hissəsinin azalması və ya şəxsin digər şəkildə hüquqi vəziyyətinin dəyişməsi (bu Qərarın 2.11-ci və 7.4-cü bəndlərində nəzərdə tutulmuş hallar, habelə bu Qərar qanuni qüvvəyə mindiyi günədək qüvvəyə minmiş yeni cinayət qanununun tətbiqi ilə əlaqədar şəxsin vəziyyətinin yaxşılaşması halı istisna olmaqla) həmin şəxs barəsində bu Qərara əsasən amnistiyanın tətbiqi üçün əsas deyildir.

14. Bu Qərarın cəzanın çəkilməmiş hissəsinə dair müddəaları cinayətlərin və ya hökmlərin məcmusu üzrə qəti cəzanın çəkilməmiş hissəsini nəzərdə tutur. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 68.2-ci maddəsi üzrə biri digəri ilə toplanaraq müstəqil icra edilən əsas cəzalardan hər hansı biri bu Qərar qüvvəyə mindiyi gün onun təsiri altına düşmürsə, bu Qərara əsasən amnistiya tətbiq edilmir.

15. Cinayətlərin məcmusu üzrə bir neçə cinayətin törədilməsində ittiham olunan şəxsin, eləcə də cinayətlərin və ya hökmlərin məcmusu üzrə bir neçə cinayətin törədilməsinə görə məhkum edilmiş şəxsin müvafiq olaraq ittiham və ya məhkum edildiyi cinayətlərdən birinə görə amnistiyanın tətbiqi bu Qərarın müddəaları ilə məhdudlaşdırılmışdırsa, ona amnistiya tətbiq edilmir.

16. Bu Qərara əsasən amnistiya tətbiq edilməsi ittiham hökmlərinin və ya digər qərarların qanuniliyinin, əsaslılığının və ya ədalətliliyinin yuxarı instansiya məhkəmələrində mübahisələndirilməsinə mane olmur.

17. Bu Qərar Azərbaycan Respublikasında tanınan xarici dövlətlərin məhkəmələrinin hökmləri ilə məhkum edilmiş və cəzasını Azərbaycan Respublikasında çəkən şəxslərə də şamil edilir.

18. Barələrində amnistiya tətbiq olunmuş çağırışçıların və hərbi qulluqçuların müvafiq olaraq həqiqi hərbi xidmətə çağırış və hərbi xidmət məsələləri qanunvericiliklə müəyyən edilmiş qaydada həll edilir.

**IV. Amnistiyanın tətbiqi qaydaları**

19. Amnistiya Azərbaycan Respublikası Cinayət, Cinayət-Prosessual və Cəzaların İcrası məcəllələrinin tələblərinə uyğun olaraq aşağıdakı orqanlar tərəfindən tətbiq edilir:

19.1. cəzaçəkmə müəssisələri – bu Qərarın 1-ci hissəsində və 2.1–2.4-cü bəndlərində nəzərdə tutulan şəxslər barəsində;

19.2. intizam xarakterli hərbi hissənin və hərbi hissələrin komandanlığı – bu Qərarın 2.5-ci və 2.7-ci bəndlərində nəzərdə tutulan şəxslər barəsində;

19.3. icra məmurları – bu Qərarın 2.6-cı və 2.8–2.11-ci bəndlərində nəzərdə tutulan şəxslər barəsində;

19.4. təhqiqat və ya ibtidai istintaq orqanları – bu Qərarın 4-cü hissəsində nəzərdə tutulan şəxslər barəsində;

19.5. məhkəmələr – bu Qərarın 2.12-ci və 2.13-cü bəndlərində, 3-cü və 5-ci hissələrində nəzərdə tutulan şəxslər barəsində.

20. Bu Qərarın 19.1–19.4-cü bəndlərində nəzərdə tutulan orqanlar amnistiyanın tətbiq edilməsi barədə qərarları müvafiq prokurorların razılığı ilə qəbul etməlidirlər.

21. Təhqiqat və ya ibtidai istintaq orqanları amnistiya tətbiq edərkən Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində nəzərdə tutulmuş cinayət təqibinə xitam verilməsi qaydalarına riayət etməli, o cümlədən Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 41.2-ci maddəsinə müvafiq olaraq barəsində amnistiya tətbiq olunacaq şəxslərin razılığını almalıdırlar.

22. Bu Qərarın 2.12-ci və 2.13-cü bəndlərində nəzərdə tutulan şəxslər barəsində amnistiyanın tətbiq edilməsi məsələsinə həmin məhkumların üzərində nəzarəti həyata keçirən orqanların müraciəti əsasında məhkumun yaşayış yeri üzrə birinci instansiya məhkəmələri tərəfindən baxılır.

23. Bu Qərarın 3-cü hissəsində nəzərdə tutulan şəxslər barəsində amnistiyanın tətbiq edilməsi məsələsinə həmin məhkumların cəza çəkdikləri cəzaçəkmə müəssisələrinin müraciəti əsasında cəzanın çəkildiyi yer üzrə birinci instansiya məhkəmələri tərəfindən baxılır.

24. Birinci instansiya məhkəmələrinin icraatında olan, bu Qərar qüvvəyə mindiyi günədək baxılmamış cinayət işləri və məhkəməyədək sadələşdirilmiş icraat materialları üzrə amnistiyanın tətbiqi məsələlərinə baxılarkən cinayət təqibinə xitam verilməsinə müdafiə tərəfinin razılığı olduqda Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 43.3-cü maddəsinə əsasən cinayət təqibinə xitam verilməsi haqqında qərar qəbul edilir, amnistiya tətbiq edilməklə cinayət təqibinə xitam verilməsinə müdafiə tərəfinin razılığı olmadıqda Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 44.2-ci maddəsinə əsasən şəxsə təyin edilmiş cəzadan onu azad etməklə ittiham hökmü çıxarılır.

25. Apellyasiya qaydasında mübahisələndirilməyən qanuni qüvvəyə minməmiş hökmlər üzrə şəxslərə amnistiyanın tətbiq edilməsi məsələsinə cinayət prosesi tərəflərinin müraciətinə əsasən hökmü çıxarmış birinci instansiya məhkəmələri tərəfindən baxılır. Bu Qərar qüvvəyə mindiyi günədək çıxarılaraq amnistiya aktı qəbul edildikdən sonra qüvvəyə minmiş hökmlər üzrə şəxslərə amnistiyanın tətbiq edilməsi məsələsinə bu Qərarın 19.1–19.3-cü bəndlərində, 22-ci və 23-cü hissələrində nəzərdə tutulan orqanlar tərəfindən baxılır.

26. Apellyasiya şikayəti və ya protesti verilmiş qanuni qüvvəyə minməmiş hökmlər üzrə şəxslərə amnistiya həmin şikayətlərə və ya protestlərə apellyasiya instansiyası məhkəmələrində baxılarkən tətbiq edilir.

27. Kassasiya şikayəti və ya protesti verilmiş məhkəmə qərarları üzrə məhkumlara bu Qərara uyğun olaraq amnistiya tətbiq edilməmişdirsə, onların şikayətlərinə və ya protestlərə kassasiya instansiyası məhkəməsində baxılarkən amnistiya tətbiq edilir.

28. Bu Qərarın 22-ci, 23-cü və 25-ci hissələrində nəzərdə tutulan qaydada amnistiyanın tətbiqi məsələlərinə baxarkən, məhkəmələr Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində hökm və ya məhkəmənin digər yekun qərarlarının icrası qaydasında icraat üçün nəzərdə tutulmuş tələblərə riayət etməlidirlər.

29. Məhkəmələr tərəfindən amnistiyanın tətbiqi məsələlərinə baxılarkən məhkəmə iclasında müvafiq prokurorun və müdafiə tərəfinin iştirakı ilə bağlı Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində müəyyən edilmiş qaydalara riayət edilməlidir.

*(ardı 5-ci səhifədə)*

# "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

**(əvvəli 4-cü səhifədə)**

30. Bu Qərar onun təsiri altına düşən hər bir şəxs barəsində ayrı-ayrılıqda tətbiq edilir.

31. Amnistiya tətbiq edilərkən məhkumun şəxsi işi öyrənilməli və amnistiyanın tətbiqi məsələlərinin həlli üçün zəruri sənədlər amnistiyanın tətbiqi barədə qərara əlavə edilməlidir. Amnistiyanı tətbiq edən orqanlar amnistiyanın tətbiqi barədə qərar qəbul edilməsi üçün zəruri sənədləri müvafiq orqanlardan tələb etməyə haqlıdırlar. Bu sorğular dərhal icra edilməlidir.

32. Barələrində amnistiya tətbiq olunaraq cəza çəkməkdən azad edilən vərəm xəstəliyinə tutulmuş şəxslər qanunvericiliklə müəyyən edilmiş qaydada 10 gün müddətində yaşayış yeri üzrə vərəm əleyhinə tibb müəssisələrində qeydiyyata alınır və müalicələrini davam etdirirlər.

33. Anlaqlılığı istisna etməyən psixi pozuntuya görə tibbi xarakterli məcburi tədbir təyin olunmuş şəxslər barəsində amnistiya tətbiq edilməsinə dair materiallara bu Qərarın 39-cu hissəsində nəzərdə tutulan müddətdə baxılmalı, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 95.0.2–95.0.4-cü maddələrinə əsasən psixiatriya stasionarlarında məcburi müalicə təyin olunmuş şəxslərin cəzadan azad edilməsi məsələsi isə məhkəmə qərarı ilə psixiatriya stasionarlarında məcburi müalicə ləğv edildikdən və ya dəyişdirilərək məcburi ambulatoriya müşahidəsi və psixiatr müalicəsi təyin edildikdən sonra həll edilməli, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 95.0.1-ci maddəsinə əsasən məcburi ambulatoriya müşahidəsi və psixiatr müalicəsi təyin olunmuş şəxslər amnistiya tətbiq olunaraq cəza çəkməkdən azad edildikdə qanunvericiliklə müəyyən edilmiş qaydada 10 gün müddətində yaşayış yeri üzrə müvafiq tibb müəssisələrində qeydiyyata alınmalı və müalicələri davam etdirilməlidir.

34. Əvvəllər amnistiya və ya əfvetmə aktları ilə cəzasının müddəti azaldılmış şəxslərə bu Qərar tətbiq edilərkən onların cəzasının çəkilməmiş müddətləri həmin aktlar nəzərə alınmaqla hesablanır.

35. Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 175–177-ci maddələrinin tələblərinə uyğun olaraq, bu Qərara əsasən barələrində amnistiya tətbiq olunaraq cəza çəkməkdən azad edilən şəxslərin sosial adaptasiyasının, onlara yardım göstərilməsinin təmin edilməsi üçün zəruri tədbirlər görülməlidir.

36. Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu bu Qərarın tətbiqi ilə bağlı zərurət yarandıqda amnistiyanı tətbiq edən orqanın müraciəti əsasında "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq izah verir.

37. Amnistiya aktının tətbiq edilməməsi və ya düzgün tətbiq edilməməsi ilə əlaqədar şəxsin Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada şikayət etmək hüququ vardır.

38. Bu Qərarın 19.2-ci bəndində göstərilən "hərbi hissələr" dedikdə, hərbi xidmət üzrə məhdudlaşdırma növündə cəzanın çəkildiyi yerlər, bu Qərarın 22-ci hissəsində göstərilən "məhkumların üzərində nəzarəti həyata keçirən orqanlar" dedikdə isə azadlığın məhdudlaşdırılması növündə cəzalara məhkum edilmiş şəxslərə nəzarəti həyata keçirən icra məmurları, habelə şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və cəzasının çəkilməsi təxirə salınmış şəxslər üzərində nəzarəti həyata keçirən icra məmurları və müvafiq olaraq hərbi qulluqçular üzərində nəzarəti həyata keçirən hərbi hissələrin və ya müəssisələrin komandanlığı başa düşülür.

39. Bu Qərarın 19.1–19.4-cü bəndlərində nəzərdə tutulan orqanlar bu Qərar qüvvəyə mindiyi gündən dörd ay müddətində amnistiyanın tətbiqini təmin etməlidirlər.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası***
***Milli Məclisinin sədri***

**Bakı şəhəri, 19 dekabr 2025-ci il**

# Milli Məclisin plenar iclası





**Əvvəlcə Milli Məclisin sədri Sahibə Qafarova çıxış etdi. Spiker Avropa Parlamentində Azərbaycanı hədəf alan növbəti siyasi aksiyadan danışaraq bildirdi ki, qəbul edilən qərəzli qətnamə böhtanlar və əsassız ittihamlar üzərində qurulub. S.Qafarova təəssüflə qeyd etdi ki, Avropa Parlamentin bu addımı Azərbaycanda real vəziyyətdən uzaq və beynəlxalq hüquq prinsiplərinə zidd, qeyri-obyektiv praktikanın davamıdır: "Bu qətnamə Avropa Parlamentinin dövlət suverenliyinə hörmət və daxili işlərə qarışmamaq prinsiplərinə etinasız münasibətini əks etdirir. Sənəddə yer alan "siyasi məhbusların mövcudluğu", "siyasi təqiblər", "akademik azadlıqların və mədəni hüquqların pozulması" kimi ifadələr və digər ittihamları qətiyyətlə rədd edirik".**

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin rəhbəri, Azərbaycan–Avropa İttifaqı Parlament Əməkdaşlıq Komitəsinin nümayəndə heyətinin sədri Səməd Seyidov Milli Məclisin Avropa Parlamentinə qarşı qəbul etdiyi bəyanatla əlaqədar bildirdi ki, Cənubi Qafqazda illərlə gözlənilən sülh prosesinə töhfə verməli, tərəfləri dialoqa dəvət etməli və konstruktiv əməkdaşlıq qurmalı olan Avroparlament tamam fərqli mövqedən çıxış edir: "Bu da, əslində, Avropanın bu gün düşdüyü dərin böhranın güzgüsüdür. Qətnamə qəbul olunan gün AP-dən mənə zəng gəldi. Bildirildi ki, məsələ əvvəlcədən müəyyən edilmiş məqsədlərlə gündəmə gətirilib və qəbul olunacağı bəlli bir qətnamədir".

Parlamentin üzvü Siyavuş Novruzov çıxışında qeyd edtdi ki, Avropa İttifaqının qərəzli qətnaməsinə ən gözəl cavab Prezidentin amnistiya ilə bağlı qanunvericilik təşəbbüsüdür: "Prezident İlham Əliyevin "Konstitusiya və Suverenlik İli" çərçivəsində amnistiya təşəbbüsü 20 mindən çox insana şamil olunacaq. Bu isə özlüyündə AP-yə verilən ən gözəl dərs olacaq".

Parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc çıxışında Avropa Parlamentinin 18 dekabr tarixli qətnaməsini "işğal partiyası"na və təcavüzkarlığa 35 il verilən dəstəyin Qələbəmizdən sonrakı davamı kimi qiymətləndirdi: "Qərbli çinovniklər və deputatlarının nəzərində nəticəsini tanımadıqları zəfərimiz hələ baş verməyib, avropalı siyasətçilərin beynində hələ 26 sentyabr erası yaşayır".

Çıxışlardan sonra spiker Sahibə Qafarova Azərbaycan Respublikası Milli Məclisinin Avropa Parlamentinin qətnaməsinə dair bəyanat hazırlamaq üçün komissiya yaratdığını bildirdi. Komissiyaya sədrlik edən deputat Şahin İsmayılov Bəyanatın mətnini səsləndirdi. Daha sonra sənəd səsverməyə çıxarıldı və yekdilliklə qəbul olundu.

***

Daha sonra "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi ilə bağlı müzakirələrə başlandı. Parlamentin sədri Sahibə Qafarova çıxışında İlham Əliyevin qanunvericilik təşəbbüsü qaydasında geniş miqyaslı amnistiya layihəsini təqdim etməsini dövlətimizin Konstitusiya ilə elan olunmuş insan hüquqlarına hörmət, humanizm və qanunun aliliyi prinsiplərinə sadiqliyinin nümayişi kimi diqqətə çatdırdı.

Amnistiya aktının qəbulu ilə bağlı Milli Məclisin Dövlət quruculuğu və hüquq siyasəti komitəsinin sədri Əli Hüseynli məlumat verdi. O, çıxışında Avropa Parlamentinin arzuladığı kimi Azərbaycanda dövlətə, xalqa və konstitusion quruluşa qarşı çıxış etmiş, bu əməllərə görə məsuliyyətə cəlb olunmuş və məhkum edilmiş şəxslərə nə hazırkı amnistiya aktının, nə də gələcək amnistiya aktlarının şamil edilməyəcəyini qətiyyətlə vurğuladı.

Milli Məclisin deputatı, Azərbaycan Respublikası Prezidenti yanında Əfv Komissiyasının üzvü Azay Quliyev bu təşəbbüsün misli görünməmiş tarixi hadisə kimi qiymətləndirilməsinin əsas səbəbini sözügedən amnistiyanın əvvəlki illərdə qəbul edilmiş 11 amnistiya aktından iki fundamental cəhətinə görə köklü şəkildə fərqlənməsi ilə əlaqələndirib: "Birincisi, bu amnistiya 2023-cü ildə Qarabağda separatizmə birdəfəlik son qoyulmasından, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin tam təmin edilməsindən sonra irəli sürülmüş ilk təşəbbüsdür. İkincisi, amnistiyanın tətbiq ediləcəyi şəxslərin dairəsi və sayı əvvəlkilərlə müqayisədə xeyli genişdir".

Bununla "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsi haqqında Milli Məclisin qərar layihəsinin müzakirəsi başa çatdı və layihə səsverməyə qoyularaq qəbul edildi.

Daha sonra plenar iclasın gündəliyində olan məsələlərin müzakirəsinə başlanıldı. "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli və Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev dəyişikliklərlə bağlı məlumat verdilər.

İnsan hüquqları komitəsinin sədri Zahid Oruc gündəlikdəki növbəti məsələ olan "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanuna edilən dəyişikliklər barədə danışdı. Komitə sədri bildirdi ki, Prezident İlham Əliyevin qanunvericilik təşəbbüsü ilə təqdim edilən layihə milli-mənəvi dəyərlərin informasiya məkanında qorunmasına xidmət edir. Yekunda qanun layihəsi müzakirələrdən sonra səsverməyə qoyularaq birinci oxunuşda qəbul edildi.

Daha sonra İnzibati Xətalar və Cinayət məcəllələrinə dəyişikliklər edildi. İnzibati Xətalar Məcəlləsinə edilən dəyişikliyə əsasən, internet informasiya ehtiyatından və ya informasiya-telekommunikasiya şəbəkəsindən istifadə etməklə fahişəliklə məşğul olmağa açıq çağırışların edilməsinə və ya kütləvi nümayiş etdirilməklə fahişəliklə məşğul olmaqla bağlı sövdələşməyə görə 500 manat məbləğində cərimə ediləcək.

"Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" və "Mədəniyyət haqqında" qanunlara edilən dəyişikliklərə əsasən, dövlət tərəfindən qorunan daşınar və daşınmaz mədəni sərvətlərin qəsdən korlanması və ya məhv edilməsinə görə dəymmi. ziyanın iki mislinədək cərimə, 2 ilədək azadlığın məhdudlaşdırılması və ya azadlıqdan məhrumetmə ilə cəzalandırılacaq. Daşınar mədəni sərvətlərin qəsdən məhv edilməsinə görə ziyanın 2–3 misli həcmində cərimə və ya 3 ilədək azadlıqdan məhrumetmə, daşınmaz mədəni sərvətlərin məhv edilməsinə görə isə ziyanın 3–5 misli həcmində cərimə və ya 3–5 il müddətinə azadlıqdan məhrumetmə nəzərdə tutulur. Əməllər təkrar, vəzifəli şəxs tərəfindən, mütəşəkkil dəstə və ya milli, irqi, dini düşmənçilik zəminində törədildikdə 4 ildən 8 ilədək azadlıqdan məhrumetmə nəzərdə tutulur. Ehtiyatsızlıqdan mədəni sərvətlərin məhv edilməsinə görə isə 2 ilədək azadlıqdan məhrumetmə və ya cərimə tətbiq ediləcək. Layihə müzakirələrdən sonra birinci oxunuşda qəbul edildi.

"Notariat haqqında" və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanuna edilən dəyişikliklərə əsaəsn, kommersiya hüquqi şəxslərinin nizamnamə kapitalındakı payın özgəninkiləşdirilməsi, vərəsəlik yolu ilə keçməsi, yüklü edilməsi, həmçinin təsisçisi və qanuni təmsilçisi eyni şəxs olan şirkətin təsisçisi vəfat etdikdə əmlak idarəçisinin təyin olunması barədə məlumatlar Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə real vaxt rejimində müvafiq quruma ötürüləcək. Qanun layihəsi səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul edildi.

Plenar iclasda daha sonra "Dövlət rüsumu haqqında" qanuna təklif olunan dəyişikliklər müzakirə olundu. Sənədə əsasən, cinayət tərkibi olmadıqda məhkəmə tərəfindən 60 gündən 180 günədək müddətə uzunmüddətli mühafizə orderi tətbiq oluna bilər. Qanun layihəsi müzakirələrdən sonra səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul edildi.

Elektron siqaretlərin və onların komponentlərinin idxalı, ixracı, istehsalı, saxlanılması, satışı və istifadəsini qadağan edən qanun layihəsini birinci oxunuşda qəbul etdi. Plenar iclasda "Tütün və tütün məmulatı haqqında" qanuna təklif olunan dəyişikliklər müzakirə olundu. Layihəyə əsasən, nikotin tərkibli elektron siqaretlər tütün məmulatı anlayışına daxil edilir. Eyni zamanda Vergi Məcəlləsinə və "Reklam haqqında" qanuna uyğunlaşdırmalar edilir, birdəfəlik elektron siqaretlər və elektron siqaretlər üçün mayelər aksizli mallar siyahısından çıxarılır və müvafiq vergi dərəcələri ləğv olunur. Qanun layihəsinin qüvvəyə minmə müddəti 2026-cı il fevralın 1-dən aprelin 1-nə uzadıldı.

***Tacir SADIQOV***
***XQ***

# Milli Məclis Avropa Parlamentinin qərəzli qətnaməsini rədd etdi

Azərbaycan Respublikasının Milli Məclisi Avropa Parlamentinin 2025-ci il 18 dekabr tarixli qətnaməsi ilə əlaqədar bəyanat yayıb.

**Bəyanatda deyilir:**

"Azərbaycan Respublikasının Milli Məclisi Avropa Parlamentinin 2025-ci il 18 dekabr tarixli qətnaməsini şiddətlə qınayır və bu qərəzli siyasi akta qəti etirazını bildirir. Yalan məlumatlar və saxta iddialar üzərində qurulan, konkret cinayət əməllərinə siyasi don geyindirən bu sənəd qanunun aliliyinə kölgə salmaq və məhkəmə proseslərinə kobud müdaxilə etmək üçün göstərilən növbəti uğursuz cəhddir.

Görünən odur ki, anti-Azərbaycan ritorikasından əl çəkə bilməyən Avropa Parlamenti bir daha siyasi riyakarlıq nümayiş etdirərək, insan hüquqları kimi önəmli mövzudan öz gizli gündəliyi və təxribatçı məqsədləri üçün istifadəyə davam edir. Torpaqlarımızın 30 illik işğalına, yüzlərcə şəhər və kəndlərimizin, tarixi, dini və mədəni abidələrimizin dağıdılmasına daim etinasız qalmış, 1 milyon qaçqın və məcburi köçkünün insan hüquqlarının pozulmasını görməzdən gəlmiş Avropa Parlamenti 44 günlük Vətən müharibəsi və antiterror tədbirləri nəticəsində ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasına, beynəlxalq hüququn norma və prinsiplərinin həyata keçirilməsinə Azərbaycan əleyhinə 10-dan artıq rüsvayçı qətnamənin qəbulu ilə cavab vermişdir.

Bunu da xatırlatmaq yerinə düşər ki, Avropa Parlamenti COP29 kimi mötəbər tədbirin keçirilməsi ərəfəsində və keçirildiyi dövrdə Azərbaycana qarşı hibrid hücumlarda əsas alətlərdən biri kimi istifadə olunmuşdur. Bu da dəfələrlə sübuta yetirilmişdir ki, Avropa Parlamentində qətnamələrin qəbulu prosesi konkret maraq qrupları tərəfindən məqsədli şəkildə idarə edilir. Müşahidələr göstərir ki, Avropa Parlamenti üzvlərinin əksəriyyətinin səs verdikləri qətnamə layihələrinin nəinki mahiyyəti, hətta mətni barədə heç bir anlayışı olmur. Bu isə Avropa parlamentarizminin düşdüyü acınacaqlı vəziyyətdən xəbər verir.

Avropa Parlamentinin siyasi simasının bir sıra xarakterik cizgiləri Azərbaycanla yanaşı, bu qurumun əsassız və cəfəng ittihamları ilə üzləşmiş çoxsaylı ölkələrə də yaxşı məlumdur. Bu qətnamə Avropa Parlamentinin əsl mahiyyətini ortaya qoyur və onun real niyyətlərini ifşa edir.

Korrupsiya və rüşvətxorluğun Avropa Parlamentində dərin kök saldığını göstərən çoxsaylı faktların aşkar edilməsi bu mənfi tendensiyanın həmin qurumun gündəlik fəaliyyətinin mərkəzində dayandığını sübut edir. Müxtəlif maraq dairələrinə ödənişli xidmətlər göstərən Avropa Parlamentinin qətnamələri də, bir qayda olaraq, əldə edilən maddi mənfəətin əvəzi rolunu oynayır.

Təəssüf doğuran digər məqam budur ki, müəyyən proseslərə ardıcıl surətdə səlibçilik mövqeyindən yanaşan Avropa Parlamenti islamofob və türkofob meyillərin aşkar ifadə olunduğu platformaya çevrilmişdir. İslam və Türk dünyasının ayrılmaz parçası olan Azərbaycana qarşı bu cür qərəzli hücumlar Avropada eyni tendensiyaları idarə edən müəyyən qrupların əlavə siyasi dividend qazanmaq niyyətini açıq büruzə verir. Avropa Parlamentinin bu qətnaməsinin geniş miqyaslı bir planın tərkib hissəsi olduğu da şübhəsizdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müharibədə qalib gəldiyi kimi, sülhü də qazandığı danılmaz bir reallıqdır. Məhz dövlət başçısının qətiyyətli siyasəti Cənubi Qafqaz regionunda uzunmüddətli sülhün təmin edilməsi baxımından həlledici olmuşdur.

İndi isə bəlli olur ki, 2025-ci il 8 avqust tarixli Vaşinqton sammiti, ABŞ Prezidenti Donald Trampın səmimi vasitəçiliyi nəticəsində Azərbaycan-Ermənistan sülh prosesində əldə olunmuş irəliləyiş bir sıra dairələrin maraqlarına cavab vermir. Müvafiq proseslərdə iştirak və müdaxilə imkanlarını itirən həmin dairələr regionumuzda sülh, sabitlik və əməkdaşlığın təşəbbüsçüsü olan Azərbaycana qarşı belə bəsit addımlarla həmin prosesləri dolayı yolla əngəlləməyə cəhd edirlər.

Nəticə etibarilə, bütün qeyd edilənləri nəzərə alaraq qətiyyətlə söyləmək olar ki, Avropa Parlamenti növbəti dəfə öz məkrli niyyətlərini heç bir əsası olmayan, birtərəfli və yalan iddialar üzərində qurulmuş arqumentlərlə pərdələməyə çalışır.

Azərbaycan Respublikasının Milli Məclisi bir daha Avropa Parlamentinin məlum qətnaməsini qətiyyətlə rədd edir və onu qəbulolunmaz hesab edir. Belə qətnamələr Azərbaycana heç bir şəkildə təsir edə və ölkəmizi öz yolundan döndərə bilməz".

*(Bəyanat Azərbaycan Respublikası Milli Məclisinin 2025-ci il 19 dekabr tarixli iclasında qəbul edilib).*

# Bakı–Pekin: tərəfdaşlığın insan kapitalı

**Son illər Azərbaycan ilə Çin Xalq Respublikası (ÇXR) arasında münasibətlər dinamik və çoxşaxəli inkişaf mərhələsinə qədəm qoyub. Siyasi dialoq, iqtisadi-ticarət əlaqələri, nəqliyyat-logistika, enerji, rəqəmsal texnologiyalar, humanitar və media sahələrində əməkdaşlıq ikitərəfli münasibətlərin əsas hərəkətverici qüvvələrinə çevrilib. Bu prosesin mərkəzində isə dövlət başçıları səviyyəsində formalaşmış yüksək etimad və qarşılıqlı anlaşma dayanır.**




Azərbaycan Prezidenti İlham Əliyev ilə ÇXR Sədri Si Cinpin arasında mövcud olan səmimi və konstruktiv münasibətlər iki ölkə arasında əməkdaşlığın strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsinə mühüm töhfə verir.

Bu kontekstdə dekabrın 19-da ÇXR-in Azərbaycandakı səfirliyində Çin – Azərbaycan İnsan Resurslarının İnkişafı proqramlarının iştirakçıları ilə yekun görüş keçirildi. Tədbirdə Azərbaycanın müxtəlif dövlət qurumlarının və media strukturlarının nümayəndələri iştirak edirdilər ki, bu da iki ölkə arasında formalaşan geniş və çoxşaxəli əməkdaşlığın bariz göstəricisi kimi dəyərləndirilir.

Görüşü giriş sözü ilə açan ÇXR-in Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Lu Mei iştirakçıları salamlayaraq bu cür proqramların xalqlar arasında qarşılıqlı anlaşmanın və etimadın möhkəmlənməsinə mühüm töhfə verdiyini vurğuladı. Səfir bildirdi ki, insan resurslarının inkişafına yönəlmiş təşəbbüslər təkcə peşəkar bilik və təcrübə mübadiləsi deyil, eyni zamanda iki ölkə arasında uzunmüddətli strateji tərəfdaşlığın möhkəmlənməsinə xidmət edir.

Daha sonra səfirliyin iqtisadi və ticarət məsələləri üzrə müşaviri Yu Honqçi iştirakçılara söz verdi. Çıxış edən nümayəndələr Çinə təşkil olunmuş səfərlər zamanı əldə etdikləri təəssüratları bölüşərək bu səfərlərin Azərbaycan – Çin münasibətlərinin inkişafında mühüm rol oynadığını qeyd etdilər. Bildirildi ki, bu cür proqramlar vasitəsilə Çin iqtisadiyyatı, texnoloji inkişaf modeli, idarəetmə təcrübəsi və sosial sahədə həyata keçirilən islahatlar barədə daha dolğun və obyektiv təsəvvür formalaşır.

Yu Honqçi xüsusi olaraq diqqətə çatdırdı ki, Çinə səfər edən Azərbaycan media qurumlarından biri də "Xalq qəzeti" olub. Qəzet tərəfindən səfərlə bağlı ardıcıl və geniş məqalələrin dərc edildiyini qeyd edən müşavir Çin haqqında obyektiv və balanslı məlumatların Azərbaycan ictimaiyyətinə çatdırılmasına verdiyi töhfəyə görə "Xalq qəzeti"nin redaksiya rəhbərliyinə təşəkkür etdi. O vurğuladı ki, bu cür media mübadilələri iki ölkənin KİV-i arasında əlaqələrin inkişafına, qarşılıqlı etimadın və informasiya sahəsində əməkdaşlığın güclənməsinə müsbət təsir göstərir.

Tədbirin sonunda səfir Lu Mei yekun nitqi ilə çıxış edərək son illərdə Azərbaycan–Çin münasibətlərinin davamlı şəkildə müsbət istiqamətdə inkişaf etdiyini qeyd etdi. O, xatırlatdı ki, Azərbaycan Prezidenti İlham Əliyev bu il Çinə iki dəfə rəsmi səfər edib və bununla da ikitərəfli münasibətlər hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Yüksəksəviyyəli siyasi dialoq, iqtisadi, humanitar və mədəni əməkdaşlıq sahələrində mühüm və səmərəli nəticələr əldə olunub.

Səfir Lu Mei, həmçinin Çinin XV Beşillik Planı və Sədr Si Cinpinin dövlət idarəçiliyi konsepsiyası barədə məlumat verdi. O vurğuladı ki, gələcəkdə insan resurslarının inkişafı, media, təhsil, innovasiya və iqtisadiyyat kimi sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi iki ölkə arasında mövcud strateji münasibətlərin möhkəmləndirilməsinə və inkişaf imkanlarının birgə paylaşılmasına töhfə verəcək.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

**Türk Dövlətləri Təşkilatının (TDT) keçdiyi təkamül yolu iqtisadi və mədəni inteqrasiyadan başlayaraq, tədricən siyasi və hərbi-strateji tərəfdaşlığa doğru istiqamətlənib. İctimaiyyət arasında və ekspert dairələrində tez-tez səsləndirilən "Türk dünyasının birgə ordusu" ideyası praqmatik ehtiyacdan doğan real strateji hədəf kimi gündəmə gəlir. Azərbaycan Respublikasının 2026-cı ildə Türk Dövlətləri Təşkilatına sədrliyi dövründə müdafiə və təhlükəsizlik sahələrinin prioritet istiqamət kimi müəyyən ediləcəyi barədə fikirlər regionda cərəyan edən proseslərin məntiqi nəticəsidir. Torpağın əsl sahibinin əbədi yaşamaq haqqı və qurub-yaratmaq əzmi yalnız güclü müdafiə sistemi ilə təmin edilə bilər.**

# Türk dünyasının müdafiə strategiyası

## *Azərbaycan 2026-cı ildə sədrlik missiyasını öz üzərinə götürür*



Türk dövlətlərinin hərbi inteqrasiyası məsələsinə yanaşarkən soyuq məntiqlə və elmi təhlilə əsaslanaraq fikir yürütmək lazımdır. "Vahid ordu" anlayışı NATO tipli hərbi alyansın yaradılması, qarşılıqlı əməliyyat qabiliyyətinin (interoperabillik) təmin edilməsi və vahid komandanlıq elementlərinin formalaşdırılması kimi kompleks mərhələləri ehtiva edir. Azərbaycanın Vətən müharibəsində əldə etdiyi şanlı Zəfər Türk dünyasında hərbi əməkdaşlığın yeni modelini – Türkiyə–Azərbaycan tandemi nümunəsini ortaya qoydu. Şuşa Bəyannaməsi ilə rəsmiləşən müttəfiqlik münasibətləri, faktiki olaraq, gələcək Türk hərbi birliyinin prototipi rolunu oynayır. 2026-cı ildə Azərbaycanın TDT-yə sədrliyi dövründə məhz sözügedən uğurlu modelin təşkilatın digər üzvlərinə – Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkmənistana da tətbiq edilməsi inteqrasiya proseslərinin dərinləşməsinə xidmət edəcək. Müdafiə və təhlükəsizlik məsələlərinin ön plana çıxarılmasının mühüm səbəbləri çoxşaxəlidir və geosiyasi, iqtisadi, həmçinin egzistensial amillərə söykənir. İlk növbədə, qlobal təhlükəsizlik mühitinin deqradasiyası, böyük güclər arasındakı rəqabətin Türk coğrafiyasına sıçraması riskini artırır. Buna görə də hərbi qüvvələrin koordinasiyası, kəşfiyyat məlumatlarının mübadiləsi və böhran vəziyyətlərində operativ reaksiya mexanizmlərinin yaradılması həyati əhəmiyyət kəsb edir.

İkinci mühüm səbəb strateji nəqliyyat və enerji dəhlizlərinin təhlükəsizliyinin təmin edilməsidir. Türk dünyası Şərq ilə Qərbi birləşdirən Orta Dəhlizin (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) əsas hərəkətverici qüvvəsidir. Çindən Avropaya uzanan ticarət yollarının, eləcə də Xəzər hövzəsinin enerji resurslarının dünya bazarlarına çıxarılmasını təmin edən boru kəmərlərinin mühafizəsi kollektiv səylər tələb edir. İqtisadi rifahın və quruculuq işlərinin davamlılığı birbaşa olaraq həmin marşrutların təhlükəsizliyindən asılıdır. Təsadüfi deyil ki, Azərbaycanın 2026-cı il sədrliyi dövründə nəqliyyat təhlükəsizliyi və kritik infrastrukturun qorunması məsələləri hərbi əməkdaşlığın tərkib hissəsi kimi nəzərdən keçiriləcək. Üçüncü amil kimi, terrorizm, ekstremizm və separatizm təhdidlərini qeyd etmək lazımdır. Mərkəzi Asiya regionu və Cənubi Qafqaz radikal qruplaşmaların hədəfində ola biləcək həssas bölgələrdir.

Dördüncü məqam hərbi sənaye sahəsində əməkdaşlığın inkişaf etdirilməsidir. Türkiyənin müdafiə sənayesində əldə etdiyi inqilabi nailiyyətlər, PUA texnologiyaları, raket sistemləri və zirehli texnikalar Türk dünyasının hərbi arsenalının modernləşdirilməsi üçün geniş imkanlar açır. Azərbaycan da son illər milli hərbi sənaye kompleksini gücləndirərək, ixracatçı ölkəyə çevrilmək yolunda inamlı addımlar atır. Qazaxıstan və Özbəkistanın da analoji sahədə potensialı mövcuddur. Ölkəmizin növbəti il sədrliyi dövründə birgə hərbi sənaye müəssisələrinin yaradılması, texnologiya transferi və silahlanmada standartlaşdırma məsələlərinin gündəmə gətirilməsi gözlənilir.

Azərbaycanın TDT-yə sədrliyi təşkilatın qlobal nüfuzunun artırılması baxımından da müstəsna əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin praqmatik siyasəti və liderlik keyfiyyətləri Türk dövlətləri arasındakı inteqrasiya proseslərini sürətləndirən əsas amillərdəndir. Dövlət başçısının "Türk dünyası bizim ailəmizdir" tezisi strateji fəaliyyət proqramıdır. Mülki müdafiə, kibertəhlükəsizlik və kosmik sənaye sahəsində əməkdaşlıq da müdafiə konsepsiyasının tərkib hissəsi kimi nəzərdən keçiriləcək. Təhlilçilər qeyd edirlər ki, Türk ordusu ideyası heç bir üçüncü dövlətə qarşı yönəlməmişdir. Bu təşəbbüs sırf müdafiə xarakteri daşıyır və regionda sülhün, sabitliyin qorunmasına xidmət edir. Necə ki, Avropa İttifaqı öz təhlükəsizlik mexanizmlərini yaradır, Türk dövlətlərinin də analoji addımı atması təbii və suveren hüquqdur.

İdeyanın reallaşması yolunda müəyyən maneələrin və çağırışların olması da danılmazdır. Üzv dövlətlərin fərqli hərbi standartlara malik olması (bəzilərində sovet/Rusiya, bəzilərində NATO standartları), coğrafi uzaqlıq və xarici təzyiqlər inteqrasiya prosesini ləngidə biləcək amillərdir. Lakin siyasi iradə və strateji zərurət həmin maneələrin dəf edilməsini şərtləndirir. "Birləşmiş Türk Ordusu" və ya "Turan Ordusu" simvolik ad olsa da, məzmun etibarilə çevik reaksiya qüvvələrinin, sülhməramlı kontingentin və ya birgə xüsusi təyinatlıların formalaşdırılması realdır.

Bəli, torpaq üzərində yaşayan insanların qanı ilə Vətənə çevrilir, alnının təri ilə abadlaşır. Azərbaycan xalqı şəhidlərinin qanı bahasına azad etdiyi torpaqlarda indi alnının təri ilə cənnət yaradır. Şuşada, Füzulidə, Laçında, Kəlbəcərdə ucalan binalar, çəkilən tunellər, inşa edilən hava limanları xalqımızın quruculuq geninin göstəricisidir. Lakin qurulan hər bir binanın, əkilən hər bir ağacın təhlükəsizliyi təmin edilməlidir. Türk dünyasının hərbi birliyi təhlükəsizliyin qarantıdır.

"Türk dünyasının birgə ordusu" ideyası zamanın tələbi və tarixin çağırışıdır. Müdafiə və təhlükəsizlik sahələrinin prioritet elan edilməsi düşünülmüş strateji gedişdir. Çünki sülh istəyirsənsə, müharibəyə hazır olmalısan. Türk dünyası sülh, sabitlik və inkişaf istəyir. Torpağın əsl sahibləri olan bizlər, əbədi yaşamaq haqqımızı qorumaq üçün birliyimizi polad kimi möhkəmləndirməliyik. Qurub-yaratmaq əzmimiz hərbi qüdrətimizlə tamamlananda, heç bir qüvvə bizə mane ola bilməz.

Qloballaşan dünyada təklənmək, dövlətlər üçün ən böyük risklərdən biridir. İttifaqlar dövründə yaşayırıq və təbii müttəfiqlərin birliyi ən səmimi, ən dayanıqlı birlik formasıdır. Türk Dövlətləri Təşkilatı dəyərlərin birliyidir. Əsgərin döyüş ruhu, onun mənəvi dəyərlərindən qidalanır. Çanaqqalada, Bakının azad edilməsində (Qafqaz İslam Ordusu), Vətən müharibəsində çiyin-çiyinə döyüşən türk əsgərləri qardaşlığın sarsılmazlığını qanları ilə möhürləyiblər. İndi isə həmin qardaşlığı institusional formaya salmaq, daimi və sistemli mexanizmə çevirmək vaxtıdır. Azərbaycan qalib dövlət kimi, missiyanı üzərinə götürməyə və liderlik etməyə hazırdır. 2026-cı il parlaq gələcəyə doğru atılan mühüm addımın ili olacaq.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Prezident İlham Əliyevin "Xəzərin geosiyasəti" konsepti



### II MƏQALƏ

### Prezident İlham Əliyevin Xəzərin geosiyasəti konseptinin əsas tərkib hissələri

Öncə onu vurğulayaq ki, İlham Əliyev 2003-cü ildə dərc olunmuş "Azərbaycanın Xəzər nefti" adlı əsərində "Xəzər nefti – geosiyasi aspektlər" və "Xəzəryanı regionda geosiyasi aspektlər" ifadələrini işlətmişdir. Bu, səbəbsiz deyildir. Yəni Azərbaycan Prezidenti Xəzərin geosiyasətinə coğrafi olaraq Xəzəryanı region kontekstində, onun təbii resurslarını ciddi surətdə nəzərə almaqla yanaşır. Bu zaman Xəzər məsələsinin yalnız geosiyasi aspektlə məhdudlaşmadığına da işarə verir. Buna görədir ki, İlham Əliyev əsərlərində həm "Xəzəryanı region", həm də "Xəzər nefti" ifadələrinin geosiyasi aspektlərindən bəhs edir.

Bu yanaşma mövzunu həm konkretləşdirir, ona dəqiq predmet əlaməti verir, həm də tədqiqat məqsədini konkret hədəfə fokuslandırır. Nəzəri-konseptual səviyyədə isə Azərbaycan Prezidentinin Xəzərin, ümumiyyətlə, geosiyasətinə yanaşmasının üç əsas tərkib hissəsini müəyyən etməyə imkan yaradır. Onlar aşağıdakılardır:

*– Xəzərin geosiyasətinin nəzəri-konseptual aparatı;*

*– Xəzərin siyasi tarixi;*

*– Müasir regional və qlobal geosiyasi xüsusiyyətlər fonunda Xəzərin obrazının yaradılması.*

Xəzərin geosiyasətinin nəzəri-konseptual aparatı dəqiq metodologiyaya əsaslanır. Onun işığında həm siyasi tarix məsələsi, həm də regional və qlobal geosiyasətin xüsusiyyətləri təhlil edilir. Bu zaman mütləq surətdə problemin bir aspekti Xəzər faktoruna dayanır. Yəni ümumiyyətlə, Xəzərin geosiyasətindən sırf nəzəri səviyyədə söhbət getmir, o, həmişə predmetik mənası və birbaşa Xəzərə aid olan faktorlarla məntiqi bağlılıqda tədqiq edilir.

Azərbaycan Prezidentinin məsələyə bu cür yanaşması bir tərəfdən, tədqiqata nəzəri güc verir, digər tərəfdən də, geosiyasi konsepti praktiki-tətbiqi aspektdə çox səmərəli edir. Onun prizmasında müstəqil Azərbaycanda güclü dövlət quruculuğunun çox mühüm cəhətləri aydın görünür.

İndi hər bir tərkib hissəsi üzərində ayrıca dayanaq.

### Xəzərin geosiyasətinin nəzəri-konseptual aparatı

"Azərbaycanın Xəzər nefti" əsərinin girişində ümumi formada Prezident İlham Əliyev tədqiqatın başlıca məqsədini aydın ifadə etmişdir. Azərbaycanın dövlət başçısı yazır ki, kitab qədim dövrlərdən başlayaraq Xəzər regionunun siyasi və iqtisadi inkişafının, Azərbaycanın Xəzəryanı hissəsinin tarixi inkişafının, müasir geosiyasətdə respublikanın mühüm rolunu şərtləndirən faktorların dərk edilməsinin tədqiqinə həsr edilmişdir.

Burada tədqiqatda üç aspektin sintezini görürük – birincisi, Xəzər regionunun siyasi və iqtisadi inkişafı, ikincisi, Azərbaycanın Xəzəryanı hissəsinin tarixi inkişafı və üçüncüsü, müasir geosiyasətdə Azərbaycanın mühüm rolunu şərtləndirən faktorların dərki. Onların sistemli formada tədqiqi üçün ümumi nəzəri-konseptual mənzərədə tarixi, siyasi, iqtisadi və geosiyasi aspektlərin vəhdətini təmin edən yanaşma lazım gəlir. Eyni zamanda, dərketmə "trayektoriyası" ümumnəzəri ilə praktiki-tətbiqi aspektlərinin "ortaq idrakı zonasında" formalaşmalıdır. Onun idraki hüdudunun bir sərhədini tarixi və müasir kontekstdə nəzəri geosiyasi yanaşma, digər tərəfini konkret Azərbaycana aid tarixi və geosiyasi məqamlar təşkil edir. Prezident İlham Əliyev əsərdə bu məqamı daha konkret ifadə etmişdir. Müəllif vurğulayır ki, "regionda siyasi və iqtisadi fəaliyyətin yaranması və inkişafı", "dövlətlərarası münasibətlər", "tarixi proseslər" "müasir geosiyasi situasiyanın formalaşması"na gətirib çıxaran faktorlar kimi araşdırılmışdır. Bu, avtomatik olaraq tədqiqatın tarixi tərəfini iki aspektdə aktuallaşdırır.

Birincisi, Azərbaycan Prezidenti Xəzərin siyasi, tarixi və iqtisadi transformasiyalarını müasir geosiyasi situasiyanın formalaşmasının nəzəri və praktiki elmi obrazlarını yaratmaq məqsədilə tədqiq etmişdir. Bu, Azərbaycan Prezidentinin elmi probleme ontoloji yanaşmasının göstəricisidir. Yəni tarixi xronologiyada gerçək olan faktlardan çıxış edərək tədqiqat obyektinin obrazını yaratmışdır. Bu zaman qarşısına qoyduğu müasir regional geosiyasi situasiyanın dərki başlıca elmi məqsəd kimi diqqətə alınmışdır.

İkincisi, Azərbaycan Prezidentinin həmin mövzuda apardığı araşdırmaların tarixçəsi ilə bağlıdır. Belə ki, həm keçən əsrin 90-cı illərində yazılmış öncəki əsərlərdə, həm də 3 cildlik "Azərbaycan nefti dünya siyasətində" kitabında Azərbaycanın neft siyasəti tarixinin ayrı-ayrı aspektləri öyrənilmişdir. Sonrakı mərhələdə, yəni "Azərbaycanın Xəzər nefti" (2003-cü il) əsərində isə "bu problemin sistemli və kompleks öyrənilməsi məqsədi qarşıya qoyulmuşdur". Bu, peşəkar tədqiqatda araşdırma təcrübəsinin nümunəsidir. Müəllif ardıcıl, mərhələli və tədqiqatın əhatə dairəsini genişləndirməklə öncədən müəyyən etdiyi elmi tədqiqatın strategiyasını reallaşdırmışdır.

Məntiqi olaraq belə alınır ki, əsərdə tətbiq edilən yanaşma metodologiyası vurğulanan özəllikləri əsas tutaraq müəyyən edilmişdir. Prezident İlham Əliyev müəllif kimi "Xəzərin geosiyasəti" konseptinin ciddi nəzəri və metodoloji bazasını illərlə davam edən yaradıcılıq prosesində yaratmışdır. Bu, olduqca ciddi elmi təcrübədən xəbər verir. Prezident İlham Əliyev 2003-cü ildə qələmə aldığı əsərdə mövzuya sərf etdiyi nəhəng yaradıcılıq zəhmətini yüksək nəzəri-konseptual səviyyədə olduqca inandırıcı təqdim edə bilmişdir. İndi nəzəri səviyyədə Prezident İlham Əliyevin tədqiq etdiyi elmi problemə yanaşmasının bir qədər konkret detallarına baxaq.

### Geosiyasət elm kimi

Dövlət başçısı Xəzər konseptini geosiyasətin elmi anlamı çərçivəsində hazırlamışdır. Prezident İlham Əliyev əsərində vurğulayır ki, geosiyasət coğrafi, tarixi, siyasi və dövlətin strateji potensialına təsir edən, qarşılıqlı əlaqədə olan digər faktorları öyrənən elmdir. Bu anlamda geosiyasət elminin nəzəri səviyyədə əsas postulatı sivilizasiyanın növünü onun coğrafiyasının müəyyən etməsi ilə bağlıdır. Yəni landşaft, iqlim və məkan strukturu burada müəyyənedici rol oynayırlar.

Ümumi səviyyədə geosiyasətdə iki sivilizasiya növü müəyyən edilmişdir – dəniz (ada) və quru (kontinental). Bunlara uyğun olaraq sivilizasiyanın dəniz növünə aid olan xalqlar ənənəvi olaraq daha dinamik, texnoloji inkişaf etmiş, novatordurlar ki, bütövlükdə ticarət tipli cəmiyyət formalaşdırırlar. İnsanları isə eqoizmə və fərdiliyə meyilli olurlar.

Buradan məntiqi olaraq belə ümumi nəticə hasil etmək olur: geosiyasət obyektiv mövcud olan məkan bütövlüyünü üzə çıxarır ki, onun siyasi mənası olur. Həmin əsasda geosiyasəti qlobal miqyasda siyasi coğrafiya adlandırmaq olar. Siyasi coğrafiya isə özlüyündə dövlət səviyyəsində siyasi təşkilatın ərazicə qanunauyğunluqlarını öyrənir. Deməli, geosiyasət həm konsepsiyadır, həm də fəaliyyət obrazıdır. Güclərin geosiyasi nisbəti onun izahedici və proqnozlaşdırıcı funksiyalarına daxildir.

### Xəzərin geosiyasi tədqiqinin özəllikləri

Bu məqamda hansı səbəblərdən Azərbaycan Prezidentinin geosiyasətin elm kimi bir sıra nəzəri-konseptual xüsusiyyətləri üzərində dayandığını dərk etmək olur. Həmin izahlar birbaşa Xəzərin geosiyasəti konseptinin formalaşdırılmasının nəzəri-metodoloji bazasını yaratmaq üçündür. Yəni Prezident İlham Əliyev geosiyasət elmi ilə bağlı maarifləndirici iş aparmır, əsas məqsədi həmin elmin elə xüsusiyyətlərini qısa izah etməkdir ki, onlardan konkret Xəzər regionu ilə bağlı elmi konsept hazırlamağın nəzəri əsası olsun.

Bir qədər də dəqiqləşdirsək, Prezident İlham Əliyev Xəzərin geosiyasi konseptinə ümumi səviyyədə sivilizasiya növü prizmasında yanaşmışdır. Bu zaman coğrafi, tarixi, siyasi və dövlətin strateji potensialına təsir edən, qarşılıqlı əlaqədə olan digər faktorları kompleks halında tədqiq etməyə üstünlük vermişdir.

Həmin yanaşma çərçivəsində Prezident İlham Əliyev tədqiqinin konkret konseptual xüsusiyyətlərini təqdim etmişdir. Onları aşağıdakı kimi müəyyən etmişdir:

*– Xəzər regionunun geosiyasi əhəmiyyəti onun sivilizasiyalar və qitələrin kəsişməsində yerləşməsi ilə;*

*– Karbohidrat ehtiyatlarının iqtisadi və siyasi-strateji əhəmiyyəti ilə;*

*– Digər qiymətli təbii resursların iqtisadi dəyəri ilə;*

*– Həmin təbii ehtiyatların istifadəsinə uyğun olan təsərrüfat və başqa fəaliyyətlərlə müəyyən olunur.*

Vurğulanan əsas əlamətlər geosiyasətin birbaşa Xəzər regionuna tətbiqinin daha konkret nəzəri dairəsini təşkil edirlər. Bu, dövlət başçısına tədqiqi bir qədər də konkretləşdirməyə və əsas mexanizmləri müəyyən etməyə imkan vermişdir.

Bu baxımdan Prezident İlham Əliyevin tədqiqatının nəzəri-kateqorial aparatının nüvəsini təşkil edən geosiyasi anlayışları müəyyənləşdirməsi çox maraqlıdır.

### Maraqlar

Prezident İlham Əliyev əsərində Xəzərin geosiyasətinə milli, dövləti və dövlətlərarası (koalision) maraqlar kontekstində yanaşmışdır. Həmin maraqlar ümumilikdə geosiyasətin əsas anlayışlarındandır. Kitabda vurğulanır ki, dövlət maraqlarının əsasını ənənəvi olaraq ölkənin siyasi müstəqilliyi və fiziki mövcud olması təşkil edir. Bu o deməkdir ki, Xəzəryanı regionun hər bir dövlətinin özünüqoruması və siyasi müstəqilliyi təmin etməsi geosiyasi maraqları təmin etmək baxımından onların təbii hüquqları kimi qəbul olunmalıdır.

Bu, müasir geosiyasi mərhələdə olduqca vacib şərtdir və Xəzəryanı regionu üçün prinsipial əhəmiyyət daşıyır. Burada dövlət ərazisinin saxlanması və sərhədlərin hərbi-siyasi toxunulmazlığının təmin edilməsi mühüm məqamı təşkil edir. Əlbəttə, həmin yanaşma çərçivəsində vətəndaşların təhlükəsizliyinin və rifahının təmini də ön sıraya çıxarılmalıdır.

Dövlət maraqları ilə bağlı vurğulanan bütün xüsusiyyətlər kompleks halında ölkənin geosiyasi və geoiqtisadi gücünün məqsədyönlü möhkəmlənməsinə xidmət etməlidir.

Aydındır ki, yuxarıda qeyd edilən anlamda dövlət maraqları ilə milli maraqlar üst-üstə düşür. Həmin özəlliyi əsərində ayrıca vurğulayan Prezident İlham Əliyev insan hüquqlarının gözlənilməsi məsələsinə də önəm verir, yəni vətəndaş cəmiyyətində dövlət və milli maraqların üst-üstə düşdüyünü yazır. Milli maraqların özünə gəldikdə isə, burada hansı konsepsiyaya üstünlük verilməsindən çox şey asılıdır.

Məsələn, geosiyasi kontekstdə hakimiyyət uğrunda sonsuz mübarizəni labüd edən yanaşma vardır. Bu yanaşma regionda birləşdirici rol oynaya biləcək mühitin yaranmasına ciddi əngəl törədir. Milli maraqlara institusional-hüquqi yanaşma isə qanunlar əsasında münasibətlərin tənzimlənməsinə yol açır ki, onun da müsbət nəticələr verməsi mümkündür.

Buradan avtomatik olaraq milli və regional miqyasda milli təhlükəsizlik məsələsinə keçid etmək olar. Milli təhlükəsizlik Prezident İlham Əliyevin "Xəzərin geosiyasəti" konseptində vacib yer tutur.

***(ardı var)***

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Baş nazir BMMT-nin Baş katibi ilə görüşüb



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov dekabrın 19-da Beynəlxalq Mülki Müdafiə Təşkilatının (BMMT) Baş katibi Ərgüc Kələntərli ilə görüşüb.**

BMMT-dən bildirilib ki, görüş zamanı BMMT ilə Azərbaycan Respublikası arasında uzunmüddətli və konstruktiv tərəfdaşlıq qeyd olunub. Baş katib Azərbaycanın təşkilata göstərdiyi davamlı dəstəyə və beynəlxalq əməkdaşlığa sadiqliyinə görə minnətdarlığını ifadə edib, ölkənin mülki müdafiə və fövqəladə halların idarə olunması sahələrində zəngin təcrübəsini diqqətə çatdırıb. O, həmçinin Baş nazir Əli Əsədovu BMMT-də həyata keçirilən institusional islahatlar, üzvlüyün genişləndirilməsi istiqamətində görülən işlər və planlaşdırılan humanitar təşəbbüslər barədə məlumatlandırıb.

Baş nazir Əli Əsədov Azərbaycanın BMMT ilə əməkdaşlığa sadiqliyini bir daha təsdiqləyərək ölkəmizin beynəlxalq qurumla münasibətlərin daha da möhkəmləndirilməsinə verdiyi əhəmiyyəti vurğulayıb.

Görüşdə əməkdaşlığın gələcək inkişafı ilə bağlı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*XQ*

# Dövlət Neft Fondu Müşahidə Şurasının iclası



**Dekabrın 19-da Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) Müşahidə Şurasının iclası keçirilib.**

Nazirlər Kabinetindən bildiriblər ki, Azərbaycan Respublikasının Baş naziri, ARDNF-in Müşahidə Şurasının sədri Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasın gündəliyində Dövlət Neft Fondunun 2026-cı il üzrə büdcə layihəsinin proqnoz göstəriciləri, o cümlədən fondun gəlirləri və vəsaitindən istifadənin əsas istiqamətləri, investisiya siyasəti, investisiya portfelinin valyuta tərkibi və gəlirliliyi və digər cari məsələlər ətraflı müzakirə olunub.

İclasda ARDNF-in icraçı direktoru İsrafil Məmmədovun məruzəsi dinlənilib.

Yekunda Fondun Müşahidə Şurasının üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla Dövlət Neft Fondunun 2026-cı il üçün büdcə layihəsinin Azərbaycan Respublikasının Prezidentinə təqdim olunması barədə müvafiq qərar qəbul edilib.

*XQ*

*Xuntaçıların məhkəməsi*

# Sübut edilmiş cinayətləri danmaq "təqsirlilər"ə bəraət qazandırmır



**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası dekabrın 19-da davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclası təqsirləndirilən şəxslərin son söz çıxışları ilə davam etdirilir.

David Manukyan ittiham tərəfinin çıxışında qeyd etdiklərinə əks dəlilləri səsləndirib. Belə ki, təqsirləndirilən şəxs dövlət ittihamını müdafiə edən prokurorların elan etdiyi məqamlarla razılaşmadığını deyib. Arayik Harutyunyan son sözündə dövlət ittihamını müdafiə edən prokurorların təqdim etdiyi dəlillərlə razılaşmadığını söyləyib: "Burada müharibə cinayətləri təqdim olundu. Kəlbəcərdəki Tunel hadisəsini burada bildim. Məsələn, Bəylik bağı hadisəsini burada bilmişəm. Əlbəttə, bunlar hərbi cinayətlərdir və öz günahkarları var".

Təqsirləndirilən şəxs David Babayan son sözünü rus dilində etmək istədiyini deyib. D.Babayana rus dilində çıxış etmək üçün şərait yaradılıb.

O, dövlət ittihamını müdafiə edən prokurorların və zərərçəkmiş şəxslərin bildirdikləri ilə bağlı özünün əks arqumentlərini ümumi fikirlərlə səsləndirib.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs ittiham edilir.

Məhkəmə prosesi dekabrın 22-də davam etdiriləcək.

*XQ*

# Heydər Əliyev Mərkəzində perulu rəssamın sərgisi





**Dekabrın 18-də Heydər Əliyev Mərkəzində perulu rəssam Sol Alexonun "And və Qafqaz dağları arasında təxəyyül dünyası" adlı sərgisinin açılışı olub.**

Açılış mərasimindən əvvəl perulu rəssam Sol Alexo jurnalistlərə bildirib ki, Peru dünyada alpakaların məskəni kimi tanınır. Onun əsərlərinin böyük bir hissəsini məhz alpakalar təşkil edir və rəssam bu obrazları yaradıcılığında müasir üslubda təsvir edir.

Rəssam bildirib ki, Bakının və Şamaxının tarixi abidələri, görməli məkanlarından ilhamlanaraq sərgi üçün yaradıcılıq nümunələri ərsəyə gətirib və alpakaları həmin ərazilərdə təsvir edib. O, həmin yerləri gəzərkən tamamilə fərqli duyğular yaşayıb və yeni ideyalar əldə edib.

Sənətkar əlavə edib ki, bu kolleksiya onun üçün xüsusi əhəmiyyət daşıyır və gələcəkdə Azərbaycanla bağlı yeni yaradıcılıq işləri ərsəyə gətirə bilər.

Sonra qonaqlar "And və Qafqaz dağları arasında təxəyyül dünyası" adlı sərgi ilə tanış olublar.

Ekspozisiyada Sol Alexonun müxtəlif əsərləri sərgilənir. Bunların sırasında rəssamın xüsusi olaraq Bakı sərgisi üçün yaratdığı rəsmlər də var.

*XQ*

# Azərbaycan–Türkiyə: strateji media tərəfdaşlığı

**"Türk dövlətlərinin dezinformasiya ilə mübarizə üzrə Forumu" çərçivəsində Medianın İnkişafı Agentliyinin (MEDİA) icraçı direktoru Əhməd İsmayılovla Türkiyə Prezidenti Administrasiyasının İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri Burhanettin Duran arasında ikitərəfli görüş keçirilib.**



MEDİA-dan verilən məlumata görə, görüş zamanı vurğulanıb ki, Azərbaycan ilə Türkiyə arasında media sahəsində formalaşmış strateji tərəfdaşlıq dezinformasiya ilə mübarizə istiqamətində ardıcıl və məqsədyönlü şəkildə inkişaf etdirilir.

Qeyd olunub ki, müasir informasiya mühitində saxta və manipulyativ məzmunların sürətlə yayılması ictimai rəyə və regional sabitliyə ciddi təsir göstərir, bu isə Türk dövlətləri arasında əlaqəli, institusional və davamlı əməkdaşlığın gücləndirilməsini zəruri edir. Bu kontekstdə Türkiyə–Azərbaycan Media Platformasının birgə fəaliyyət, operativ informasiya mübadiləsi və vahid mövqenin formalaşdırılması baxımından səmərəli mexanizm olduğu xüsusi vurğulanıb.

*XQ*

# Zəngəzur dəhlizi XXI əsrin yoluna çevrilir

**(əvvəli qəzetin 18 dekabr sayında)**

Hazırda beynəlxalq aləmin diqqət mərkəzində olan Zəngəzur dəhlizinin 35 illik fasilədən sonra yenidən açılması mövzusu təkcə Azərbaycan və ətraf dövlətlər üçün deyil, Avrasiyanın qərb və şərq ölkələri, bütövlükdə, dünya birliyi üçün siyasi-diplomatik önəm daşıyır.

Zəngəzur dəhlizinin açılmasında iqtisadi maraqlar daha çox üstünlük təşkil edir. Prezident İlham Əliyevin dediyi kimi, "Zəngəzur dəhlizi böyük ticarət yolu olacaqdır". Bu dəhlizin XIX əsrin Süveyş, XX əsrin Panama kanalı kimi XXI əsrdə dünyanın nəqliyyat-logistika mərkəzinə çevriləcəyini nəzərə alaraq Azərbaycan torpağı olan Zəngəzurun tarixinə bir daha nəzər salaq.

Zəngəzur mahalı 7 rayondan ibarət olub, 4 rayonu – Meğri, Qafan, Gorus, Qarakilsə (Sisiyan) 100 ildən artıqdır ki, Ermənistanın işğalı altındadır. 3 rayon – Zəngilan, Qubadlı, Laçın isə həmin rayonlarla birgə 30 ilə yaxın müddətdə Ermənistanın işğalı altında qalıb, 2020-ci ildə İkinci Qarabağ müharibəsində işğaldan azad olunub. Prezident İlham Əliyevin 7 iyul 2021-ci il tarixli fərmanı ilə Azərbaycanın təsdiq olunmuş 14 iqtisadi regiondan biri də Şərqi Zəngəzurdur. Bu regiona Qubadlı, Laçın, Zəngilan rayonları ilə birgə Kəlbəcər və Cəbrayıl rayonları da daxildir.

Qərbi Zəngəzurdan keçən dəmir yolu Ağbənd qəsəbəsi ilə sərhəd olan, tarixən qədim Azərbaycan torpağı olmuş Meğri (Mehri) rayonunun Nüvədi kəndinin Sığırt dağından başlayıb, 24 kilometr ərazidən keçib Ordubadın Salamməlik stansiyasına daxil olur. 1936-cı ildə Ələt – Mincivan, Mincivan – Qafan dəmir yolu istifadəyə verilib. Çəkilişi 1939-cu ildə başlayan Mincivan – Culfa dəmir yolu isə 1941-ci ildə fəaliyyətə başlayıb. Bakıdan Naxçıvana bu məsafə, təxminən, 632 kilometr olub, ən qısa yol hesab olunur.

Bu yol əvvəllər çəkilmiş Uluxanlı – Şərur – Culfa dəmir yoluna birləşdirilməklə həm şimaldan, həm də cənubdan hərəkət etməklə Bakı –Tbilisi – İrəvan çevrəsi yaradıb. Xatırladaq ki, 1943-cü ilin 28 noyabr – 1 dekabrında SSRİ, ABŞ, İngiltərə liderləri arasında Tehran şəhərində keçirilən beynəlxalq konfransda iştirak etmək üçün SSRİ-nin rəhbəri İ.Stalin məhz Bakı – Ələt – Mincivan – Mehri – Culfa yolu ilə Tehran şəhərinə getmişdi.

Dəhliz vasitəsilə qonşu dövlətlər Rusiya Yaxın Şərqə və Avropaya, Ermənistan Rusiya və İrana, o cümlədən Avropaya, İran isə bu marşrutla Avropaya, Rusiyaya çıxış əldə etmiş olacaq. Bu marşrutun əsas müəllifləri olan Azərbaycanla Türkiyə isə Şərqdən Qərbə, Şimaldan Cənuba uzanan dəhlizlərin səmərəliliyinin daha yüksək olmasına xüsusi qayğı göstərirlər.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyıb Ərdoğan Xəzər dənizi üzərindən keçən ortaq nəqliyyat dəhlizinin daha səmərəli istifadəsinin vacibliyini vurğulayıb və enerji təhlükəsizliyi, eləcə də texnoloji əməkdaşlıq istiqamətində birgə layihələrin genişləndirilməsinin önəmini qeyd edib.

Azərbaycan dövləti bu gün iqtisadi inkişafa, beynəlxalq əlaqələrə, sülh və sabitliyə nail olmağa daha böyük üstünlük verir. Bu, həm də regionda sabitliyin bərqərar olması, mülki naviqasiya azadlığı "BMT-nin ərzaq, ticarət yolları təhlükəsiz, davamlı və proqnozlaşdırıla bilən" tələblərinə cavab verir. Zəngəzur dəhlizinin açılması həm də üçüncü dəfə Şərqlə–Qərb arasında Azərbaycandan keçən bərpa olunmuş İpək yolunun – Orta Dəhlizin ikinci qolunun açılması deməkdir.

"Böyük İpək yolu" termini b.e.ə. məşhur Çin səyyahı Çian Syanın səfərindən sonra işlənməyə başlanıb. Eramızın II əsrindən fəaliyyətə başlayan bu yol XVI əsrə qədər Çindən başlayaraq Balkan yarımadasına qədər mövcud olub. Bu yolla hərəkət edən karvanların ən dəyərli məhsullarının ipək mallar olduğunu nəzərə alaraq, bu məşhur marşrutun adını 1870-ci ildə alman fotoqrafı Fon Rixtofen "İpək Yolu" qoyub.

Zəngəzur dəhlizi açılandan sonra ən çox qazanan dövlətlərdən biri məhz Ermənistan olacaq. Ermənistan öz ağlı ucundan 30 ildən artıq özünü saldığı blokada şəraitindən çıxacaq, Rusiyaya, Mərkəzi Asiya və Orta Şərq dövlətlərinə gediş-gəliş açılacaq. Azərbaycan və Türkiyə ilə siyasi, iqtisadi, sosioloji, mədəni, turizm və s. əlaqələri bərpa olunacaq. Bir sözlə, Ermənistan özünü saldığı blokadadan xilas edəcək, dünyada gedən inteqrasiya proseslərinin iştirakçısına çevriləcək.




Amma əfsuslar olsun ki, bunu erməni "başbilənləri" başa düşmür və ya düşmək də istəmirlər. Xalqının daxili xislətini yaxşı bilən öz sairləri Ovanes Tumanyanın yazdığı kimi: "həqiqi qurtuluş daxildən başlamalıdır, biz isə daxilən xəstəyik". Qərbi Azərbaycan İcmasının bəyanatında isə bunun tam əksi vurğulanır: "Ermənistan tərəfinin bizə qarşı törətdiyi böyük müsibətləri tarixi yaddaşımızda saxlamaqla bərabər, qəbul edirik ki, sülh və inkişafın təmin edilməsinin yolu dialoq və barışıqdan keçir".

Müstəqil Azərbaycanın memarı, ümummillil lider Heydər Əliyevin sözlərinə xalqımız həmişə əməl etməlidir: "Bundan sonra da elə əsərlər yaranmalıdır ki, o əsərlər Ermənistanda yerləşən həmin torpaqların Azərbaycana məxsus olmasını daim, ardıcıl surətdə sübut etsin. Biz bunu etməliyik. Biz gələcək nəsillər üçün yol açmalıyıq". Ulu öndər Heydər Əliyevin tövsiyə və vəsiyyətlərini qədirbilən Azərbaycan xalqı həmişə yad və əməl edirlər.

Ümummilli lider Heydər Əliyev demişdir: "XX əsrin 20-ci illərində yeni sovet hakimiyyəti təzə qurulan zaman Qafqazda respublikanın sərhədləri yaranarkən Azərbaycana qarşı ədalətsizlik edilibdir. Azərbaycanın qədim torpaqları olan Zəngəzur mahalı və başqaları Ermənistana verilibdir. Bununla əlaqədar Zəngəzurun Araz çayı sahilində olan, qədim Azərbaycan torpağı olan Meğri rayonu da Ermənistana verilibdir. Beləliklə, böyük Azərbaycan ilə onun ayrılmaz hissəsi olan Naxçıvan arasında coğrafi nöqteyi-nəzərdən müəyyən çətinliklər yaranıbdır".

Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının oktyabrın 7-də Qəbələ şəhərində keçirilən 12-ci Zirvə görüşündəki çıxışında söyləyib: "Zəngəzur dəhlizi həm Orta Dəhliz, həm də Şimal-Cənub Dəhlizi çərçivəsində yeni nəqliyyat arteriyası və ikinci marşrut kimi mühüm əhəmiyyət kəsb edir". Bu tarixi həqiqətin reallaşmasına az qalıb.

Vaşinqtonda 9 avqust 2025-ci il tarixində imzalanan 2 mühüm sənəd – Azərbaycan–ABŞ Strateji Tərəfdaşlıq Anlaşması və Azərbaycan – Ermənistan arasında sülh sazişinin paraflanması Prezident İlham Əliyevin qətiyyətli və uzaqgörən siyasətinin növbəti zəfəri kimi tarixə düşdü. ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında uzun illər davam edən münaqişəyə son qoyan tarixi sülh sazişinin paraflanması Cənubi Qafqazda yeni dövrün başlanğıcı oldu.

Artıq çəkilməsi davam etdirilən Qars–Naxçıvan dəmir yolu xətti Zəngəzur dəhlizinin davamı kimi dəhlizin yükgötürmə qabiliyyətinin formalaşması üçün nəzərdə tutulmuşdur. Qars–İğdır–Aralıq–Dilucu–Sədərək–Naxçıvan–Culfa dəmir yolu xətti 224 km uzunluğunda və 5 stansiyadan ibarət, saatda 160 km sürət üçün nəzərdə tutulan lahiyə çərçivəsində uzunluğu 638 metr olan 10 körpü, 18 kilometrlik 465 suötürücü, ümumilikdə, 5,5 kilometrlik 144 yeraltı keçid tikiləcək. Lahiyənin 5 il müddətində başa çatdırılması nəzərdə tutulmuşdur. Bu lahiyələr həm də Avropa ilə Asiyanın ticarət əlaqələri üçün olduqca əlverişli olacaqdır.

Beləliklə, Zəngəzur dəhlizi XIX əsrin Süveyş, XX əsrin Panama kanalı kimi XXI əsrdə dünyanın ən mühüm nəqliyyat dəhlizinə çevrilir.

***İsmayıl ƏLİYEV,***
***Bakı Dövlət Universitetinin kafedra müdiri, professor***

# Cənubi Qafqazda mülayimləşməyə Şimal küləyi əsirmi?

## *Yaxud TRIPP layihəsi ətrafında müzakirələrə yad çalar qatmaq cəhdləri*

**Cənubi Qafqazda sülhün, sabitliyin və qarşılıqlı əməkdaşlığın havası duyulduqca bölgəətrafı aktorlarda iştahanın artması müşahidə olunmaqdadır. Xüsusilə də otuz ildən çox qapalı qalmış nəqliyyat kommunikasiyalarının işə düşməsindən sonra gələcək dividendlərə şərik olmaq meyilləri aşkar sezilir. Bu da təbiidir. İntəhası, təbii olmayan odur ki, Avrasiyanın böyük nəqliyyat habına çevrilmiş Azərbaycanın sayəsində əldə olunacaq gəlirlərə haqqı çatmayanlar da şərik olmağa çalışırlar.**




Rəsmi İrəvan gec də olsa anladı ki, onun üçün iqtisadi blokadadan çıxmağın, dirçəliş mərhələsinə keçməyin yeganə yolu Azərbaycana bağlı kommunikasiya şəbəkəsinin tam açılmasından keçir. Nikol Paşinyan hakimiyyəti onu da yaxşı başa düşür ki, nəqliyyat-kommunikasiya siyasəti təkcə iqtisadi məsələ deyil, Ermənistan üçün bu, bir növ, dövlətçiliyin qarantı və suverenlik testidir.

TRIPP layihəsinin də, Ermənistan və Azərbaycan arasında sülhün də müəllifi ABŞ Prezidenti Donald Trampdır. Sadəcə, hazırda "Tramp marşrutu" ətrafında maraqlı və bir qədər də qəliz situasiya yaranıb. Aydın məsələdir ki, bölgə və bölgəətrafı ölkələr üçün gələn il reallaşacaq bu layihə böyük əhəmiyyətə malikdir. Ağ Evin təminatçısı olduğu bu marşrut ətrafında gedən müzakirə və diskussiyalarda Ermənistan hakimiyyətinin öz ərazisində qərarvermə imkanlarının məhdud olduğunu görürük. Bəli, bu layihə böyük dövlətlərin maraqlarının kəsişdiyi nöqtəyə çevrilib. Bölgə ölkələri də bunun, sadəcə, texniki-iqtisadi məsələ deyil, siyasi çəkili tranzit marşrutu olduğunu yaxşı bilirlər. Bu zaman Cənubi Qafqazda əsas oyunçular – Azərbaycan, Türkiyə, ABŞ, Rusiya və İran öz maraqlarını ön plana çəkmək imkanlarına malikdirlər. Ermənistana isə bu çarpaz müstəvidə yekun nəticə ilə razılaşmağa məcbur olan oyunçu rolu ayrılıb. İrəvan bununla barışsa da, barışmasa da, reallıq bundan ibarətdir.

* * *

Bakının xoşməramlı jesti ilə Ermənistana taxıl partiyalarının Azərbaycan və Gürcüstan üzərindən tranziti də ilk baxışda iqtisadi və texniki xarakterli məsələ kimi görünə bilər. Amma, əslində bu, Cənubi Qafqaz regionunda Azərbaycanın təşəbbüsü ilə formalaşmaqda olan yeni nəqliyyat-kommunikasiya düzəninin siyasi mahiyyətini vizual əks etdirir. Ermənistanın iqtisadiyyat naziri Gevork Papoyan bu barədə bir qədər ehtiyatlı danışmaqla rəsmi İrəvanın prosesdə müstəqil və real qərar qəbul edən tərəf olmadığını üzə çıxarır. Baxmayaraq ki, həm baş nazir Nikol Paşinyan, həm də vitse-spiker Ruben Rubinyan Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirəcək 42 kilometrlik TRIPP marşrutu üzərində üçüncü ölkənin nəzarət hüququna malik olmadığını bəyan ediblər. Bu barədə aşağıda söhbət açacağıq. İndi isə bir vacib nüansı qeyd etməliyik: Ermənistanın taxıl kimi strateji məhsulun daşınması üzrə tranzit marşrutu üçün Azərbaycana möhtac qalması postmünaqişə dövründə regionda reallığın köklü şəkildə dəyişdiyini təsdiqləyir. Bu isə Azərbaycanın bölgədə əsas logistika mərkəzinə çevrildiyinə, İrəvanın alternativ marşrut seçiminin son dərəcə məhdud olduğuna dəlalət edir.

Bu gün Cənubi Qafqaz üzərində əsas geosiyasi düyünlərin məhz TRIPP layihəsi ətrafında cəmləşməsi təəccüblü deyil. Rusiya Xarici İşlər Nazirliyinin MDB ölkələri üzrə 4-cü departamentinin direktoru Mixail Kaluqinin bu barədə açıq mesajı da bunu təsdiqləyir. Rusiyalı diplomat ölkəsinin iştirakı olmadan bu layihənin reallaşmasının mümkün olmadığını iddia edib. Onun ön plana çıxarmağa çalışdığı əsas arqumentlər isə texniki xarakter daşıyır. Kaluqin Ermənistan dəmir yollarının Rusiya Dəmir Yollarının törəmə şirkəti olan "Cənubi Qafqaz Dəmir Yolu"nun mülkiyyətində olduğuna işarə vurub. Bildirib ki, bu regionda Rusiya dəmir yolu rels standartlarından istifadə edilir, "Tramp marşrutu"nun keçəcəyi Ermənistan ərazisi isə Rusiya sərhədçilərinin məsuliyyət zonasına (?) daxildir. Guya, Ermənistanın Avrasiya İqtisadi İttifaqının üzvü olması hüquqi-siyasi məhdudiyyətlər yaradır. Kaluqin Rusiyanın "Cənubi Qafqaz Dəmir Yolu" şirkəti tərəfindən Ermənistanın dəmir yolu şəbəkəsinin idarə olunması üzrə konsessiyaya malik olduğunu və "Tramp marşrutu"nun da bu konsessiyanın tərkibinə düşdüyünü iddia edib. Yəni yol xəritəsi faktiki olaraq Ermənistan ərazisindən keçsə də, idarəetmə, təhlükəsizlik və ümumi standartlar Rusiyanın nəzarətindədir. Sanki SSRİ dövründə olduğu kimi. Amma burada Rusiya XİN rəsmisi ciddi şəkildə yanılır.



"Rəsmi Moskva qəfil xatırlayıb ki, guya, Ermənistanın Meğri rayonu üzərindən keçən dəmir yolu Rusiya Dəmir Yollarına məxsusdur". Bu barədə yerli mediaya açıqlama verən **sabiq xarici işlər naziri Tofiq Zülfüqarov** M.Kaluqinin son bəyanatını şərh edərkən vurğulayıb ki, Meğri üzərindən keçən dəmir yolu faktiki olaraq Azərbaycanın mülkiyyətidir: "Həm Ermənistan, həm də Rusiya tərəfinə xatırlatmaq istəyirəm ki, bu dəmir yolu Azərbaycan SSR-in və onun hüquqi varisi olan müstəqil Azərbaycan Respublikasının mülkiyyətidir! Bizim mülkiyyət hüquqlarımız Alma-Ata Bəyannaməsinə əlavə olunan sənədlərlə təmin olunub. Qanunsuz zəbt edilmiş əmlak Rusiya Federasiyası tərəfindən özəlləşdirilə bilməz!"

* * *

Sabiq xarici işlər nazirinin beynəlxalq praktikaya və hüquqa söykənərək dediklərini diqqətinizə çatdırdığımız tarixi sənədlər aydın şəkildə sübuta yetirir.

**ARAYIŞ:** Mincivan–Culfa xətti 1941-ci ildə istifadəyə verilib. Bildiyimiz kimi, Zəngəzur zorla Azərbaycandan alınıb Ermənistana verildiyi üçün Naxçıvanla quru əlaqə qırılmışdı. Dəmir yolunun bir hissəsi Ermənistan ərazisindən keçsə də, yol bütövlükdə Azərbaycana məxsus idi. SSRİ Dövlət Müdafiə Komitəsinin 6 iyul 1945-ci il tarixli əmrinə əsasən, ölkəmizin dəmir yolu xətləri Zaqafqaziya Dəmir Yollarının tərkibindən çıxarılıb və 28 iyul tarixli əmrlə Azərbaycan Dəmir Yolları müstəqil quruma çevrilib. 14 may 1953-cü ildə ADY yenidən Zaqafqaziya Dəmir Yollarının tabeliyinə verilib. Buna baxmayaraq, Azərbaycan SSR Nazirlər Sovetinin 13 oktyabr 1955-ci il qərarı ilə ADY SSRİ Yollar Nazirliyinin tərkibində ayrıca bir qurum kimi fəaliyyətini davam etdirib. SSRİ yollar nazirinin 2 mart 1963-cü il tarixli 270 saylı əmri ilə ADY yenidən Zaqafqaziya Dəmir Yollarının tabeliyinə keçib. 1 iyun 1967-cil tarixli 15-859 saylı əmrlə isə ADY yenidən ayrıca qurum kimi fəaliyyətini bərpa edib. SSRİ ilə İran arasında dəmir yolu daşımaları da Azərbaycan vasitəsilə aparılıb və bu yolda əsas məntəqə Culfa stansiyası olub.

* * *

Bir məsələnin də dəqiqləşdirməyə ehtiyacı var: rəsmi İrəvan Zəngəzur dəhlizini məhz "Tramp marşrutu" kontekstində ABŞ şirkətinə icarəyə verib. Kreml isə İrəvanın qarşısına Zəngəzur dəhlizinin keçəcəyi 42 kilometrlik ərazinin kimin nəzarətində olacağı ilə bağlı şübhəli suallar paketi qoyur. Rusiya, yoxsa, ABŞ? – dilemmasının Paşinyan iqtidarına təzyiq vasitəsi kimi ortaya atıldığı məlumdur. Ermənistan baş naziri bu məqamda həmin sualı birmənalı cavablandırmağa özündə siyasi iradə tapmalıdır. TRIPP layihəsində öz mənafeyini güdən, buna görə məsələyə yad çalarlar qatmağa çalışan Kreml dolayısı ilə eyham vurur ki, rəsmi İrəvan, faktiki olaraq, Ermənistanın tam nəzarət etmədiyi bir infrastrukturu başqasına icarəyə verə bilməz. Məhz bu kontekstdə Moskva indi bütün bu məsələləri rəsmi İrəvanla aydınlaşdırmaq əvəzinə Zəngəzur dəhlizi ətrafında yaranmış situasiyanı qəlizləşdirməyə üstünlük verir.

Sonda onu da qeyd edək ki, bütün bu ziddiyyətlərin kəsişmə nöqtəsində olan Ermənistan özünün dövlət kimi statusunu ortaya qoymalı, Nikol Paşinyan belə həlledici məqamda TRIPP layihəsi ilə bağlı tamhüquqlu beynəlxalq subyekt kimi çıxış edərək Rusiya Dəmir Yollarının Ermənistan dəmir yolları üzərindəki mülkiyyət hüququnu ləğv etməyi bacarmalıdır. Hətta buna görə ciddi təhlükəsizlik riskləri, Moskva ilə açıq qarşıdurma ilə üzləşsə belə...

***İmran BƏDİRXANLI***
***XQ***

# Fransada fermerlərin etirazlarını eşidən yoxdur

## *Azərbaycan dövləti isə aqrar sahənin inkişafını fəal dəstəkləyir*

**Bəlkə də Fransadakı kimi qarma-qarışıq gündəmə heç bir Avropa ölkəsində rast gəlmək mümkün deyil. Gah hökumətə qarşı narazılıqlar, gah cəmiyyətin müxtəlif təbəqələri arasında ziddiyyətlər, gah da siyasi elitanın daxilində hökm sürən qarşıdurmalar Parisi bir növ "xaos girdabı"na sürükləyir. Bu dəfə isə uğursuz aqrar siyasətinə qarşı fermerlər etirazlar təşkil edirlər. Əslində, narazılıqlar təsadüfən bu qədər böyüməyib. Sadəcə, ölkənin kənd təsərrüfatı sektorunda uzun müddətdir yığılan struktur problemləri açıq siyasi fazaya keçib.**



Son aylarda Fransada heyvan xəstəlikləri ilə bağlı tətbiq edilən kütləvi kəsim siyasəti minlərlə fermeri küçələrə çıxarıb. Paris hökuməti və Avropa İttifaqı bu qərarları sanitariya təhlükəsizliyi və ictimai sağlamlıq arqumentləri ilə əsaslandırmağa çalışsa da, kəndlilərə bu izahlar inandırıcı gəlmir. Çünki fermerlər üçün bu məsələ həyat tərzinin, ailə təsərrüfatlarının və gələcək perspektivin sistemli şəkildə sıradan çıxarılması anlamına gəlir. Ümumiyyətlə, vurğulanmalıdır ki, Fransada kənd təsərrüfatına heç vaxt yalnız iqtisadi sahə kimi baxmayıblar. Bu sektor respublika ideyasının sosial dayaqlarından biri, dövlətlə cəmiyyət arasında səssiz razılaşmanın əsas sütunu kimi formalaşıb. Məhz buna görə fermer etirazları burada adi sosial narazılıq kimi qəbul edilmir. Yəni nə zaman ki, kənd ayağa qalxıb, bu, həmişə mərkəz üçün siyasi xəbərdarlıq olub. Bugünkü etirazların mahiyyəti isə daha dərindir. Fermerlər açıq şəkildə bildirirlər ki, qərarlar onların iştirakı olmadan qəbul olunur, heç kim üzərinə məsuliyyət götürmək istəmir. Parisdə və Brüsseldə formalaşan aqrar siyasət yerlərdəki reallığı nəzərə almadan, texnokratik dillə tətbiq edilir. Nəticədə kağız üzərində rasional görünən qərarlar real həyatda sosial travmaya çevrilir.

Heyvanların kütləvi şəkildə məhv edilməsi fermerlər üçün maddi zərərdən əlavə, illərlə qurulan təsərrüfat modelinin dağılması, ailə işinin məhv olması, kəndlinin həyatının mənəvi əsaslarının sarsılması anlamına gəlir. Dövlət isə prosesi statistik göstəricilərlə izah etməyə çalışır. Elə əsas qırılma da burada baş verir. Daha dəqiq desək, texnokratik baxış insan amilini nəzərə almır. Yeri gəlmişkən, Avropa İttifaqının ortaq aqrar siyasəti bu böhranın struktur mənbələrindən biridir. Bir zamanlar kəndi qorumaq, ərzaq təhlükəsizliyini təmin etmək üçün yaradılmış mexanizmlər bu gün daha çox normativ nəzarət alətinə çevrilib. "Yaşıl keçid", ekoloji standartlar və biosanitariya qaydaları ideya olaraq mübahisəsizdir. Lakin həmin ideyaların tətbiqi sosial reallıqlardan qopduqda müqavimət yaradır.

Fransız fermerlərinin Brüsselə yönələn sərt ritorikası da təsadüfi deyil. Kənd üçün Avropa artıq həmrəylik mərkəzinin əksinə şəhərli elitanın dəyərlərini diktə edən uzaq güc kimi görünür. Bu isə Avropa layihəsinin sosial legitimliyinə ciddi zərbədir. Çünki inteqrasiya kənddən qopduqca, siyasi dayanıqlılığını da itirir. Paris hökumətinin mövqeyi isə ziddiyyətli təsir bağışlayır. Rəsmi açıqlamalarda dialoqdan, dəstək paketlərindən və kompromisdən danışılır. Amma praktikada qəbul edilən qərarlar bu ritorika ilə üst-üstə düşmür. Etirazlar, eyni zamanda, Fransada şəhər–kənd qarşıdurmasını yenidən gündəmə gətirir. Ekoloji siyasət hər nə qədər şəhər üçün etik seçim olsa da, kənd üçün bu yaşamaq və ya yox olmaq dilemmasıdır. Dövlət sözügedən iki "dünya"nı uzlaşdırmaq əvəzinə, birinin prioritetlərini digərinə zorla qəbul etdirməyə çalışır. Bu isə sosial parçalanmanı daha da dərinləşdirir. Mövcud vəziyyət Fransa üçün daha geniş bir sualı gündəmə gətirir ki, mərkəzləşmiş qərar qəbuletmə modeli regional və sektora spesifik böhranlar üçün hələ də adekvatdırmı? Prefektura (inzibati idarəetmə orqanı və ya inzibati bölgü vahidi) səviyyəsində icra edilən, lakin Parisdə və qismən Brüsseldə formalaşdırılan qərarlar yerli reallıqlarla üz-üzə gələndə siyasi məsuliyyətin kimə aid olduğu da qeyri-müəyyənləşir. Bu qeyri-müəyyənlik isə etimadı zəiflədir və böhranı uzadır.

Fransadakı mənzərəni daha aydın anlamaq üçün onu fərqli idarəetmə modeli ilə müqayisə etmək daha faydalıdır. Məhz bu nöqtədə Azərbaycan nümunəsi diqqət çəkir. Çünki ölkəmizdə kənd təsərrüfatı son illər strateji inkişaf istiqaməti və sosial sabitlik aləti kimi inkişaf edir. Azərbaycan modelinin əsas fərqi ondan ibarətdir ki, aqrar siyasətin tətbiqi prosesində regional xüsusiyyətlər və istehsalçının real imkanları nəzərə alınır. Bu yanaşma Fransa ilə əsas institusional fərqi yaradır. Orada fermer çox vaxt normativlərin passiv icraçısına çevrilirsə, Azərbaycanda istehsalçı dövlət siyasətinin aktiv tərəfdaşı kimi çıxış edir. Bununla yanaşı, ölkəmizdə kənd təsərrüfatının inkişafı məqsədli dövlət proqramları, subsidiya mexanizmləri, güzəştli kreditlər və texniki dəstək üzərində qurulub. Aqrar sahədə dövlətin əsas strategiyası istehsalı qorumaqla yanaşı, fermerin risk yükünü azaltmaqdır. Xüsusilə heyvandarlıq və bitkiçilik sahələrində risklərin bölüşdürülməsi prinsipi tətbiq olunur. Bu isə böhran anlarında sosial narazılığın kəskinləşməsinin qarşısını alır.

Bundan öncə qeyd etdik ki, Fransada heyvan xəstəlikləri fonunda tətbiq edilən kütləvi kəsim siyasəti fermer üçün kollektiv məsuliyyət modeli yaradır. Azərbaycanda isə oxşar risklər zamanı daha çox diferensial yanaşma üstünlük təşkil edir. Profilaktik tədbirlər, lokal karantin, mərhələli müdaxilə və təsərrüfatın tam sıradan çıxarılmamasına yönəlik mexanizmlər prioritet sayılır. Bu yanaşma fermer üçün dövlətin qoruyucu rolunu gücləndirir. Azərbaycan aqrar siyasətinin mühüm xüsusiyyətlərindən biri də kommunikasiya modelidir. Fermerlə dövlət arasında əlaqə təkcə inzibati göstərişlərlə məhdudlaşmır. Aqrar xidmətlər, sahə mütəxəssisləri və regional strukturlar vasitəsilə qərarların izahı, risklərin öncədən bildirilməsi və fermerin prosesə psixoloji hazırlanması təmin olunur. Fransada etirazların dərinləşməsinin səbəblərindən biri məhz bu kommunikasiya boşluğudur. Nəticə olaraq, Fransa ilə müqayisədə Azərbaycanda kənd təsərrüfatının inkişafı yalnız, bir növ, idarəetmə uğuru kimi dəyərləndirilə bilər. Aqrar sektorun sosial və strateji əhəmiyyətinin düzgün qiymətləndirilməsi kəndlə dövlət arasında etimadı gücləndirir. Bu isə aqrar siyasəti potensial böhran mənbəyindən sabitlik faktoruna çevirir.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*



**Züriyyə QARAYEVA,**
**politoloq**

Fransada baş verən fermer etirazları Avropa İttifaqının kənd təsərrüfatı siyasətində uzun müddət davam edən problemlərini açıq şəkildə üzə çıxarır. Heyvan xəstəlikləri ilə mübarizə adı altında həyata keçirilən kütləvi kəsim qərarları, kompensasiyaların yetərsizliyi və ekoloji tələblərin sərtləşdirilməsi fermerlər üçün həm iqtisadi, həm də sosial təhlükəsizlik böhranı yaradıb. Fransa hökumətinin prosesdə Aİ qaydalarına istinad etməsi isə məsuliyyətin Brüsselə ötürülməsi kimi qəbul olunur və bu da mərkəzi hakimiyyətin legitimliyinə birbaşa zərbə vurur. Nəticədə fermerlər qərarvermə prosesindən kənarda qalmalarına etirazlarını bidirirlər ki, bu da Fransada sosial narazılığın dərinləşdiyini göstərir.

Azərbaycanla müqayisədə isə tam fərqli yanaşma müşahidə olunur. Azərbaycanda kənd təsərrüfatı və heyvandarlıq sahəsində risklərin idarə olunması daha çox preventiv tədbirlər üzərindən qurulub. Xəstəliklərə qarşı mübarizədə fermerlərlə əməkdaşlıq modeli tətbiq edilir və kompensasiya, subsidiya, sığorta, logistika dəstəyi kimi alətlər ön planda tutulur. Bu yanaşma sosial gərginliyin yaranmasının qarşısını alır. Məhz bu fərq göstərir ki, kənd təsərrüfatı siyasətində texniki qərarların sosial nəticələri nəzərə alınmadıqda, Avropada olduğu kimi, böhran qaçılmaz olur, sosial balans qorunduqda isə Azərbaycandakı kimi sabitlik və inkişaf mümkünləşir. Eyni zamanda, ölkəmizin nümunəsində diqqətçəkən məqam aqrar modernləşmə ilə sosial tarazlığın paralel aparılmasıdır. Texnoloji yeniliklər, rəqəmsal kənd təsərrüfatı, məhsuldarlığın artırılması kimi hədəflər fermerin iqtisadi dayanıqlılığı hesabının əvəzinə onun mövcudluğunu möhkəmləndirməklə həyata keçirilir. Bu isə kənd əhalisinin dövlət siyasətinə münasibətində inam yaradır.

# Omanla əməkdaşlığın potensialı yüksəkdir

**Son illərdə Azərbaycanın ərəb dövlətləri ilə münasibətləri yeni və daha fəal inkişaf mərhələsinə daxil olub. Bu əlaqələrin dərinləşməsində xalqlar arasında mövcud olan tarixi, dini və mədəni bağlılıq mühüm rol oynayır. Rəsmi Bakı xarici siyasət prioritetləri çərçivəsində İslam coğrafiyası ilə əməkdaşlığa xüsusi əhəmiyyət verir və ərəb dövlətləri ilə qarşılıqlı faydaya əsaslanan iqtisadi münasibətlərin genişləndirilməsində maraqlıdır.**

Azərbaycan Səudiyyə Ərəbistanı, BƏƏ və Qətərlə olduğu kimi, Oman Sultanlığı ilə də münasibətlərin inkişafına xüsusi önəm verir. Bu kontekstdə qeyd etmək lazımdır ki, dekabrın 18-də Azərbaycan ilə Oman arasında iqtisadi əməkdaşlıq məsələləri ətrafında müzakirələr aparılıb. İqtisadiyyat naziri Mikayıl Cabbarov Oman Sultanlığının iqtisadiyyat naziri Səid bin Məhəmməd bin Əhməd Əl Saqri ilə görüşüb, iqtisadi əlaqələrin möhkəmləndirilməsi imkanları nəzərdən keçirilib.



Görüşdə iki ölkə arasında qarşılıqlı etimada əsaslanan yüksək səviyyəli münasibətlərin iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi üçün mühüm zəmin yaratdığı qeyd edilib. Tərəflər birgə iqtisadi fəaliyyətin təşviqi istiqamətində hüquq-müqavilə bazasının gücləndirilməsinin, Azərbaycan–Oman Birbaşa İnvestisiya Fondunun, İnvestisiya üzrə İşçi Qrupunun və Azərbaycan–Oman Birgə Biznes Şurasının yaradılmasının önəmini vurğulayıblar. Həmçinin bərpaolunan və ənənəvi enerji, nəqliyyat, logistika, turizm və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi perspektivləri dəyərləndirilib.

Qeyd edək ki, iki ölkə arasında diplomatik münasibətlər 1992-ci ildə qurulub. Azərbaycan ilə Oman Sultanlığı arasında formalaşmış fəal siyasi dialoq ikitərəfli münasibətlərin bütün istiqamətlər üzrə inkişafı üçün möhkəm zəmin yaradıb. Bununla yanaşı, birgə əməkdaşlıq üçün hələ də reallaşdırılmamış geniş potensial mövcuddur. Qarşılıqlı maraq və siyasi iradə Azərbaycan–Oman əlaqələrinin gələcək inkişafı üçün ümidverici perspektivlər açır.

Rəsmi statistikaya əsasən, Azərbaycan ilə Oman Sultanlığı arasında ticarət balansı ölkəmizin xeyrinədir və dövriyyənin əsas hissəsini ixrac təşkil edir. Belə ki, 2022-ci ildə iki ölkə arasındakı ümumi ticarət dövriyyəsi 1,520 milyon ABŞ dolları səviyyəsində olub. Bunun 478 min dolları idxal, 1,042 milyon dolları isə ixracın payına düşüb.

2023-cü ildə ümumi ticarət dövriyyəsi 1,127 milyon dollar təşkil edib. Bu rəqəmin 800,58 min dolları ixrac, 326,44 min dolları isə idxal hesabına formalaşıb. 2024-cü ildə isə Azərbaycan–Oman ticarətində böyük artım müşahidə olunub. Yanvar–noyabr aylarında dövriyyə 66,453 milyon ABŞ dolları səviyyəsinə yüksəlib. Bunun 66,088 milyon dolları ixrac, 365 min dolları isə idxalın payına düşüb. Cari ilin yanvar–noyabr ayları ərzində isə Azərbaycan ilə Oman arasında ticarət dövriyyəsi 1,386 milyon dollar olub.

Qeyd edək ki, Azərbaycan Oman bazarına müxtəlif məhsullar ixrac edir. Əsas ixrac məhsulları arasında tütün, kakao, həmçinin texniki və tibbi avadanlıqlar yer alır. Bundan əlavə, meyvələr, tərəvəzlər, toxuculuq məmulatları, kosmetika, dəmir və polad məmulatları, eləcə də elektron avadanlıqlar və nəqliyyat vasitələri də ixrac olunub. İxrac siyahısına idman ləvazimatları, ayaqqabılar, xalçalar, çap məhsulları, şüşə və keramika məhsulları daxildir. Azərbaycanın Oman bazarına ixrac etdiyi məhsullar həm sənaye və istehsal mallarını, həm də qida və istehlak məhsullarını əhatə edir.

Oman Sultanlığı da öz növbəsində Azərbaycana müxtəlif məhsullar ixrac edir. Əsas ixrac məhsulları arasında texniki və tibbi avadanlıqlar, həmçinin müxtəlif kimyəvi məhsullar və qeyri-üzvi kimyəvi maddələr yer alıb. Bundan başqa, Oman tərəfindən ət, süd və balıq məhsulları, mineral yanacaqlar, həmçinin plastik və elektrik avadanlıqları kimi məhsullar ixrac edilib.

***Musa BAĞIRLI***
***XQ***

### *Ekspert rəyi*

**Eldəniz ƏMİROV,**
**iqtisadçı**



Azərbaycan bu gün qeyri-neft sektorunun inkişafı üçün yalnız yaxın qonşular və yüksək səviyyədə iqtisadi əlaqələr qurduğu ölkələrdən deyil, həm də digər ölkələrdən mövcud potensiallardan maksimum şəkildə istifadə etməlidir. Əks halda, qeyri-neft sektorunda inkişaf dinamikası arzuolunan səviyyəyə çata bilməz.

Məhz bu kontekstdə Azərbaycan–Oman arasında olan iqtisadi münasibətlərin bütün perspektivləri qiymətləndirilməli və mövcud potensialın reallaşdırılması üçün konkret və real addımlar atılmalıdır. Mən hesab edirəm ki, iqtisadiyyat naziri Mikayıl Cabbarovun omanlı həmkarı ilə görüşü də məhz bu zərurətdən formalaşıb.

Hazırda görünür ki, iki ölkə arasında iqtisadi potensial mövcud əməkdaşlıq reallığından xeyli yüksəkdir. Məsələn, 2015-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi cəmi 68 min dollar təşkil edirdi. Sonrakı illərdə isə bu dinamika yüksəlməyə başlamış və 2018-ci ildə artıq 3 milyon dolları keçmişdi. Lakin bəzi dövrlərdə ticarət həcmi yenidən azalmış və nəticədə bir neçə yüz min dollardan bir neçə milyon dollara qədər dalğalanmalar müşahidə olunub.

2023-cü ildə iki ölkə arasındakı ticarət dövriyyəsi 1,1 milyon dollar, 2024-cü ildə isə 66,5 milyon dollar olub. Bu il isə artım əvvəlki səviyyədə davam etməyib: yanvar-noyabr aylarında Azərbaycanın xarici ticarət dövriyyəsi 44,06 milyard dollar səviyyəsində olub və bu, 4,3 faiz artım dinamikası göstərib. Lakin Oman–Azərbaycan ticarət dövriyyəsi yalnız 1,4 milyon dollara yaxın olub.

Bu fakt göstərir ki, belə görüşlər, müzakirələr və hüquqi bazaların formalaşdırılması vacibdir. Məqsəd ticarət dövriyyəsində dalğalanmaların qarşısını almaq və artımı davamlı etməkdir.

# Su ehtiyatlarından səmərəli istifadə müzakirə edilib



**Dünən Naxçıvanda "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 15 aprel 2020-ci il tarixli sərəncamı ilə yaradılmış Komissiyanın üzvlərinin iştirakı ilə iclas keçirilib.**

Komissiyanın sədri, Azərbaycan Respublikası baş nazirinin müavini Şahin Mustafayev Prezident İlham Əliyevin Naxçıvanın inkişafına xüsusi diqqət göstərdiyini vurğulayaraq qeyd edib ki, muxtar respublikaya böyük investisiyalar yönəldilir, o cümlədən su təchizatı sahəsində məqsədyönlü tədbirlər görülür. Ölkə başçısının tapşırığına uyğun olaraq muxtar respublika əhalisinin su təminatının yaxşılaşdırılması qarşıya mühüm vəzifə kimi qoyulub.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın prioritet istiqamətləri sırasında əhalinin içməli və suvarma suyu ilə təminatının təkmilləşdirilməsi tədbirlərinin də öz əksini tapdığını vurğulayıb. Qeyd edib ki, komissiya üzvlərinin iştirakı ilə aparılacaq müzakirələr bu istiqamətdə problemlərin daha əhatəli həllini tapmasına şərait yaradacaq.

Görüşdə muxtar respublikada su təminatı və suvarma sistemlərinin fəaliyyəti qiymətləndirilib, su ehtiyatlarından səmərəli və dayanıqlı istifadənin təmin olunması ilə bağlı aktual məsələlər müzakirə edilib.

***XQ***

## "Qərbi Abşeron" yatağında 8 maili quyu qazılıb

**Bu il "Qərbi Abşeron" yatağında 8 maili quyu qazılaraq yüksək hasilat göstəriciləri ilə sifarişçiyə təhvil verilib. SOCAR-ın Azneft İstehsalat Birliyinin sifarişi ilə həyata keçirilən qazma əməliyyatları Kompleks Qazma İşləri Tresti tərəfindən həyata keçirilib.**



Trestdən verilən məlumata görə, yataqda yerləşən 20 A saylı quyu 73°, 293 metr inhirafla, 164 saylı quyu 75°, 480 metr inhirafla, və 159 saylı quyu isə 78°, 287 metr inhirafla qazılıb. Bundan əlavə, yatağın 20 saylı özülündə yerləşən yüksək maillik bucağa malik 160, 162, 25 A və 26 A saylı quyular, eləcə də 54 saylı dərin stasionar özüldə yerləşən 113 saylı quyu 150-250 metr horizontal hissə saxlanılmaqla qazılaraq beynəlxalq standartlara uyğun tamamlanıb sifarişçiyə təhvil verilib.

Plan-qrafikə əsasən 162 saylı quyunun qazılması 40 günə planlaşdırılsa da, peşəkar yanaşma nəticəsində işlər 26 gün ərzində, 99,5 faiz məhsuldar vaxt göstəricisi ilə qazılıb. 25 A saylı yan lülə quyusuna isə 515 metr süzgəc endirilib ki, bu da SOCAR-ın tarixində rekord göstərici sayılır. Xatırladaq ki, bundan öncə 26 A saylı quyuda həmin göstərici 473 metr təşkil edib. Qeyd olunan quyuların profilinin mürəkkəb olmasına baxmayaraq, Kompleks Qazma İşləri Trestinin peşəkar komandası, məhlul, maili qazma və digər xidmət sahəsində beynəlxalq təcrübəli podratçı təşkilatlarla əməkdaşlıq edərək birgə uğurlara imza atıb.

***XQ***

## Meyvə-tərəvəz ixracı – 800 milyon dollar qazanc!

**2025-ci ilin yanvar-noyabr aylarında Azərbaycandan 807 milyon 475,9 min ABŞ dolları dəyərində 762,3 min ton meyvə-tərəvəz ixrac edilib. Bu barədə məlumat Dövlət Gömrük Komitəsinin hesabatında yer alıb.**



Bildirilib ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə ölkədən ixrac edilən meyvə-tərəvəzin dəyəri 179,5 milyon dollar və ya 28,6 faiz, həcmi isə 152,2 min ton və ya 25 faiz artıb. Xatırladaq ki, 2024-cü ilin 11 ayında ölkəmizdən 628 milyon dollar dəyərində 610 min ton meyvə-tərəvəz ixrac edilib.

Komitənin məlumatına əsasən, cari ilin yanvar-noyabr aylarında ixrac edilən əsas meyvə-tərəvəz məhsulları 175,5 milyon dollar dəyərində pomidor (158,3 min ton), 150,5 milyon dollarlıq meşə fındığı (17,4 min ton), 107,7 milyon dollarlıq xurma (145,9 min ton), 65,9 milyon dollarlıq alma (93,9 min ton), 31,4 milyon dollarlıq nar ( 32,1 min ton) və 28,3 milyon dollarlıq kartof (71 min ton) olub.

Xatırladaq ki, hesabat dövründə meyvə-tərəvəzin ümumi ixracda xüsusi çəkisi 3,45 faiz, qeyri-neft məhsullarının ixracında olan çəkisi isə 24,34 faiz təşkil edib.

***XQ***

# Aqrar festivallar dövlətin kəndə dəstəyini nümayiş etdirir

**Azərbaycanda həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasında kənd təsərrüfatı prioritet və strateji sahə kimi müəyyənləşdirilib. Bu baxımdan son illər ölkədə ərzaq təhlükəsizliyinin daha da gücləndirilməsini təmin edən və ixrac potensialının artırılmasına töhfə verən rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalına və emalı sənayesinin formalaşdırılmasına dövlət tərəfindən lazımi dəstək göstərilir.**



Eyni zamanda, ölkədə rəqəmsal həllərin tətbiqinə, elektron kənd təsərrüfatı platformasının genişləndirilməsinə və ekoloji cəhətdən dayanıqlı istehsal modellərinə keçid sürətlənir, aqrar sektorda istehsalın səmərəliliyinin artırılmasına, müasir texnologiyaların tətbiqinə, eləcə də fermerlərin maliyyə və texniki resurslara çıxışının asanlaşdırılmasına diqqət artırılır. Ümumilikdə, iqlim dəyişikliklərinin təsirlərinin azaldılması, torpaq və su ehtiyatlarından səmərəli istifadə kənd təsərrüfatının rəqabət qabiliyyətliliyini gücləndirir.

Kənd təsərrüfatında strateji hədəflərin təşviqi məqsədilə regionlarda keçirilən aqrar biznes festivalları da bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Aqrar sektorun inkişafında yeni mərhələ sayılan bu festivallar regionların kənd təsərrüfatı potensialını tanıtmaq, aqrar sahəyə investisiya cəlb etmək, yerli məhsulların daxili və xarici bazarlara çıxışını genişləndirmək, həmçinin fermerlərlə biznes qurumları arasında əməkdaşlığı gücləndirmək məqsədi daşıyır.

Ekspertlərin fikrincə, dünyada iqtisadi, ekoloji, o cümlədən iqlim dəyişikliyi kimi yeni çağırışlara uyğun olaraq keçirilən belə tədbirlər ölkədə aqrobiznesin inkişafında rolu olan tərəfləri bir araya gətirməklə beynəlxalq və yerli təcrübəni, mövcud imkanları öyrənmək, o cümlədən aqrobiznesə maliyyə dəstəyi və dövlət güzəştlərindən daha çox fermer-sahibkarın faydalanması üçün geniş imkanlar yaradır.

Eyni zamanda, biznes festivalları kiçik və orta sahibkarlığın inkişafı, qadın fermerlərin və gənclərin aqrar sahəyə fəal cəlb olunması, bilik və təcrübə mübadiləsinin genişlənməsi, regionların ixtisaslaşmış kənd təsərrüfatı məhsullarının tanıdılması və brendləşdirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

Son zamanlar fermerlərin öz imkanlarını və təsərrüfat uğurlarını nümayiş etdirmək üçün mühüm platformaya çevrilmiş aqrar biznes festivallarının əhatə dairəsi xeyli genişlənib. Təkcə onu qeyd etmək kifayətdir ki, 2025-ci ildə ölkənin 28 rayonu üzrə, ümumulikdə, 32 festival keçirilib. Həmin festivallarda aqrobiznes sahəsində fəaliyyət göstərən şirkətlər tərəfindən traktorlar, konteynerdaşıyan qoşqular, meyvəyığan platformalar, tunel tipli ön soyutma sistemləri, hava ilə soyutma avadanlıqları, fındıqtoplayan aqreqatlar, bağ ləvazimatları, toxum, ting, arıçılıq məhsulları, qurudulmuş meyvə satışı gerçəkləşdirilib. Ümumilikdə isə, festivallar çərçivəsində 8 milyon manatdan artıq satış həyata keçirilib.

Bununla yanaşı, 13 iqtisadi rayonu əhatə edən festivalların gedişində fermerlər üçün panel müzakirələr və təlimlər təşkil edilib. Kənd Təsərrüfatı Nazirliyinin məlumatına əsasən, bu il keçirilən festivallarda, ümumilikdə, 421 min 907 nəfər iştirak edib. Bunların da 38 min 492 nəfəri fermer, 383 min 415 nəfəri isə ziyarətçi olub. Bütövlükdə isə, son illər bölgələrdə, ümumilikdə, 90 aqrar biznes festivalı keçirilib.

Azərbaycanın müvafiq dövlət qurumlarının, eləcə də bankların, yerli və beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ilə keçirilən tədbirlərdə aqrobiznes sektorunun mövcud vəziyyəti və gələcək perspektivləri, eləcə də iqlimədavamlı maliyyələşdirmə, subsidiyalar vasitəsilə kənd təsərrüfatının maliyyələşdirilməsi və dövlət–özəl tərəfdaşlıqyönümlü bir sıra məsələlər müzakirə olunub. Müzakirələr zamanı biznes festivallarının fermerlərin kənd təsərrüfatı istehsalı vasitələrinə və güzəştli aqrar kreditlərə əlçatanlığının təmin edilməsi baxımından əhəmiyyəti vurğulanıb, bu kimi tədbirlərin gələcəkdə kənd təsərrüfatının innovativ, rəqabətqabiliyyətli və dayanıqlı inkişafına mühüm töhfələr verəcəyi diqqətə çatdırılıb.

Bununla yanaşı, aqrobiznes forumlarında aparılmış bir sıra müzakirələr zamanı aqrar sahənin investisiya imkanları və yeni çağırışlar, bank sektorunda aqrobiznesin maliyyələşdirilməsi təcrübəsi, maliyyə alətləri, risklər və onların tənzimlənməsi ilə bağlı təkliflər səsləndirilib, aqrar sahədə sahibkarlığın inkişafı, çətinliklər və imkanlar, kənd təsərrüfatının inkişafında dövlətin rolu, dövlət dəstəyi tədbirlərinin təkmilləşdirilməsi istiqamətləri barədə rəy və təkliflər irəli sürülüb.

Kənd Təsərrüfatı Nazirliyi Aqrar İnkişaf Mərkəzinin təşkilatçılığı ilə keçirilən builki festivallar çərçivəsində, həmçinin ölkənin 8 iqtisadi rayonunda 14 toxum sərgi-satış yarmarkası, kredit yarmarkaları, "Dəqiq kənd təsərrüfatında süni intellektin tətbiqi" layihəsi çərçivəsində isə 5 rayonda, o cümlədən Zəngilan rayonu və Xankəndi şəhərində "Bootcamp" proqramları təşkil olunub. Həmin proqramlara 20-yə yaxın ali təhsil müəssisəsindən, süni intellektin tədris olunduğu ixtisaslar üzrə təhsil alan 90-a yaxın tələbə qatılıb.

Builki tədbirlər çərçivəsində bölgələrdə rayon icra hakimiyyətləri ilə birgə 19 məhsul festivalı da təşkil olunub. Yeri gəlmişkən, gələn il keçiriləcək 19-cu Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı sərgisində məhsul festivalları keçirilən bölgələrin "Azərbaycan pavilyonu" adlı stendlə təmsil olunması planlaşdırılır.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Ərzaq bazarında qiymət artımı inflyasiyanı necə üstələyir?

## *Bu gizli proses əhalinin rifahına aşkar zərbə vurur*



**Azərbaycan hökuməti və Mərkəzi Bankın açıqlamalarına əsasən, 2026-cı ildə illik inflyasiyanın 3-4 faiz aralığında qərarlaşacağı proqnozlaşdırılır. Bu hədəf makroiqtisadi sabitliyin qorunması baxımından müsbət siqnal kimi dəyərləndirilsə də, inflyasiyanın strukturuna nəzər saldıqda daha mürəkkəb mənzərə ortaya çıxır. Xüsusən də hazırda 6,8 faiz səviyyəsində ölçülən ərzaq inflyasiyası və ekspertlərin gələn il üçün 5-6 faiz aralığında gözləntiləri ümumi inflyasiya hədəflərindən kənara çıxan risklərin mövcudluğunu göstərir.**

Keyfiyyət dəyişikliyi olmadan mal və xidmətlərin ümumi qiymət səviyyəsinin davamlı artması nəticəsində pulun alıcılıq qabiliyyətinin sürətlə aşağı düşməsi əhalinin gündəlik rifahına daha çox birbaşa təsir göstərir. Aşağı və orta gəlirli təbəqələrin xərclərində ərzağın payı daha yüksək olduğu üçün bu sahədəki bahalaşma sosial təsirləri də gücləndirir. Bu baxımdan, 2026-cı ildə ümumi inflyasiya 3-4 faiz səviyyəsində olsa belə, ərzaq qiymətlərinin daha yüksək artım tempi göstərməsi real alıcılıq qabiliyyətinin zəifləməsi riskini özündə saxlayır.

### Bahalaşmanın qarşısını necə almaq olar?

Ekspert qiymətləndirmələrinə görə, ərzaq inflyasiyasının nisbətən yüksək qalmasının başlıca səbəbi qiymətlərin sabitləşməsi üçün zəruri olan təməl əsasların tam formalaşmamasıdır. Bu əsaslar 2 əsas istiqamətdə cəmlənir:

***– yerli istehsalın məhdud artımı. Azərbaycanın aqrar potensialına baxmayaraq, bir sıra əsas ərzaq məhsulları üzrə daxili istehsal tələbatı tam qarşılamır. Nəticədə idxaldan asılılıq qalır və bu, beynəlxalq bazarlardakı qiymət dalğalanmalarını birbaşa daxili bazara ötürür. Logistika xərcləri, valyuta məzənnəsi riskləri və regional ticarət məhdudiyyətləri ərzaq qiymətlərində əlavə təzyiq yaradır.***

***– vergi və gömrük yükü. Ərzaq məhsullarının qiymətində vergi və rüsumların payı az deyil. Xüsusən də əlavə dəyər vergisinin (ƏDV) 18 faiz səviyyəsində qalması istehsalçıdan istehlakçıya qədər bütün zəncirdə qiymətləri yuxarı çəkir. Mütəxəssislər belə hesab edirlər ki, ƏDV-nin 10 faizə endirilməsi kimi addımlar qısa müddətdə qiymət artımlarını yumşalda, orta müddətdə isə bazarda rəqabəti gücləndirə bilər.***

Son illər ciddi nəzərə çarpan qlobal inflyasiya dalğası da bütün ölkələr, eləcə də respublikamız üçün ciddi çağırışlar yaradıb. Azərbaycanın bəzi qida məhsullarında idxaldan asılılığı bu təsirləri daha aydın hiss etdirib. Lakin ölkəmizin ərzaq təhlükəsizliyi sahəsində atdığı strateji addımlar – aqroparkların yaradılması, suvarma sistemlərinin yenilənməsi, subsidiya mexanizmlərinin təkmilləşdirilməsi, ehtiyatların artırılması və təchizat zəncirinin diversifikasiyası uzunmüddətli ərzaq dayanıqlığını gücləndirib.

Hazırda isə milli istehsalın artırılması, idxalın əvəzlənməsi və aqrar sahədə innovasiyaların tətbiqi istiqamətində ardıcıl siyasət yürüdülür. Nəticə etibarilə ölkəmizdə həm daxili bazarın sabitliyi reallaşdırılır, həm də respublikamızın gələcəkdə regional ərzaq mərkəzinə çevrilməsi üçün möhkəm təməl yaradılır. Bu baxımdan gələn il inflyasiya hədəflərinə nail olmaq və xüsusən də ərzaq qiymətlərində sabitliyi gerçəkləşdirmək məqsədilə yerli kənd təsərrüfatı istehsalının daha geniş miqyasda stimullaşdırılması, subsidiya və texniki dəstək mexanizmlərinin gücləndirilməsi qarşıya mühüm vəzifə kimi qoyulur.

Xatırladaq ki, son 5 ildə sadalanan istiqamətlərdə həyata keçirilən layihələr nəticəsində təkcə heyvandarlıq məhsulları üzrə istehsal dinamikasında müsbət meyillər müşahidə edilib. Belə ki, bu dövrdə ümumi ət istehsalı 11,6 faiz, o cümlədən mal əti istehsalı 6,8 faiz çoxalıb, quş əti istehsalı 24,1 faiz, yumurta istehsalı isə 14,8 faiz yüksəlib. Cari ilin ötən 9 ayında da bu artım tendensiyası davam etdirilib, ət istehsalında 1,2 faiz, süd istehsalında 0,3 faiz artıma nail olunub.

İdxal asılılığının əsas səbəbləri sırasında əhali artımı fonunda istehlakın genişlənməsi, məhsuldarlıq səviyyəsinin aşağı olması və kiçik təsərrüfatların emal və bazar infrastrukturlarına çıxış imkanlarının məhdudluğu qeyd edilməlidir. Buna görə də dövlət heyvandarlıq sektorunun inkişafının stimullaşdırılması məqsədilə sistemli dəstək mexanizmlərinin tətbiqinə önəm verir. 2021-2025-ci illərdə 25 min 615 baş iribuynuzlu və 8 mindən artıq xırdabuynuzlu damazlıq heyvanın alınmasına 89,8 milyon manat məbləğində güzəşt tətbiq edilməsi və 10 mindən artıq təsərrüfat subyektinə 128 milyon manatdan çox aşağıfaizli güzəştli kreditlər verilməsi də məhz bunun bariz ifadəsidir.

Ekspertlər bildirirlər ki, qiymət formalaşmasında şəffaflığın artırılması və rəqabət mühitinin gücləndirilməsi əsas şərtlərdən biridir. Bu isə güclü antiinhisar siyasəti, dövlət qurumlarının səmərəli nəzarəti, istehlakçıların maarifləndirilməsi, eləcə də rəqabətə mane olan kartelləşmənin (rəqabəti aradan qaldırmaqla daha yüksək mənfəət əldə etmək) qarşısının alınması ilə gerçəkləşir. Nəticədə bazarda ədalətli qiymətlər, istehlakçı rifahının artması, yeniliyin və səmərəliliyin təşviqi kimi müsbət nəticələr daha çox diqqət çəkir.

Ölkəmizdə 2026-cı ildə inflyasiya hədəflərinə nail olmaq və xüsusən də ərzaq qiymətlərində sabitliyi təmin etmək üçün zəruri duyulan addımlar sırasında aqrar sahənin logistika və saxlanma infrastrukturunun inkişafı xüsusi yer tutur. Bu, itkiləri azaltmaq üçün son dərəcə vacibdir, çünki sözügedən amil məhsulun fermadan bazara daha səmərəli çatdırılmasını gerçəkləşdirir, soyuducu anbarlar, müasir daşıma vasitələri və yaxşı yollar məhsulların xarab olmasının qarşısını alır, keyfiyyəti qoruyur, eləcə də kənd təsərrüfatı sektorunda itkiləri əhəmiyyətli dərəcədə azaldır.

Ekspertlər qeyd edirlər ki, son illər bu sahədə müəyyən layihələr reallaşdırılıb. Belə ki, təbii resursların məhdudluğu səbəbindən yerli fermerlər zəruri həcmdə və ya keyfiyyətdə, o cümlədən sərfəli qiymət şərtlərinə uyğun səviyyədə istehsal olunmayan ərzaq məhsullarının daha əlverişli şərtlərlə idxal edilərək ehtiyatlarının yaradılması və emalı məqsədilə ölkədə müvafiq saxlama infrastrukturu, eləcə də istehsal bazası yaradılıb.

Məsələn, kənd təsərrüfatı məhsulları üzrə bazar infrastrukturunun təkmilləşdirilməsi üçün son illər dövlət dəstəyi hesabına regionlarda 400 min ton tutumu olan soyuducu anbarlar, 1,9 milyon ton tutumu olan müasir taxıl elevatorları və digər logistika obyektləri qurulub. Bu istiqamətdə görülən işlərin sayəsində torpaq resurslarının məhdudluğu və təbii-iqlim şərtlərinin əlverişsizliyi səbəbindən yerli fermerlər tərəfindən zəruri həcmdə istehsal oluna bilməyən buğda, şəkər, bitki yağları və yem xammalı kimi məhsullar daha əlverişli şərtlərlə idxal olunaraq ehtiyatlar yaradılıb. Hazırda bu ehtiyatların formalaşdırılması prosesi dövlət-özəl tərəfdaşlığı mexanizminə əsaslanmaqla, ərzaq sektorunda fəaliyyət göstərən sahibkarlara dövlət tərəfindən müvafiq dəstəyin verilməsi hesabına həyata keçirilir.

Respublikada meliorasiya və suvarma layihələrinin həyata keçirilməsinin diqqətdə saxlanılması da kənd təsərrüfatının inkişafını sürətləndirib. Ölkədə yeni su ehtiyatlarının idarə olunması strategiyası qəbul edilib, çox sayda su kanalı yenilənib və alternativ suvarma üsullarının (damcı suvarma və s.) təşviqinə önəm verilib. Su resurslarının səmərəli istifadəsi də məhsuldarlığın artmasına səbəb olub.

Yerli toxumçuluğun inkişafı da yeni mərhələyə yüksəlib. Bu mərhələdə strateji əhəmiyyətli toxum sortlarının yerli istehsalı çoxalıb. Bununla da həm xarici asılılıq azalıb, həm də məhsulun adaptasiya qabiliyyəti güclənib. Sənaye heyvandarlıq və quşçuluq təsərrüfatları genişləndirilib. Protein tələbatını yerli istehsal hesabına gerçəkləşdirmək üçün yeni iri komplekslərin yaradılmasına başlanıb. Bu sahənin dirçəldilməsi ilə idxaldan asılılıq minimuma endirilib.

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən aqrar islahatlar bu gün kənd təsərrüfatının inkişafını daha da sürətləndirir və bu məqsədlə dövlət tərəfindən çox böyük dəstək layihələri gerçəkləşdirilir. Bunun nəticəsində fermerlərin həyat səviyyəsi getdikcə yüksəlir, aqrar sahənin dayanıqlı inkişafı təmin edilir.

### Vergi və cərimə məbləğləri də qiymətlərə təsirsiz ötüşmür

Son dövrlərdə respublikada vergi və cərimə məbləğlərinin artırılması, eləcə də əvvəlki illərdə tətbiq olunan bəzi güzəştlərin mərhələli şəkildə ləğv edilməsi gözləntiləri qiymət dinamikasına əlavə təzyiq yaradır. Fiskal (dövlət xəzinəsinə toplanan pullar, onların idarə olunması və vergi sistemləri) intizamın gücləndirilməsi büdcə dayanıqlığı baxımından zəruri olsa da, bu addımların inflyasiyaya təsiri diqqətlə qiymətləndirilməlidir. Çünki artan xərclər bir qayda olaraq, son qiymətlərə transfer olunur.

Gələn il üçün artıq indidən proqnozlaşdırılan istiqamətlərdən biri avtomobil qiymətlərinin kəskin bahalaşmasıdır. Vergi-gömrük güzəştlərinin məhdudlaşdırılması, ekoloji standartların sərtləşdirilməsi və idxal xərclərinin artması avtomobil bazarında qiymətlərin yüksəlməsini qaçılmaz edir. Bu isə təkcə nəqliyyat sektoruna deyil, logistik xərclər vasitəsilə ərzaq və digər istehlak mallarının qiymətlərinə də dolayı təsir göstərə bilər.

Mərkəzi Bankın inflyasiya hədəflənməsi çərçivəsində atdığı addımlar ümumi qiymət səviyyəsinin nəzarətdə saxlanılmasında mühüm rol oynayır. Lakin ərzaq inflyasiyası daha çox struktur və təklifyönlü amillərlə bağlı olduğu üçün təkcə faiz dərəcələri vasitəsilə bu sahədə sürətli nəticə əldə etmək çətindir. Bu baxımdan, pul-kredit siyasəti fiskal və aqrar siyasətlə daha sıx koordinasiya olunmalıdır.



Azərbaycanın inflyasiya və xüsusilə ərzaq qiymətləri ilə bağlı üzləşdiyi çağırışlar region ölkələri üçün də xarakterikdir. Lakin seçilən siyasət vasitələri və prioritetlər nəticələrdə ciddi fərqlər yaradır. Məsələn, Türkiyə nümunəsinə diqqət yetirək. Son illərdə qardaş ölkədə yüksək inflyasiya və ərzaq qiymətlərində kəskin artımlar, əsasən, pul-kredit siyasətinin gec reaksiya verməsi, eləcə də fiskal genişlənmə ilə əlaqələndirilir. Buna cavab olaraq hökumət bir sıra əsas ərzaq məhsulları üzrə ƏDV-ni minimum səviyyəyə endirib, bələdiyyə satış məntəqələri vasitəsilə ucuzlaşdırma mexanizmləri tətbiq edib. Bu addımlar qısamüddətli sosial təzyiqləri azaltsa da, istehsal və struktur problemlər həll olunmadığından qiymət sabitliyi davamlı xarakter almayıb.

Rusiya təcrübəsində isə sözügedən vəziyyət fərqlidir. Belə ki, bu ölkə ərzaq inflyasiyasına qarşı daha çox inzibati və ixrac məhdudiyyətlərinə əsaslanan yanaşma seçib. Ayrı-ayrı məhsullar üzrə ixrac rüsumlarının artırılması və qiymət tavanlarının tətbiqi daxili bazarda müvəqqəti rahatlıq yaratsa da, uzunmüddətli perspektivdə istehsalçıların marağını zəiflədib. Bu nümunə göstərir ki, inzibati müdaxilələr bazar mexanizmlərini əvəz etmir. Gürcüstan isə nisbətən liberal iqtisadi yanaşmanı qoruyaraq, ərzaq bazarında vergi yükünü aşağı səviyyədə saxlayır və idxal prosedurlarını sadələşdirir. Nəticədə, ölkə beynəlxalq qiymət dalğalanmalarına daha tez reaksiya versə də, daxili bazarda süni qiymət artımlarının qarşısı müəyyən qədər alınır. Bu model Azərbaycanda vergi-gömrük siyasətinin qiymətlərə təsirini yenidən nəzərdən keçirməyin vacibliyini önə çıxarır.

Qazaxıstan və Mərkəzi Asiya ölkələrində isə ərzaq inflyasiyası, əsasən, logistika xərcləri və idxal asılılığı ilə bağlıdır. Qazaxıstan dövlət ehtiyat fondu və intervensiya mexanizmləri vasitəsilə bazara müdaxilə edir, lakin paralel olaraq yerli istehsalın artırılmasını strateji hədəf kimi müəyyənləşdirir. Bu yanaşma orta müddətdə qiymət sabitliyinin daha dayanıqlı olmasına xidmət edir.

Region təcrübəsi göstərir ki, ərzaq inflyasiyasına qarşı ən səmərəli strategiya inzibati məhdudiyyətlər və ya təkcə monetar tədbirlər deyil, eyni zamanda, istehsalın genişləndirilməsi, vergi yükünün optimallaşdırılması və rəqabət mühitinin qorunmasıdır. Belə bir halda, ölkəmizdə 2026-cı ildə inflyasiya hədəflərinə nail olmaq və xüsusən də ərzaq qiymətlərində sabitliyi təmin etmək üçün bir sıra addımlar zəruri sayılır:

***– yerli kənd təsərrüfatı istehsalının stimullaşdırılması, subsidiya və texniki dəstək mexanizmlərinin daha səmərəli tətbiqi;***

***– ərzaq məhsulları üzrə vergi və gömrük yükünün azaldılması, xüsusən ƏDV dərəcəsinə yenidən baxılması;***

***– logistika və saxlanma infrastrukturunun inkişaf etdirilməsi ilə itkilərin azaldılması;***

***– qiymət formalaşmasında şəffaflığın artırılması və rəqabət mühitinin gücləndirilməsi.***

Azərbaycan kimi inkişaf etməkdə olan ölkələrdə ərzaq bazarlarındakı qlobal dəyişikliklərə daha həssas reaksiya nəzərə çarpır. Bu həssaslığın bir neçə səbəbi var. Əvvəla, bu gün Azərbaycanın bəzi strateji ərzaq məhsullarında idxaldan asılılığı 30-60 faiz arasında dəyişir. Xüsusilə taxıl, şəkər, bitki yağları və bəzi növ tərəvəzlər üzrə xarici tədarük həlledici rol oynayır. Beynəlxalq qiymətlər yüksəldikcə, idxal xərcləri də artır və bu, tədricən daxili pərakəndə bazara ötürülür.

Bu məsələdə daşınma və logistik xərclərin artması da, necə deyərlər, öz sözünü deyir. Belə ki, ölkəmizin coğrafi yerləşməsi əlverişli olsa da, idxal məhsullarının böyük hissəsi uzaq regionlardan gətirilir. Nəqliyyat xərclərinin artması da məhsulun son qiymətinə ciddi təsir göstərir.

Beləliklə, Hökumət və Mərkəzi Bankın 2026-cı il üçün 3-4 faiz inflyasiya hədəfi makroiqtisadi baxımdan real görünür. Lakin ərzaq inflyasiyasının daha yüksək səviyyədə davam etməsi ehtimalı sosial rifah və alıcılıq qabiliyyəti üçün əsas risk olaraq qalır. Bu risklərin azaldılması yalnız monetar tədbirlərlə (pul siyasəti layihələri) deyil, kompleks struktur islahatları, istehsalın genişləndirilməsi və vergi siyasətində balanslı yanaşma ilə mümkün ola bilər. Əks halda, statistik olaraq aşağı inflyasiya şəraitində belə, vətəndaşların gündəlik xərclərində bahalaşma davam edəcək.

***Vaqif BAYRAMOV***
***XQ***

### *Ekspert rəyi*



**Fikrət YUSİFOV,**
**iqtisad elmləri doktoru, professor**

İnflyasiyanı şərtləndirən əsas səbəblərdən biri beynəlxalq iqtisadi və maliyyə müstəvisində baş verən proseslərdir. Azərbaycan ərazisinin ölçülərinə, əhalisinin sayına və iqtisadiyyatının həcminə görə kiçik dövlətlər sırasında yer alsa da, ölkəmiz dünyanın iqtisadi və maliyyə müstəvisinin bir parçasıdır. Bu müstəvidə baş verən proseslərin bizdən yan ötməsi mümkün deyil.

Növbəti ildə də biz beynəlxalq iqtisadi və maliyyə müstəvisində baş verən proseslərin təsirlərini hiss edəcəyik. Bu gün dünyada diqqətçəkən siyasi hadisələr, Rusiyanın Ukraynaya qarşı yönələn müharibəsi, Yaxın Şərqdə İsrail, Fələstin və İran hərbi toqquşması, Suriya ətrafındakı hadisələr dünya iqtisadiyyatına, beynəlxalq maliyyə müstəvisindəki duruma və dünya ticarətinə ciddi təsir göstərir. Təbii ki, bu hadisələrin təsirləri bizim ölkəmizdən də yan keçmir. Dünya iqtisadiyyatında və beynəlxalq maliyyə müstəvisində baş verən mənfi tendensiyaların təsirlərinin minimallaşdırılması hər bir hökumətin ümdə vəzifəsi olmalı, bu təsirləri azaltmaq üçün qabaqlayıcı tədbirlər görülməlidir.

Azərbaycan neft ölkəsidir. Son 12 il ərzində hökumət iqtisadiyyatın şaxələndirilməsi istiqamətində bir çox layihələr həyata keçirib və yüksək nəticələr əldə edilib. Lakin reallıqlar onu göstərir ki, ümumi iqtisadiyyatda real sektorun payının artması hələ heç də iqtisadiyyatın tam şaxələndirilməsi anlamına gəlmir. Baxın, cari ilin 11 ayının yekunlarına görə, iqtisadiyyatımızın 70 faizdən çoxu real sektorun payına düşür. Lakin bu zaman ümumi ixracımızın 14 faizindən bir qədər çox hissəsi real sektorun payına düşür. Odur ki, biz bu problemin həllini diqqət mərkəzində saxlamalıyıq.

Əgər beynəlxalq iqtisadi və maliyyə müstəvisində baş verən neqativ proseslərdən maksimum sığortalanmaq istəyiriksə, ilk növbədə, yerli istehsal həcminin artırılması istiqamətində radikal addımlar atmalıyıq. Bu gün ölkəmiz yerli bazarın tələb etdiyi ərzaq məhsullarının az qala ¾ hissəsini idxal edir. Təbii ki, belə olan halda dünya ərzaq bazarında baş verən neqativ tendesiyaların Azərbaycandakı ərzaq bazarına təsirlərindən qaçmaq çətin olur.

İnflyasiya səviyyəsinin tənzimlənməsinin başlıca şərtlərindən digəri isə Rəqabət Məcəlləsinin bütün tələblərinin yerinə yetirilməsi, inhisarçılığın və ilk növbədə, ərzaq idxalı sahəsindəki monopoliyanın aradan qaldırılması ola bilər.

# Azərbaycan dilinin saflığına elmi baxış

**Azərbaycan dili xalqımızın tarixi varlığının, milli yaddaşının, düşüncə tərzinin və mədəni kimliyinin əsas dayağıdır. Dil yalnız gündəlik ünsiyyət vasitəsi deyil, xalqın keçmişini, dünyaya baxışını, inanc və dəyərlərini nəsildən-nəslə ötürən canlı yaddaşdır. Xalqın milli-mənəvi kimliyi məhz dil vasitəsilə qorunur və yaşadılır.**




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dil məsələsinə həsr etdiyi çıxışlarında, o cümlədən Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyində etdiyi çıxışında bu məsələyə xüsusi diqqət çəkərək vurğulamışdır ki, Azərbaycan dilinin qorunması təkcə filoloji məsələ deyil, milli varlıq məsələsidir. Prezidentin bu mövqeyi göstərir ki, dil siyasəti dövlətçilik düşüncəsinin ayrılmaz tərkib hissəsidir.

Prezident İlham Əliyevin çıxışlarında dəfələrlə qeyd olunduğu kimi, dil milli kimliyi müəyyən edən əsas amillərdən biridir. Bu fikir Azərbaycan dilinin yalnız müasir kommunikasiya vasitəsi kimi deyil, həm də tarixi-mənəvi dəyər kimi qorunmalı olduğunu ortaya qoyur.

Prezident İlham Əliyev AMEA-nın yubiley tədbirində çıxış edərkən açıq şəkildə bildirmişdir ki, "Azərbaycan dilinin saflığının qorunması bizim üçün ən vacib məsələlərdən biridir.

Bu fikir Azərbaycan dilinin qorunmasının təsadüfi və ya ikinci dərəcəli məsələ olmadığını göstərir. Burada söhbət yalnız yeni sözlərin qəbulundan və ya alınma terminlərdən getmir. Söhbət dilin daxili tarazlığının, milli ruhunun və tarixi qatlarının qorunmasından gedir.

Dilin saflığının qorunması aşağıdakı əsas istiqamətləri əhatə edir: ədəbi dil normalarının pozulmaması, dilə yad ünsürlərin nəzarətsiz şəkildə daxil olmasının qarşısının alınması, milli söz ehtiyatının qorunması və yaşadılması, dilin tarixi qatlarının müasir dildə unudulmaması.

**Ədəbi dil normalarının pozulmaması:** Bu prinsip dilin fonetik, leksik, qrammatik və üslubi qaydalarına əməl edilməsini nəzərdə tutur. Yəni sözlərin düzgün tələffüzü, yazılışı, cümlə quruluşu və yerində işlədilməsi qorunmalıdır. Ədəbi dil normalarının pozulması dilin sistemliliyini zəiflədir, ünsiyyətdə anlaşılmazlıq yaradır və dilin ictimai nüfuzuna xələl gətirir.

**Dilə yad ünsürlərin nəzarətsiz şəkildə daxil olmasının qarşısının alınması:** Bu, əsasən əsassız və ölçüsüz alınma sözlərin, xüsusilə də gündəlik danışıq və mediada ehtiyac olmadan işlədilən xarici mənşəli ifadələrin qarşısının alınması deməkdir. Alınma sözlər elmi və texnoloji zərurət olduqda qəbul edilə bilər, lakin mövcud milli qarşılıqlar varkən yad sözlərin işlədilməsi dilin leksik bütövlüyünü və milli simasını zəiflədir.

**Milli söz ehtiyatının qorunması və yaşadılması:** Bu prinsip dilin tarixi və milli yaddaşını daşıyan sözlərin qorunmasını nəzərdə tutur. Klassik ədəbiyyatda, folklorda və qədim yazılı abidələrdə işlənmiş sözlərin araşdırılması, müasir dildə uyğun kontekstlərdə istifadəsi milli dilin davamlılığını və canlılığını təmin edir. Milli söz ehtiyatının yaşadılması dilin özünəməxsusluğunu saxlayan əsas amillərdəndir.

**Dilin tarixi qatlarının müasir dildə unudulmaması:** Dil yalnız bugünün ünsiyyət vasitəsi deyil, həm də tarixi-mədəni təcrübənin daşıyıcısıdır. Arxaizmlər, qədim terminlər və tarixi leksika müasir dildən tamamilə çıxarıldıqda dilin dərin semantik və mədəni qatları itir. Bu səbəbdən dilin tarixi qatlarının elmi şəkildə öyrənilməsi və seçilmiş hallarda müasir dilə inteqrasiyası vacibdir.

Bu kontekstdə türk mənşəli arxaizmlər məsələsi xüsusi əhəmiyyət kəsb edir. Çünki bu sözlər dilimizin ən qədim və ən milli qatını təşkil edir. Bizim şöbəmizdə (Azərbaycan dili tarixi şöbəsində) "Türk mənşəli arxaizmlər lüğəti (XIII-XVIII əsrlər Azərbaycan yazılı abidələri əsasında)" üçcildliyi kollektiv əsəri tərtib olunmuşdur. Bu kimi lüğətlərdən məqsədyönlü şəkildə istifadə çox səmərəli ola bilər.

Türk mənşəli arxaizmlər çox zaman "köhnəlmiş sözlər" kimi qəbul edilir. Halbuki bu sözlər köhnəlmiş deyil, unutdurulmuş sözlərdir. Onlar Azərbaycan dilinin tarixini, xalqın düşüncə tərzini və sosial quruluşunu əks etdirən canlı leksik vahidlərdir.

Azərbaycan dilinin tarixi leksik qatında qorunub saxlanılan türk mənşəli arxaizmlər yalnız keçmişin dili deyil, eyni zamanda, müasir terminoloji ehtiyacların milli əsaslarla qarşılanması üçün mühüm mənbədir. Bu sözlər zamanla aktiv danışıqdan çıxsa da, semantik tutumunu və ifadə imkanlarını itirməmişdir. Onların müasir Azərbaycan dilində yenidən işlək hala gətirilməsi dilin saflığının qorunmasına, milli söz ehtiyatının bərpasına və alınma terminlərdən asılılığın azaldılmasına xidmət edə bilər.

Məsələn, "yazğu" sözü Aşıq Qurbaninin dilində "məktub" mənasında işlənmişdir. Bu söz yalnız yazılı mətn deyil, eyni zamanda, xəbər, məlumat daşıyan rəsmi və ya şəxsi müraciət anlamını ifadə edir. Aşıq Qurbani Şah İsmayıl Xətaiyə məktubunda yazır:

***Əziz başın üçün oxu yazğumu,***
***Agah ol halımdan gahbagah mənim.***

Müasir dildə "məktub" sözünün terminoloji yükünü tam qarşılayan bu leksik vahid türk mənşəli olması baxımından milli alternativ kimi dəyərləndirilə bilər. Bundan başqa, Aşıq Qurbani əlvan sözünün əvəzinə türk mənşəli "al-yaşıl" mürəkkəb leksik vahidini işlədir.

Eyni hal "sunmaq" feilinə də aiddir. XVIII–XIX əsrlərə qədər Azərbaycan dilində geniş işlənmiş bu türk mənşəli feil sonradan tədricən sıradan çıxarılaraq yerini ərəb mənşəli "təqdim etmək" feilinə vermişdir. Halbuki "sunmaq" feili "Dədə Qorqud" dastanından başlayaraq Qazi Bürhanəddin, İmadəddin Nəsimi, M.Zəririnin tərcümə əsərləri və XVIII əsr Şakir Şirvaninin dilində ardıcıl şəkildə müşahidə olunur. Bu feilin semantik imkanları müasir dildə də tam işləkdir və "təqdim etmək", "vermək", "irəli sürmək" mənalarını təbii şəkildə ifadə edir. Təqdimat – sunum.

Türk dövlətçilik və hüquq düşüncəsini əks etdirən "törə" sözü müasir "qanun" və "etik norma" anlayışlarının tarixi və milli qarşılığıdır. "Törə" yalnız hüquqi qayda deyil, həm də cəmiyyətin əxlaqi nizamını, davranış ölçülərini ifadə edən geniş mənalı anlayışdır. Bu sözün hüquqi və fəlsəfi mətnlərdə istifadəsi dilə milli konseptual çalar qazandıra bilər.

**"Ərən"** sözü XVII əsrə qədər Azərbaycan dilində işlənmiş və yalnız fiziki gücü olan igidi deyil, mənəvi kamilliyə çatmış, əxlaqi bütövlüyə malik insanı ifadə etmişdir. Bu söz xüsusilə sufi və fəlsəfi mətnlərdə dərin məna yükü daşıyır. Müasir dildə "şəxsiyyət", "kamil insan" anlayışlarının ifadəsində bu sözün işlədilməsi milli leksik ənənənin davamı baxımından əhəmiyyətlidir.

Eyni şəkildə **"bilgə"** sözü müasir "alim" və "müdrik" anlayışlarını birləşdirən geniş məzmunlu türk mənşəli leksik vahiddir. "Bilgə" anlayışı yalnız elmi bilik sahibi olmağı deyil, həm də həyat təcrübəsi, düşüncə dərinliyi və hikmət sahibi olmağı ifadə edir. Bu sözün elmi və publisistik üslubda işlədilməsi dilin ifadə imkanlarını zənginləşdirə bilər.

Arxaik leksikanın terminoloji potensialı inzibati və hərbi terminlərdə də açıq şəkildə görünür. Məsələn, bu gün işlədilən **"mühafizəçi"** sözünün türk mənşəli qarşılığı **"qorçu"**, **"mühafizə xidmətinin başçısı"** anlayışının qarşılığı isə **"qorçubaşı"** olmuşdur. Eyni şəkildə **"komendant"** anlayışı klassik mətnlərdə **"qalabəyi"** sözü ilə ifadə edilmişdir. Bu terminlər həm semantik baxımdan dəqiq, həm də milli dil ənənəsinə uyğun leksik vahidlərdir.

Elmi və ümumi dil üçün də bir sıra uğurlu milli qarşılıqlar mövcuddur. Məsələn, yuxarıda qeyd edildiyi kim, **"alim"** anlayışı üçün **"bilgə"**, **"elm"** üçün **"bilim"**, **"kitab"** üçün **"bitik"**, **"nəticə"** üçün **"sonuc"**, **"təcrübə"** üçün **"sınama"** və ya "sınaq", **"qanun"** üçün isə **"törə"** və ya **"yasaq"** sözləri işlədilə bilər. Bu sözlərin əksəriyyəti qədim türk yazılı abidələrində və klassik Azərbaycan ədəbiyyatında geniş şəkildə təsdiq olunmuşdur.

Bütün bunlar göstərir ki, türk mənşəli arxaizmlər dilin inkişafına mane olan köhnə elementlər deyil, əksinə, müasir Azərbaycan dilinin milli əsaslarla zənginləşdirilməsi üçün etibarlı mənbədir. Bu sözlərin elmi əsaslarla seçilərək terminoloji və ümumişlək dilə qaytarılması Azərbaycan dilinin saflığının qorunması baxımından real və perspektivli istiqamət kimi dəyərləndirilə bilər.

Bu sözlərin müasir Azərbaycan dilində, xüsusilə elmi, publisistik və mədəni mətnlərdə işlədilməsi dilin milli ruhunu gücləndirə bilər.

Prezident İlham Əliyev AMEA-nın 80 illik fəaliyyətini dəyərləndirərkən qeyd etmişdir ki, Akademiyanın Azərbaycan dilinin inkişafında xüsusi rolu vardır. Bu fikir dilçilik elminin üzərinə düşən məsuliyyəti açıq şəkildə ortaya qoyur.

Dilçilik yalnız mövcud normanı təsvir etməklə kifayətlənməməlidir. Dilçilik, eyni zamanda dilin tarixi qatlarını araşdırmalı, unudulan milli sözləri üzə çıxarmalı, bu sözlərin müasir dildə hansı sahələrdə işlədilə biləcəyini müəyyən etməlidir. Bu baxımdan türk mənşəli arxaizmlərin elmi şəkildə sistemləşdirilməsi və izahı dilin saflığının qorunmasına real töhfə verə bilər.

***Xədicə HEYDƏROVA,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

*Yusif SƏMƏDOĞLU – 90*

**AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, tanınmış ictimai xadim, Xalq yazıçısı Yusif Səmədoğlunun 90 illiyinə həsr olunan elmi sessiya keçirilib.**

# Milli ədəbiyyatın modern nasiri





Ədəbiyyat İnstitutunun və Azərbaycan Yazıçılar Birliyinin (AYB) birgə təşkilatçılığı ilə baş tutan sessiyada əvvəlcə görkəmli yazıçının həyat və fəaliyyətini əks etdirən sərgiyə baxış olub.

Mərasimi giriş sözü ilə açan akademik İsa Həbibbəyli elmi sessiyanın ölkə Prezidenti İlham Əliyevin "Yusif Səmədoğlunun 90 illiyinin qeyd edilməsi haqqında" 4 sentyabr 2025-ci il tarixli sərəncamına əsasən keçirildiyini bildirib.

Azərbaycan ədəbiyyatının özünəməxsus imzalarından biri, Səməd Vurğun ocağının genetik və ədəbi davamçılarından olan Yusif Səmədoğlunun yaradıcılığı barədə məlumat verən akademik İsa Həbibbəyli bildirib ki, dərin ictimai-mənəvi məzmunlu əsərləri, hekayə və romanları ilə ədəbi prosesdə iz qoymuş yazıçının ötən əsrin 60–70-ci illərində milli nəsrin keyfiyyətcə yeni mərhələyə keçməsində xüsusi xidmətləri var. Yusif Səmədoğlunun azsaylı, dərin məzmunlu hekayələri Azərbaycan ədəbiyyatının nadir nümunələri sayılmağa layiqdir.

Akademik İsa Həbibbəyli Yusif Səmədoğlunun Azərbaycanda yeni tipli ədəbiyyatın yaradılmasının aparıcı simalarından biri olduğunu qeyd edib. O, Yusif Səmədoğlunun yaradıcılığında "Qətl günü" romanının xususi yer tutduğunu vurğulayıb. AMEA rəhbəri parlaq mədəniyyət hadisəsinə çevrilən, dünya və insan haqqında məşhur "Qətl günü" romanının ədibə Azərbaycanın hüdudlarından uzaqlarda da şöhrət qazandırdığını söyləyib.

Ümummilli lider Heydər Əliyevin Xalq yazıçısı Yusif Səmədoğlunun yaradıcılığını daim diqqət mərkəzində saxladığını deyən AMEA rəhbəri Ulu öndərin yazıçının xəstəliyində onun müalicəsi ilə bağlı xüsusi göstəriş verdiyini və xəstəxanada Yusif Səmədoğlunu ziyarət etdiyini xatırladıb. Vurğulayıb ki, Yusif Səmədoğlunun 90 illiyi ilə bağlı imzalanmış müvafiq sərəncam Prezident İlham Əliyevin ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan Azərbaycan ədəbiyyat xadimlərinə hörmət və ehtiram ənənəsinin dövlət səviyyəsində ardıcıl şəkildə davam etdirməsinin bariz nümunəsidir.

"Azərbaycan bədii nəsrində magik realizm istiqamətli əsərləri sadalayarkən Yusif Səmədoğlunun "Qətl günü" və "Deyilənlər gəldi başa" romanları ağla gələn ilk əsərlərdəndir", – deyən akademik İsa Həbibbəyli yazıçının yaradıcılığında folklor, mif, tənhalıq və buna bənzər magik realizmlə bağlı məsələlərin ön planda dayandığını bildirib.

AMEA rəhbəri Yusif Səmədoğlunu XX əsr Azərbaycan nəsrinin yetirdiyi nadir istedada malik böyük simalardan biri kimi xarakterizə edib, onun müstəqillik uğrunda mübarizədə vətəndaş-ziyalı mövqeyi ilə seçildiyini diqqətə çatdırıb.

Sonra AYB-nin sədri, Xalq yazıçısı Anar çıxış edərək görkəmli yazıçının Azərbaycan ədəbiyyatında xidmətlərindən, yaradıcılıq xüsusiyyətlərindən bəhs edib. Qeyd olunub ki, Yusif Səmədoğlu XX əsr Azərbaycan ziyalılığının ən ali keyfiyyətlərini öz şəxsiyyətində daşıyan, mənsub olduğu böyük bir nəsli təmsil edən istedadlı insan olub. O, həyatı boyu həm ədəbi, həm də ictimai-siyasi fəaliyyətində azərbaycançılıq mövqeyində durub, azadlıq, demokratiya, müstəqillik duyğusu ilə yaşayıb.

Xalq yazıçısı Anar Yusif Səmədoğlunun ilk irihəcmli "Qətl günü" romanını Azərbaycan ədəbiyyatının şah əsəri kimi dəyərləndirib. O, görkəmli yazıçı ilə birgə səfərlərindən, unudulmaz görüşlərindən, dostluq münasibətlərindən bəhs edib, onunla bağlı xatirələrini bölüşüb.

Daha sonra şair-publisist Azad Yaşar "Azərbaycan" jurnalının baş redaktoru İntiqam Qasımzadənin "Yusif Səmədoğlu şəxsiyyəti xatirələr işığında" adlı məruzəsini təqdim edib.

Elmi sessiyada filologiya elmləri doktoru Vaqif Yusiflinin "Qətl günü"ndən əvvəl – hekayələri", filologiya üzrə fəlsəfə doktoru, dosent Nərgiz Cabbarlının "Azərbaycan romanının təkamül prosesində "Qətl günü" əsərinin rolu", filologiya elmləri doktoru Cavanşir Yusiflinin "Yusif Səmədoğlu mətninin poetikası", filologiya üzrə fəlsəfə doktoru, dosent Aygün Bağırlının "Gündəliklərdən görünən Yusif Səmədoğlu" və filologiya üzrə fəlsəfə doktoru Südabə Ağabalayevanın "Yusif Səmədoğlu yaradıcılığı milli yaddaş kontekstində" adlı məruzələri dinlənilib.

Mərasimdə, həmçinin filologiya elmləri doktoru Bahar Bərdəli görkəmli yazıçı ilə bağlı xatirələrini bölüşüb.

***Qabil YUSİFOĞLU***
***XQ***

# Tibb alimimiz Gürcüstan konfransında



**Tbilisi şəhərində Gürcüstan Reproduktiv Endokrinologiya Assosiasiyasının təşkilatçılığı ilə "Kliniki ginekologiyanın və urologiyanın müasir nailiyyətləri" mövzusunda çoxprofilli konfrans keçirilib. Məclisdə "Doğuşdan sonrakı kompleks reabilitasiyada estetik ginekologiyanın rolu" ilə bağlı yeni təcrübələr müzakirə olunub.**

Konfransda ölkəmizi Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunun professoru Fatma Hacıyeva təmsil edib. O, elmi toplantıda "Estetik ginekologiyada müasir metodların istifadəsinin imkanları" mövzusunda çıxış edib.

Gürcüstan Reproduktiv Endokrinologiya Assosiasiyasının rəhbəri akademik Georgi Tevdoraşvili professor Fatma Hacıyevanın elmi yaradıcılığını yüksək qiymətləndirərək toplantıya qatıldığına görə ona təşəkkürünü bildirib: "Mən bu gün sizə Azərbaycanı təmsil edən professor Fatma Hacıyevanı təqdim etmək istəyirəm. O, əslən gürcüstanlıdır və ölkəmizi hədsiz dərəcədə sevən xanımdır. Onun çoxlu sayda əsərləri və monoqrafiyaları artıq tibb elminə öz töhfələrini verməkdədir. Mənə öz monoqrafiyasının gürcü dilində tərcüməsini təqdim edəndə çox təsirləndim və heyran oldum, çünki bu, onun gürcü xalqına, gürcü tibb elminə və xalqımıza olan yüksək sevgisinin təzahürüdür".

Sonda elmi müzakirələr plenar iclaslarda davam edib.

***P.ƏMİRCANOV***
***XQ***

# "Gəl, qoşulaq durnalara"

## *Xalq yazıçısının şeirlər kitabı*

**"Zərdabi nəşr" MMC Xalq yazıçısı, Azərbaycan Yazıçılar Birliyinin sədri Anarın "Gəl, qoşulaq durnalara" şeir toplusunu Azərbaycan və rus dillərində nəşr edib. Kitabda müəllifin müxtəlif illərdə yazdığı şeirləri və "Anara 40 sual" silsilə müsahibəsi toplanıb.**




İnsan ömrünün mənası, zamanın keçiciliyi, Vətən həsrəti, qürbət nisgili kimi fəlsəfi mövzulara həsr olunmuş, müəllifin qələm dostları və yaxınlarına, bir sıra görkəmli ədəbiyyat adamlarına ithaf etdiyi, ənənəvi və modern üslubda yazdığı bu şeirlər, ədəbi prosesə işıq salan aktual müsahibə rus dilində ilk dəfə işıq üzü görür.

Nəsrin ideya müəllifi Azərbaycan Yazıçılar Birliyi Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin sədri Əsəd Cahangir, redaktoru Dürdanə Hüseynova, rus dilinə tərcüməçiləri Alina Talıbova, Leyla Əliyeva, Fikrət Kazımov və Nərminə Nəbiyevadır.

***XQ***

# TƏBİB-in illik açıqlaması

**Dekabrın 19-da TƏBİB-in keçirdiyi brifinqdə 2025-ci ilin yekunları və qarşıdakı dövr üçün planlar açıqlandı. Toplantıda 2025-ci il ərzində səhiyyə xidmətlərinin təşkili və idarə olunması sahəsində görülən işlər, əldə olunan əsas nailiyyətlər, həyata keçirilən islahatların nəticələri barədə ətraflı məlumat verildi, səhiyyə xidmətlərinin keyfiyyətinin artırılmasına yönəlmiş layihələr diqqətə çatdırıldı.**

TƏBİB-in icraçı direktoru Vüqar Qurbanov bildirdi ki, cari ilin yanvar-noyabr ayları ərzində qurumun tabeliyində fəaliyyət göstərən tibb müəssisələrində əhaliyə göstərilən tibbi xidmətlərin həcmi əvvəlki illərlə müqayisədə əhəmiyyətli dərəcədə artıb. Ümumilikdə, 85 milyon 637 min 469 tibbi xidmət göstərilib. Bu göstərici 2024-cü illə müqayisədə 13 faiz artım deməkdir.

İcraçı direktor qeyd etdi ki, il ərzində TƏBİB tabeli tibb müəssisələrində ana ölümü sayı 22 olub, sevindirici haldır ki, 101 kritik ağır hal isə tibb personalının səyi nəticəsində ölümlə nəticələnməyib. Təhlillər göstərir ki, 22 ana ölümündən 16-sı bilavasitə doğuş və doğuşdan sonrakı dövrlə birbaşa bağlı olan səbəblərdən, 6-sı isə ekstragenital səbəblərdən baş verib. Uşaq ölümlərinin sayı isə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 30 faiz azalaraq 751-ə enib.

Vüqar Qurbanovun sözlərinə görə, ölkəmizdə icbari tibbi sığortanın tətbiqi səhiyyə sisteminin maliyyələşmə, idarəetmə və xidmət keyfiyyəti baxımından yeni mərhələyə keçidini təmin edib. Ötən ilin qeyd edilən dövrü ilə müqayisədə icra olunmuş tibbi xidmətlərin sayında 17 faiz, məbləğində isə 7 faiz artım müşahidə olunub.

Daha bir yenilik isə təcili tibbi yardım xidmətinin rəqəmsallaşdırılması üçün platforma yaradılmasıdır. Artıq layihə çərçivəsində çağırışların qəbulu, yönləndirilməsi və briqadaların idarə olunması üçün vahid elektron platformanın yaradılması üzrə işlərə başlanılıb. Eləcə də peyk naviqasiyası üzərindən həyata keçirilən izləmə sistemi əsaslı mexanizmlər, xəritə üzərindən real vaxt idarəetmə, briqadaların yüklülüyünün avtomatik hesablanması və operativ marşrutlaşdırma kimi imkanların tətbiqi ilə bağlı funksionallıqların yaradılması üzrə işlər hazırda davam etdirilir. Məlumat axınının tam elektronlaşdırılması gələcəkdə həm çağırışların emal sürətini artırmağa, həm də xidmətin şəffaflığının yüksəldilməsinə gətirib çıxaracaq. Bu rəqəmsal sistem təcili tibbi yardıma olan çağırışlara daha çevik reaksiya verilməsinə imkan yaradaraq institusional idarəetməni müasir standartlara uyğunlaşdırmaqda mühüm rol oynayacaq.

Məclisin davamında 2026-cı ildə səhiyyə sisteminin daha keyfiyyətli, əlçatan və dayanıqlı qurulmasına yönəlmiş aydın strateji hədəflərdən danışıldı. İcraçı direktor vurğuladı ki, klinik protokolların icrası gücləndiriləcək, ana və uşaq sağlamlığı üzrə risklərin azaldılması, infeksiyaların və ağırlaşmaların minimuma endirilməsi diqqət mərkəzində saxlanılacaq. Səhiyyə xidmətlərinin idarə olunması nəticəyönümlü keyfiyyət indikatorları əsasında aparılacaq. Eyni zamanda, ilkin səhiyyənin və profilaktik yanaşmaların gücləndirilməsi davam etdiriləcək. Ailə həkimliyi və ilkin tibbi-sanitariya yardımının rolu artırılacaq, erkən müraciətlərin təşviqi, skrininq proqramlarının genişləndirilməsi və risk qrupları üzrə nəzarətin gücləndirilməsi əsas istiqamətlərdən biri olacaq.

İxtisaslaşmış tibbi xidmətlərin regionlarda əlçatan olması davam etdiriləcək, kadr çatışmazlığının azaldılması üçün məqsədyönlü tədbirlər görüləcək. Bununla paralel olaraq, infrastrukturun və maddi-texniki bazanın modernləşdirilməsi, əsaslı təmir və yenidənqurma işləri, modul tipli tibb obyektlərinin tətbiqi və avadanlıqların mərhələli yenilənməsi davam etdiriləcək.

Daha sonra media nümayəndələrinin sualları cavablandırıldı.

Vüqar Qurbanov "Xalq qəzeti"nin əməkdaşının xəstəxanalarda elektron qeydiyyat sistemlərində yaranan texniki nasazlıqlar nəticəsində baş verən xoşagəlməz hallar — qəbul və qeydiyyat prosesinin ləngiməsi, təcili tibbi yardım maşınlarının yönləndirilməsində gecikmələr, eləcə də həkimlərin işində yaranan çətinliklərlə bağlı sualına cavabında bildirdi:

– Ölkədə həyata keçirilən dövlət siyasətinə uyğun olaraq bütün icraedici qurumlar xidmət sektorunun təkmilləşdirilməsi və rəqəmsallaşdırılması istiqamətində ciddi addımlar atırlar. TƏBİB-in tabeliyində fəaliyyət göstərən səhiyyə müəssisələrində də əsas hədəf bütün xidmət proseslərinin elektronlaşdırılması və bu sistemlərin digər dövlət qurumları ilə inteqrasiyasının təmin edilməsidir.

Məqsədimiz 2027-ci ilə qədər qurumun tabeliyində olan bütün müəssisələrdə xidmət sektorunun tam şəkildə elektron mühitə keçirilməsidir. Bununla yanaşı, etiraf etməliyik ki, cari il ərzində elektron sistemlərdə müəyyən çökmə və texniki nasazlıq halları qeydə alınıb.

Nəzərə almaq lazımdır ki, TƏBİB-in tabeliyində olan hər bir səhiyyə müəssisəsinə gün ərzində orta hesabla 1500–2000 müraciət daxil olur. Böyük tibb müəssisələrində isə bu göstərici saatlıq intensivlik baxımından daha yüksək olur və bəzi hallarda eyni vaxtda 100-dən artıq müraciətin emalı tələb olunur. Bu da elektron sistemlər üzərində ciddi yük yaradır. Eyni zamanda, mövcud platformalar digər dövlət qurumlarının informasiya sistemləri ilə inteqrasiya olunduğundan həmin qurumlarda yaranan texniki problemlər bizim sistemlərə də təsir göstərə bilir.

Hazırda TƏBİB-in elektron sistemi digər dövlət qurumlarının platformaları ilə inteqrasiya olunmuş şəkildə fəaliyyət göstərir. Bu o deməkdir ki, bizim sistemimiz həm məlumatları digər qurumlardan alır, həm də öz məlumatlarımızı onlara ötürür. Buna görə də bəzi hallarda xidmət prosesində yaranan texniki çətinliklərin əsas səbəbi yalnız TƏBİB-in fəaliyyəti ilə bağlı olmur. Digər qurumların sistemlərində baş verən nasazlıqlar da bizim platformaya təsir göstərə bilər.

Bununla belə, TƏBİB öz səlahiyyətləri daxilində texniki nasazlıqların aradan qaldırılması və xidmətlərin davamlılığının təmin olunması istiqamətində müvafiq tədbirləri davam etdirir.

*Fidan ƏLİYEVA*
*XQ*






# Məhkəmə-Hüquq Şurasının heyəti Albaniyada

**Məhkəmə-Hüquq Şurasının üzvü – Bakı Apellyasiya Məhkəməsinin sədri Mübariz Əkbərovun rəhbərlik etdiyi hakimlər və Məhkəmə-Hüquq Şurası Aparatının nümayəndələrindən ibarət heyət Albaniya Respublikasının Tirana şəhərində təşkil olunmuş təcrübə səfərində iştirak edib.**



Səfərin əsas məqsədi Albaniya Respublikası Ali Məhkəmə Şurasının fəaliyyət istiqamətləri, təşkili və məhkəmə idarəetməsi sahəsində tətbiq olunan praktika ilə yaxından tanış olmaq, habelə qarşılıqlı maraq doğuran məsələlər üzrə bilik və qabaqcıl təcrübə mübadiləsini həyata keçirmək olub.

Səfər proqramı çərçivəsində Albaniya Respublikası Ali Məhkəmə Şurasının sədri və üzvləri ilə keçirilən görüş zamanı Albaniyada məhkəmə sisteminin təşkilati quruluşu, məhkəmə idarəetməsi, hakimlərin fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi, vakant hakim vəzifələrinə namizədlərin seçilməsi və təyin edilməsi prosedurları, habelə elektron məhkəmə sisteminin tətbiqi istiqamətində həyata keçirilən islahatlar və qabaqcıl təcrübələr barədə nümayəndə heyətinə ətraflı məlumat verilib, bu sahələr üzrə geniş və məhsuldar fikir mübadiləsi aparılıb.

Daha sonra Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurası Aparatının nümayəndəsi tərəfindən Məhkəmə-Hüquq Şurasının statusu və funksiyaları, Azərbaycan Respublikasının məhkəmə sistemi, məhkəmə müstəqilliyinin təmin edilməsi istiqamətində son dövrdə həyata keçirilmiş islahatlar, eləcə də "Elektron məhkəmə" informasiya sisteminin imkanları mövzularında təqdimatla çıxış edilib.

Nümayəndə heyəti həmçinin Korrupsiya və Mütəşəkkil Cinayətkarlıq üzrə İxtisaslaşmış birinci instansiya və apellyasiya instansiyası məhkəmələrində, Tirana İnzibati Məhkəməsində, İnzibati Apellyasiya Məhkəməsində, Tirana Ümumi Yurisdiksiya üzrə Şəhər Məhkəməsində və Tirana Ümumi Yurisdiksiya üzrə Apellyasiya Məhkəməsində olub.

*XQ*

# Mingəçevir və Ankara ali məktəblərinin əməkdaşlığı



**Mingəçevir Dövlət Universiteti ilə Türkiyə əməkdaşlığı müəssisələrindən biri olan Orta Doğu Teknik Universiteti arasında beynəlxalq əməkdaşlığın genişləndirilməsinə xidmət edən Anlaşma Memorandumu imzalanıb. Bu münasibətlə MDU-nun rektoru Anar Eminovun rəhbərlik etdiyi nümayəndə heyəti Ankarada səfərdə olub.**

Qonaqların ODTU-nun rektor Əhmət Yozqatlıgil ilə görüşündə tərəflər ali təhsil sahəsində mövcud çağırışlar, qlobal akademik trendlər, universitetlərarası əməkdaşlığın yeni modelləri və qarşılıqlı maraq doğuran istiqamətlər ətrafında geniş fikir mübadiləsi aparıblar.

Əhmət Yozqatlıgil universitetlərarası əməkdaşlığın elmin qlobal səviyyədə inkişafı və innovativ biliklərin paylaşımı baxımından mühüm rol oynadığını qeyd edərək imzalanan Anlaşma Memorandumunun Azərbaycan–Türkiyə ali təhsil əlaqələrinin daha da möhkəmlənməsinə xidmət edəcəyini bildirib. MDU-nun rektoru Anar Eminov rəhbərlik etdiyi ali təhsil müəssisəsinin keçirdiyi beynəlxalq əlaqələrinə toxunaraq bildirib ki, universitetdə elm və tədqiqatda dayanıqlı inkişafı prioritet istiqamət kimi müəyyənləşdirilib. O, ODTU kimi beynəlxalq səviyyədə tanınan elmi-tədqiqat universiteti ilə əməkdaşlığın MDU-nun akademik potensialının güclənməsinə, birgə elmi layihələrin icrasına, eləcə də tələbə və müəllim heyəti üçün yeni beynəlxalq imkanların yaranmasına mühüm töhfə verəcəyinə əminliyini ifadə edib.

Memoranduma əsasən, əməkdaşlıq akademik və tələbə-müəllim mübadiləsinin həyata keçirilməsi, birgə elmi-tədqiqat layihələrinin icrası, akademik proqramların həyata keçirilməsi kimi məsələləri əhatə edir.

*İlqar HƏSƏNOV,*
*XQ-nin bölgə müxbiri*

*Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu – 90*

**Heydər Əliyev Mərkəzi və Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun təşkilatçılığı ilə dekabrın 19-da bu yüksək tibb təhsili mərkəzinin 90 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfrans öz işinə başlayıb.**

# Nüfuzlu tibbi hazırlıq mərkəzi



Məclis ölkəmizin diplomdan sonrakı tibb təhsilinin inkişafında mühüm rol oynamış səhiyyə ocağının zəngin tarixinə, elmi-tədris fəaliyyətinə və müasir nailiyyətlərinə həsr edilib.

Heydər Əliyev Mərkəzində keçirilən konfransın açılış mərasimində Səhiyyə Nazirliyinin və Milli Məclisin Səhiyyə komitəsinin rəhbər şəxsləri, eləcə də yerli və xarici ali tibb təhsili müəssisələrinin rəhbərləri, nüfuzlu alimlər və səhiyyə ictimaiyyətinin nümayəndələri iştirak edirlər.

Məclisin əvvəlində səhiyyə naziri Teymur Musayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yubilyar kollektivə və konqres iştirakçılarına ünvanlandığı müraciəti səsləndirib.

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov isə qeyd edib ki, ADHTİ-nin 90 illik fəaliyyəti Azərbaycanın səhiyyə tarixinin çox mühüm bir hissəsidir. Onun sözlərinə görə, institutda çalışan alimlər, həkimlər, müəllimlər Azərbaycan tibb elminin inkişafına mühüm töhfələr verib.

ADHTİ-nin rektoru Nazim Pənahov Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən institut əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsini kollektivin fəaliyyətinə verilən yüksək qiymət kimi dəyərləndirərək dövlət başçısına minnətdarlığını bildirib.

Rektor institutun yaradılması tarixi və keçdiyi şərəfli yol barədə məlumat verib. Qeyd olunub ki, institutun tarixinin bir çox şanlı səhifələri görkəmli dövlət xadimi və unudulmaz səhiyyə təşkilatçısı Əziz Məmmədkərim oğlu Əliyevin adı ilə bağlıdır. Məhz buna görə 1962-ci ildə instituta onun adı verilib.



İki gün davam edən konfrans çərçivəsində tibbin müxtəlif sahələrinin aktual problemlərinə həsr olunmuş 2 plenar iclas və 5 elmi panel təşkil ediləcək. Məclisdə Türkiyə, Böyük Britaniya, Özbəkistan, Rusiya, Gürcüstan, İran, Danimarka, Almaniya və digər ölkələrdən olan mütəxəssislər də məruzələrlə çıxış edib, tibb elminin son nailiyyətləri və müasir yanaşmalar ətrafında geniş müzakirələr aparıblar.

*XQ*

# Görkəmli akademikin videosalnaməsi

**Bakı şəhər M.Ş.Vazeh adına Mərkəzi Kitabxanası böyük kimyaçı-alim, akademik Yusuf Məmmədəliyevin 120 illik yubileyi ilə əlaqədar "Elmə həsr olunmuş ömür" və "Tarixə yazılan ömür" adlı videoçarxlar hazırlayıb.**



Videoçarxlarda ulu öndər Heydər Əliyevin, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın dünya şöhrətli kimyaçı-alim Yusuf Məmmədəliyev haqqında sitatları verilib.

"Elmə həsr olunmuş ömür" adlı 1-ci videoçarxda akademikin elmi fəaliyyəti, dünya neft-kimya sənayesinin tarixinə qızıl hərflərlə yazılan ixtiraları haqqında məlumat verilir. Qeyd olunur ki, Azərbaycan neft-kimya sənayesinin əsasını qoyan alim neftin və neft qazlarının katalitik emalı sahəsinə əvəzolunmaz töhfələr vermiş, İkinci Dünya müharibəsi illərində "Molotov kokteyli" və yüksək oktanlı benzin icad etmişdir. Videoçarxda akademik Y.Məmmədəliyevin Azərbaycan SSR Elmlər Akademiyasının təsisçilərindən biri olduğu, 1947-1950 və 1958-1961-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyasının prezidenti seçilməsi haqqında izləyicilərə məlumat verilir.

"Tarixə yazılan ömür" adlı videoçarxda isə bildirilir ki, Yusif Məmmədəliyev Azərbaycanda müxtəlif elm sahələrinin inkişafına yorulmadan xidmət etmiş, onların dünya elm məkanına çıxmasına dəstək olmuş, alim və tələbələrə qayğı göstərmiş, Azərbaycan dilinə böyük önəm vermişdir. Böyük alimimiz XX əsrin 30-cu illərində repressiyalara uğramış dövlət xadimlərinin övladlarını Elmlər Akademiyasında və Bakı Dövlət Universitetində işlə təmin etmişdir. Videoçarxda alimin xatirəsinin əbədiləşdirilməsi və onun təltifləri də göstərilir.

Birici videoçarx böyük alim Yusuf Məmmədəliyevin ən çox sevdiyi dünya şöhrətli Xalq artisti Bülbülün və tanınmış opera müğənnisi Azər Rzazadənin ifalarında Asəf Zeynallının "Ölkəm" mahnısı ilə, ikinci videoçarx isə dahi bəstəkar, Xalq artisti Üzeyir Hacıbəylinin "Koroğlu" operasının uvertürası və Müslüm Maqomayevin "Şah İsmayıl" operasından bir parça ilə müşayiət olunur.

*XQ*

*I Türkoloji Qurultay – 100*

# 100 il əvvəldən gələn səslər

## *Ən maraqlı məruzələrin icmalı və şərhi*



**(əvvəli qəzetimizin 9, 11 və 18 dekabr 2025-ci il saylarında)**

**Sergey İvanoviç Rudenko "Türk tayfalarının etnoqrafiyasının öyrənilməsinin müasir vəziyyəti və yaxın vəzifələri"** mövzusunda məruzəsində bildirir ki, Türk – müxtəlif türk dili dialektlərində danışan xalqlar qrupuna verilən addır. Müxtəlif etnik qrupların birliyi kimi türk dünyasından yalnız dilçilik baxımından danışmaq olar. Şübhəsiz ki, dil əsas sosial faktordur və müxtəlif irqə və dillərə mənsub xalq bir mədəni ortamda yaşaya bilər. Bu mənada türklərin yaşadığı coğrafi areal, tipik cizgiləri və məişət xüsusiyyətləri haqqında sual bir qədər qəribə görünə bilər. Aralıq dənizindən cənub-qərbindən Uzaq Şərqin şimal-şərqinə, Tyan-Şan və Pamir dağlarının cənub-şərqindən Volqaboyunun şimal-qərbinə kimi türk dilinin müxtəlif dialektlərində danışan xalqlar məskunlaşıb. Türklərə xas fiziki tip haqqında danışa bilərik: ortaboylu, yaxud bir qədər bəstə; piqmentlənmiş saç və gözlər, tünd dəri rəngi, orta-geniş üz ovalı, kəskin çıxıntılı düz burun, kifayət qədər nəzərəçarpan yanaq sümükləri, bədənin zəif inkişaf etmiş tük örtüyü, kişilərdə əsasən yanaq hissədə – bütün bunlar türk tipi üçün xarakterikdir.

Bu tip qədim köçəri məzarlıqlarında rast gəlinən və qazax-qırğızlar arasında, türklərin məskunlaşma mərkəzində daha aydın müşahidə olunur. Bir qədər şimal-şərqə – Altay və Minusinski keçdikdə monqol və tunquz qarışığından yaranan soyot və yakutlarda tip dəyişikliyi görürük: intensiv piqmentasiya, tük örtüyünün reduksiyası, yanaq sümüklərinin qabarıqlığı, burun sümüyünün zəif inkişafı və üst göz qapaqlarının qatlanması və s. tipik xüsusiyyətlərdir. Qeyd edilən mərkəzdən qərbə və şimal-qərbə doğru hərəkət etdikcə, əsas tip bir qədər fərqli istiqamətdə dəyişir – bu dəyişiklikləri biz başqırdlarda, daha sonra Volqa tatarlarında müşahidə edirik: piqmentasiya nəzərəçarpacaq dərəcədə zəifləyir, boy göstəricisi dəyişmir, ümumiyyətlə, fin elementləri aşkar müşahidə olunur.

Cənub-şərqdəki türklər – özbəklər noqaylar kimi boylarının bir qədər hündür, tük örtüyünün daha qalın olması ilə türkmənlər tamamilə fiziki baxımdan digər türklərdən fərqlənirlər. Cənub-şərq türkləri arasında özbəklər – bizim müəyyənləşdirdiyimiz türk tipindən bir qədər hündür boya doğru meyillilik, tüklənmənin daha güclü olması və bəzi digər xüsusiyyətlər baxımından müəyyən sapmalar göstərsələr də, qərbdəki noqaylar kimi müəyyən dərəcədə türk tipinin daşıyıcılarıdır. Lakin türkmənlər artıq öz fiziki tiplərinə görə digər türklərdən xeyli dərəcədə fərqlənirlər. İran elementlərinin üstünlük təşkil etdiyi müşahidə olunur – bu xüsusiyyətlər azərbaycanlılar üçün də xarakterikdir: boy, baş forması, tük örtüyü kürdlər və farslarla eyni antropoloji qrupa aid olduğuna dəlalət edir. Qərbi Anadolu və Balkan türklərində isə türk tipini müəyyənləşdirmək daha dəqiq təhlil tələb edir.

Mövcud faktlar əsasında dəmirçilik və zərgərliyin qədim türk sənəti olduğunu söyləməyə əsas verir. Xüsusi üslub və texnika ilə hazırlanan türk qadınlarına məxsus zinət əşyaları da fərqlidir. Geyim ilə əlaqədar daha maraqlı faktlar var; material müxtəlifliyi, tipi və tikilişi ümuni cizgilər ilə seçilir. Bu baxımdan, türklər geyim üçün əsasən tük, dəri, keçə və yundan istifadə edirlər. Dəri və kürkün emalı texnikasına nəzər saldıqda, çoxsaylı türklər arasında oxşarlıq müşahidə olunur. Şübhəsiz ki, fərqlilik üçün digər xarici geyim ünsürlərindən də istifadə edilmişdir.

Türk məişətindən danışarkən ilk növbədə onların qədim köçəri tayfa olduqlarını qeyd etməliyik. Təsərrüfatlarında mühüm yer tutan mal-qara və qoyunçuluq olsa da, zənginlik, rifah at sürüsü ilə müəyyən edilir. At türk tayfalarının həyatında (köçəri həyat tərzi, geniş coğrafi areal, qidalanma, geyim, məişət və s.) əsas amildir. Qədim türk tayfalarının mifoloji təfəkküründə kult olaraq yaşamaqdadır.

Atlı köçərilər qədimdən uzun, ön hissədən yarıqlı, çiyindən keçirmə üst geyimi, enli şalvar (şarovar), qısaboğazlı və isti ayaqqabı, dərin və hündür papaq geyinirdilər. Ümumiyyətlə uzun, ətəkli, uzunqol, lakin dar qollu kaftan, kürk tipik türk geyimləri sayılır və bu geyim növü həm qadınlar, həm də kişilər üçün səviyyəvidir. Bu gün də rast gəldiyimiz geniş və bir qədər uzun (dizdən bir qədər aşağı) yaxalığı iplə bağlana bilən və qurşaq taxılmayan köynəklərin tarixi daha qədimdir.

Qidalanma, yemək hazırlanması türk mədəniyyətinin dəyişməz elementi olsa da, özünəməxsusluğu ilə seçilir. Kumıs, türklərə məxsus tipik türk içkisidir. Bu gün də türklər arasında geniş yayılmış saç qırxılması İslam ilə əlaqədar olub cənubdan keçmiş bir adətdir. Həmçinin başı örtmək üçün istifadə olunan yarımdairə formalı papaqlarla yanaşı kürk, keçə, dəri materiallarından hazırlanmış qulaqları örtən baş örtükləri də maraq doğurur. Bu qədim baş örtüyü bu gün də özəlliyini saxlamaqdadır, bunları hər yerdə, fərqli variantlarda müşahidə edirik.

Biz tədricən qərb və şimal-qərbə doğru istiqamət götürdükcə, fin təsirini çuvaşların həyat tərzindəki geriləyən türk elementlərində daha aydın görə bilərik. Özbəklərdə, xüsusilə türkmənlərdə ümumtürk köçəri mədəniyyətindən ciddi şəkildə fərqlənən İrandan keçmə digər etnik-mədəni xüsusiyyətlərin təsirlərini də müşahidə edirik. Yerli yafəs tayfalarının təsirini müəyyən etsək də, cənub-qərbdə Qafqaz dağlarında yaşayan tayfaların həyat tərzi, məişəti Qaraçay-balkar mədəniyyəti ilə bağlıdır.

Əkinçilik, xüsusilə bağçılıq və bostançılıq qədim türklərə yad xüsusiyyətdir. Türklər əhəmiyyətsiz dərəcədə əkinçiliklə, əsasən darı əkməklə məşğul olurdular və bu proses ibtidai formada, əl ilə həyata keçirilirdi. Əkinçilik mədəniyyəti yaşadıqları yerlərdən kənarda, ucqarlarda olmuşdur. Onlar təsərrüfat sistemini və əkinçilik alətlərini təmasda olduqları başqa xalqlardan mənimsəmişdilər.

Türk tayfalarının köçəri həyat tərzi sığınacaqlarının inkişafını formalaşdırmışdır, qazax-qırğızlara məxsus keçə örtüklü çadırlar monqol və türk tipi olmaqla bir-birindən fərqlənirdi. Çərçivəli (karkas) və üst hissəsi konusvari çadırlar monqol tipinə, kürəvi-gümbəzli çadırlar türk tipinə aiddir. Heç bir monqol tayfasının türk tipi qəbul edilən çadırlarına rast gəlinmir. Bunun əksinə olaraq, Altay-Sayan dağlıqları və Ural, Qafqaz dağlarının ətəklərində yaşayan bir sıra köçəri türk tayfası monqol tipi qəbul edilən çadırlarda yaşamışlar. Monqol tipi daha ilkin olmuş, ucqarlarda, sərhəd zonalarında həm türk, həm də monqol tayfaları üçün ümumi sığınacaq olsa da, inkişaf etdirilməmişdir, mərkəzdə – Orta Asiyada isə konstruktiv baxımdan inkişaf etmiş, daha da mükəmməlləşdirilmiş formasını müşahidə edirik.

* * *

**Rudenko "türk" anlayışının əsasən dil meyarı** ilə müəyyənləşdirildiyini bildirir. Bu həmin dövr üçün xarakterik idi: Sovet antropologiyası "türk" kimliyini etnik deyil, dil birliyi kimi izah etməyə çalışırdı. **Türkologiyanın metodoloji xətti sovet milli siyasətini əks etdirirdi: ortaq mənşəyi deyil, müxtəlifliyi önə çəkirdi.** O, müxtəlif türk tayfalarının fiziki xüsusiyyətlərini təsvir edərək 3 əsas fikir formalaşdırır: 1) **Mərkəzi türk tipi:** Qazax – qırğız zonası; **Şimal-şərqə keçdikcə: monqol və tunqus qarışığı** (soyotlar, yakutlar); Epikantik qapaq – coğrafi yaxınlıq; 2) **Qərb və şimal-qərbdə** başqırdlar və Volqa tatarlarında **fin elementlərinin** – antropoloji izlərinin güclənməsi; 3) **Cənub-şərq – İran elementləri** – xüsusilə türkmənlər və azərbaycanlılar. O, **köçəriliyi əsas identifikator kimi götürür,** "türk mədəniyyətinin əsasında köçərilik dayanır" tezisini irəli sürür. O, əsas komponentləri: at kultu, maldarlq (xüsusilə qoyun və at); geyimdə keçə, dəri, kürk, qaftan, şalvar, papaq kimi tipik formaları **ümumtürk mədəniyyətinin nüvəsi adlandırır. Rudenkonun bu tezisləri köçərilik konsepsiyasını gücləndirir, türk mədəniyyətini, faktiki olaraq, "köçəri mədəniyyəti" kimi özəlləşdirir, halbuki Azərbaycan, Anadolu, Xorasan kimi ərazilərdə qədim oturaq mədəniyyətlər də vardır. Yəni köçəriliyin mərkəzi rolu bir qədər şişirdilir.**

**Etnogenetik təsirləri Rudenko** 3 istiqamətdə təhlil edir: **fin komponenti** – şimal-qərb türkləri; **İran elementləri** – türkmənlər və azərbaycanlılar; **Qafqaz komponenti** – Qaraçay-Balkar və bəzi Qafqaz türkləri. Bu yanaşma Sovet etnoqrafiyasının əsas prinsiplərinə uyğundur.

**Məruzənin mübahisəli tərəfləri var:**

*1) Fiziki tip əsasında etnik təhlil. Bu, XX əsrin əvvəlinə aid metodlara uyğun olsa da, müasir elmdə etibarlı deyil.*

*2) Türkmən və azərbaycanlıları "İran antropoloji tipinə" bağlaması. Bu, etnogenetik deyil, yalnız tipik müşahidələrə əsaslanır.*

*3) Köçəriliyi türklüyün "əsası" kimi təqdim etməsi. Bu Orta Asiya mərkəzçiliyini yaradır və Anadolu, Azərbaycan, Xorasan kimi oturaq türk bölgələrini kənarda qoyur.*

*4) Sovet ideoloji xəttinə uyğun şəkildə "türklərin heterogenliyini artırma"-sı. Bu, qurultayın ümumi siyasi kontekstinə uyğundur.*

**Çıxışın əsas məziyyətləri:**

**1. Türkləri etnik mənşəyə görə deyil, dil birliyinə görə qruplaşdırır; bu, sovet siyasətinə uyğundur.**

**2. "Türk tayfalarının antropoloji müxtəlifliyi" adı altında "ortaq kökün zəiflədilməsi" siyasəti aparılır.**

**3. Köçəri mədəniyyətinin nüvəsi dəqiqliklə verilsə də, oturaq türk mədəniyyətlərinin rolu çox zəifdir.**

**4. Çadır, geyim, qidalanma, zərgərlik və dəmirçilik kimi sahələrdə ümumtürk elementləri göstərilir – bu, türklərin mədəni vahidliyini sübut edən hissədir.**

**5. Rudenko diffuzionist yanaşmanı əsas götürərək türk mədəniyyətinin formalaşmasında fin, İran, Qafqaz və monqol təsirlərini önə çıxarır.**

**Messaroşun** ***"Anadolu və Balkan türklərin etnoqrafiyasının müasir vəziyyəti və yaxın gələcəkdəki vəzifələr"*** mövzusunda etdiyi məruzəsinə başlayarkən ilyarım əvvəl Türkiyə Respublikası tərəfindən Ankarada Anadolu türklərinin tarixi abidələrinin elmi şəkildə tətbiqi və mühafizəsi məqsədilə Türk Etnoqrafiyası Muzeyinin təsis edildiyini yada salır. O qeyd edir ki, Anadoluda məskunlaşmış türk tayfasının mənşəyi, etnoqrafiyası barədə təsəvvür əldə etmək üçün gələcəkdə aparacağımız tədqiqatlara yerli əhalinin tarixəqədərki dövrünün qatlarının təhlilindən başlamalı olacağıq. İndiyə kimi bu sahədə aparılan tədqiqatlar Anadoluda yaşayan əhalinin antropoloji inkişafı burada yaşamış qədim sakinlər ilə sıx şəkildə bağlıdır. Ən qədim insan məskənlərinə dair sənədlər yarımadanın şərq hissəsində – Halys (indiki Qızılırmaq) çayından başlayaraq Dəclə-Fərat boyunca alarodi tayfalarının yaşadığını sübut edir.

Tunc dövrünün əvvəllərindən etibarən Egey adaları vasitəsilə yunan kolonozasiyaları qərb dəniz sahillərində bölünmüş hind-german tayfalarını bura göndərmişdir. Beləliklə, adı çəkilən şərqi alarodi və qərbi hind-german elementləri bu ərazidə eramızdan əvvəlki ilkin etnik dövrdə formalaşmışdır. Sonrakı tarixi hadisələr – assuriyalıların, farsların, yunanların, ərəblərin və nəhayət, monqolların yürüşləri əhalinin məskunlaşma nizamını pozmuş, sıxlığı azaltmış olsa da, əsasən yerli əhalinin etnik tərkibini dəyişməmişdir. İlkin etnik əsasın mövcudluğu XI əsrdə ilk türk fatehləri – səlcuqların məskunlaşmasına əsas vermişdir. Sonradan gələnlərin əksəriyyəti əsasən Ermənistanda, Kapadokiyada və Likiyada – bir sözlə, qədim alarodi torpaqlarında məskunlaşmışlar.

Hakimiyyətləri bütün Anadolu boyu yayılsa da, yenə də mərkəzi və şərq bölgələri əsas məskunlaşdıqları yer olmuşdur. XIII əsrin əvvəllərində Sultan Süleyman dövrünün türkləri (indiki hakim tayfanın əcdadları) meydana çıxmışdır. Onlar səlcuqlar kimi Orta Asiyadan gəlmiş və ilk olaraq Fərat çayının vadilərində görünmüşdülər. Türk salnamələrinə görə, sayca onlar təxmini 50 min – 150 min nəfərdən çox ola bilməzdi. Konya sultanı Əlaəddin onları qəbul etmiş, Vifiniya yaxınlığını onlar üçün qışlaq təyin etmişdir. Elə burada, Sakariya hövzəsində döyüşkən Ərtoğrul və Osman tayfaları artmağa başlamışdır. Yaxınlıqda – Bursada ilk paytaxt salınmış və ilk türk dövləti bərqərar olmuşdur. Bu mərkəzdə İslam dininin yayılması ilə tədricən bütün Anadolu türkləşmişdir.

**Messaroş məruzəsində bu köçləri və ilk türk tayfalarının məskunlaşdıqları yer haqqında məlumatın Anadolu türklərinin etnoqrafiyasını tədqiq etmək üçün əsas olduğunu qeyd etmiş** və hər şeydən əvvəl, salnamələrin və sənədlərə görə səlcuq və sonrakı türklərin tarixi məskunlaşmalarının əsas istiqamətlərinin təyin edilməsinin vacibliyini bildirmişdir. Bununla paralel Anadolu sakinlərinin antropoloji tipini öyrənməyin faydalı olacağını nəzərə çatdırmışdır.

Məruzəçi qeyd edir ki, e.ə Anadolunun şimal-şərqi təbii filiz ehtiyatları ilə məşhur idi, qonşu mədəni xalqlar, o cümlədən hetlər bu mənbədən metal çıxarırdılar. Əhdi-Ətiq xalqları da metaldan hazırlanmış əl işlərini ticarət yolu ilə yayırdılar. Şərqə doğru Mosox, Fərat çayının yuxarı sahillərində Mittani, Van gölü ətrafında, Babilin şərqində elamlar, bütün adları sadalanan xalqlar xristian təqviminin II minilliyinə aiddirlər. Son araşdırmalara görə, tədqiqatçılar bu xalqların dil quruluşunda və etnik tərkibində müasir Qafqaz xalqları ilə yaxın oxşarlıq olduğunu aşkarlamışlar. VIII əsrdə köç zamanı şimaldan axın edən yeni elementlər bu qədim mədəni xalqlar arasında yayılmağa başlamışdı. Rusiyanın cənub düzənliklərindən, Don çayı hövzəsindən kimmer tayfaları (Heredota görə Qafqazdan, Strabona görə Balkan yarımadasından) Anadolunun şimal bölgəsinə, Sinop ətrafına köç etmişlər, sonradan uzun müddət İllion, Lidiya, İoniya və Kilikiyaya hərbi yürüşlər etmişlər. Onlarla yanaşı, Balkan yarımadasından frako-frikiyalı hind-german elementləri meydana çıxmış və Orta Asiyanın şimal-qərbini – Miziya və Frikiyanı bürümüşdü. Qafqaz tərəfdən isə ari xalqları daxil olmuşlar.

**Messaroşun qənaətlərinə görə**, bu tədqiqatlar nəticəsində Kiçik Asiya insanının etnik mənsubiyyəti və fərdi tiplərin coğrafi cəhətdən məskunlaşması müəyyənləşdirilərsə, etnoqrafik tədqiqatların aparılması bir çox baxımdan asanlaşacaq. Belə tədqiqatlar dairəsinə Anadolu dialektlərinin öyrənilməsi də daxildir.

Köməkçi elm kimi, bu, həmçinin xalq mədəniyyətinin, xüsusən mədəniyyət anlayışının mənşəyinin izahı üçün vacibdir. Bu anlayışlar, daim bir xalqdan digərinə terminologiya vasitəsilə keçir. Məsələn, Anadolu türkcəsində bəzi mədəni anlayışlar Qafqaz, yaxud hind-german sözləri ilə ifadə edildiyinin şahidi oluruq və şübhəsiz ki, burada yerli əhalinin itib-batmış dilinin nadir qalıqları meydana çıxır. Nəinki mədəni anlayışı ifadə edən sözlər, coğrafi arealı da dərin məna kəsb edir.

O qeyd edir ki, ümumiyyətlə, türk dillərində palatal "ö", "ü" saitləri işləndiyi halda, şimal bölgəsi (Kastamoludan Harputa qədər) ləhcəsində əksərən quttural "o", "u" saiti tələffüz olunur (bölük – boluk). Bu, yerli əhalinin (aborigenlərin) danışdığı dildə həmin səslərin olmadığını aydın şəkildə sübut edir. Gələcəkdə bu ərazilərin dialektoloji xəritəsi eyniliklə Kiçik Asiya türklərinin mənşəyi məsələsinin həllinə yaxınlaşdıracaq. Belə dilçilik araşdırmalarında fonetik transkripsiyaların bu günə kimi hər yerdə latın (Avropa) əlifbası ilə tətbiq olunduğunu qeyd etməyi artıq hesab edirəm.

Messaroş yekun olaraq məruzə edir ki, yerli əhalinin yazılı abidələri Anadolu torpaqlarından çıxıb, təbii ki, böyük əksəriyyəti naməlum olaraq qalır. Əfsanəvi Anadolu torpaqlarında bu günə kimi elmi sirlərin qalma ehtimalı istisna edilmir. Bu torpaq qədim etnik tərkibinə görə digər istiqamətlərdə də əməkdaşlığa geniş imkan verir. Anadolu torpağı, köhnə etnik tərkibinə görə və başqa bir istiqamətdə əməkdaşlıq üçün bir fürsət təqdim edir".

* * *

**Messaroş müxtəlif istiqamət üzrə bir sıra sahəni:** Anadolunun qədim etnik təbəqələrinin rekonstruksiyasını, türk köçlərinin bu qat üzərində yayılmasını, dialektoloji araşdırmaların gələcək rolunun müəyyənləşdirilməsini, etnoqrafiya muzeyi və mədəniyyət tədqiqatlarının genişləndirilməsini əhatə edir. Onun konsepsiyası budur ki, Anadolu türklərinin etnoqrafiyasını anlamaq üçün mütləq orada yaşayan türklərdən əvvəlki etnik təbəqələr öyrənilməlidir. Burada bir neçə vacib element var:

*a) Alarodi tayfaları – ilkin etnik qat: Anadolunun şərqində Halys–Fərat xətti boyunca "alarodi" adlandırılan qədim tayfalar yaşayırdı;*

*b) Bu ad bu gün sırf tarixi mənbələrdə mövcuddur və Qafqaz mənşəli qədim etnosları ifadə edir;*

*c) Hind-german (yunan və frako-frikiyalı) kolonizasiyası: Egey vasitəsilə gələn koloniyalar Anadolunun qərbində ikinci əsas etnik qatı yaratmışdır.*

Messaroşa görə, Anadoluda türklər gəlməzdən əvvəl şərqdə Qafqaz, qərbdə hind-german mənşəli iki böyük mədəni blok var idi: assuriyalılar, farslar, yunanlar, ərəblər, monqolların gəlişi əhalinin etnik tərkibini dəyişməyib, bu yürüşlər demoqrafik yox, siyasi təsir yaratmışdır. Bu fikirlə o, Anadolunun etnik davamlılığı və türklərin yerləşməsini əsaslandırmağa çalışır. Diqqət çəkilən məqam Anadoluda qədim yerli əhali ilə türklərin qarışması prosesidir.

Messaroş səlcuq və daha sonrakı türk tayfalarının sayının 50 min – 150 min civarında verilməsini o dövr tədqiqatları üçün olduqca real hesab edir. Messaroş qeyd edir ki, türklər əsasən şərq və mərkəzi Anadolu ərazisində məskunlaşmış, ilk Osmanlı tayfaları Sakarya və Bursa bölgəsində formalaşmışlar. O, türkləşmənin səbəbini siyasi hakimiyyət, İslamın yayılması, yerli əhali ilə qarışmasında görür.

Məruzənin ən dəyərli elmi məlumatlarından biri də palatal saitlərin (ö–ü → o–u) şimal bölgəsində olmamasıdır. Kastamonu–Harput xəttində "ö/ü" əvəzinə "o/u" işlənməsi yerli (aborigen) dilin fonetik xüsusiyyətlərinin türk dilinə keçməsindən xəbər verir. Türklər yerli etnik və dil qatları üzərində yayılmış, onları birləşdirmiş və yeni mədəni sintez yaratmışdır. Dil izləri etnik qarışmanın sübutu kimi istifadə olunmuşdur – bunlar müasir dialektologiya üçün elmi cəhətdən ciddi arqumentlərdir. Anadolu torpaqları hələ tam öyrənilməyib, yerli əhalinin çox qədim yazıları və mədəni qalıqları vardır, bunların əksəriyyəti hələ də naməlum olaraq qalır. Təklif edir ki, dialektoloji xəritələr hazırlansın; arxeoloji abidələr sistemli şəkildə araşdırılsın, terminologiya və mədəni anlayışların mənşəyi izah olunsun, Anadolu Etnoqrafiya Muzeyi elmi baza kimi inkişaf etdirilsin.

*(ardı var)*

***Nadir MƏMMƏDLİ,***
***AMEA Nəsimi adına***
***Dilçilik İnstitutunun direktoru,***
***filologiya elmləri doktoru, professor***

*Firudin Şuşinski – 100*

# Milli musiqimizin vurğunu

## *O, tarixçi, jurnalist, tədqiqatçı idi*

**O, yurdunu Məcnun məhəbbəti ilə sevən Vətən övladı idi, doğma elinin, obasının təəssübünü qeyrətlə çəkən, sözün həqiqi mənasında, ona vurğun olan bir insan idi. Şuşadan, Qarabağdan ötrü ömrünü şam kimi əridən bir şəxsiyyət idi, Vətəninin Vətən daşı idi.**

gənc tarixçi-tələbə elmi-siyasi mövzuda bir sıra yazılar yazıb, qəzet və jurnallarda dərc etdirdi. Bu silsilə yazılar Firidun Həsənovu ədəbi və elmi ictimaiyyət arasında geniş tanıtdı.

Gənc tədqiqatçı Şərqin böyük oğlu Nəriman Nərimanovla xüsusilə maraqlanır, yeri gələndə, məqalələrində bu siyasi xadimdən sitatlar gətirir, çıxışlarında çox vaxt ona istinad edirdi. Bütün bunlar isə



O, cəsarətli idi, qorxmaz idi, döyüşkən idi, heç kəsdən, heç nədən çəkinmədən sözünü birbaşa, kəskin şəkildə deyən bir kişi idi.

O, Firidun Şuşinski idi!

Bu şərəfli ad-familiyanı kim eşitməyib, onun daşıyıcısının yazılarını mətbuatda kim oxumayıb, televiziyada, radioda apardığı verilişlərə kim baxmayıb, qulaq asmayıb? Həqiqətən də, Firidun Şuşinski adı tariximizə böyük hərflərlə və əbədi yazılan şəxsiyyətlərdən idi, cəmiyyətdə özünəməxsus yeri, çəkisi olan vətəndaş idi. Bu sətirlərin müəllifi də özünü ona görə xoşbəxt sayır ki, o kişini düz 40 il tanıyıb və onunla dostluq edib, böyük həmkarından çox şeylər görüb-götürüb, onu özünə yolgöstərən, müəllim sayıb.

Onun keşməkeşli, mübarizələrlə dolu həyat yolu özünü azərbaycanlı sayan hər bir kəsə örnək ola bilər. Yetmiş iki illik uzun bir yolu o qədər də asan keçməyib Firidun Şuşinski. Musiqili bir mühitdə - Şuşa kimi sənətkarlar yurdunda doğulub böyümüşdü Firidun müəllim. Lakin həyatın ağrı-acısını uşaqlıqdan dadmışdı və bu ağrı-acı da ömrünün sonuna kimi müşayiət eləmişdi onu. Bığ yeri təzə-təzə tərləyən vaxtı Şuşa Müəllimlər İnstitutunu bitirib, təyinatla Malıbəyli kənd məktəbinə göndərilmişdi və burda cəmi-cümlətanı dördcə ay işləmişdi. 1942-ci ilin dekabrında 17 yaşı təzəcə tamam olan gənc müəllim könüllü olaraq sovet – alman cəbhələrinə yollanmışdı.

Zaqafqaziya, Şimali Qafqaz, IV Ukrayna, II Belorusiya cəbhələri qoşunları tərkibində uzun və şərəfli bir döyüş yolu keçmişdi, döyüş meydanlarında elə ilk günlərdən fərqlənmişdi. Qələbə şərbətini Genisberq şəhərində içən Firidun döşü orden-medalla dolu, alnıaçıq, üzüağ dönmüşdü Vətənə. Tezliklə əsgər formasını mülki paltarla əvəz eləmiş, Ağdam kolxoz məktəbində ədəbiyyat müəllimi işləməyə başlamışdı...

Ali təhsil almaq həvəsi Firidunu 1946-cı ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə gətirib-çıxardı. Görkəmli pedaqoqların, tarixçi alimlərin mənalı və dəyərli mühazirələri birinci kursda ikən onun fikrində bir mövzunu həmişəlik formalaşdırdı: hələ yetərincə tədqiq olunmamış Qarabağın tarixi ilə məşğul olmaq, bu diyarın şanlı keçmişini araşdırmaq, "Qafqazın konservatoriyası"nın ilk məzunları"nı üzə çıxarmaq və onları müasir oxucuya tanıtmaq və s.

Elə bu fikirlə, bu istəklə də işə girişdi. Boş vaxtlarını, yay və qış tətillərini səmərəsiz keçirmədi. Tələbə olsa da, rayonlara, xüsusən də, Qarabağın şəhər və kəndlərinə üz tutur, bu yerləri oymaq-oymaq gəzir, camaat qarşısında doğma diyarı haqqında mühazirələr oxuyur, əldə etdiyi eksponatlar barədə onlara məlumat verir, öz növbəsində də, yeni-yeni tapıntılarla geri dönürdü.

Bu zəhmətkeş və qeyrətli tələbə ilə təsadüfən tanış olan böyük şairimiz Səməd Vurğun 1948-ci ildə ona "Vaqif və Qarabağ" mövzusunda yazı yazmağı tövsiyə etdi. Görkəmli şairin bu tövsiyəsi sanki ona qol-qanad verdi, ruhlandırdı. Və dərhal işə girişdi, əldə elədiyi yeni faktları saf-çürük etdi, ipə-sapa düzdü, maraqlı bir məqalə hasilə gətirib, Səməd Vurğunun stolunun üstünə qoydu. Şairin xeyir-duası ilə "Vaqif və Qarabağ" məqaləsi işıq üzü gördü və bu, onun ilk mətbu əsəri oldu.

Çox çəkmədən məqalə SSRİ Təhsil Nazirliyinin təşəkkürünü aldı. Bunun ardınca Nəriman Nərimanovun hələ də yaşayan düşmənlərinə, o cümlədən ermənilərə xoş gəlmirdi. Ona görə də "başından böyük danışan və yazan" bu universitet tələbəsi barədə yuxarı dairələrə donoslar göndərilir, onu ali məktəbdən uzaqlaşdırmağa cəhd edirdilər. Hətta bu məsələ Mərkəzi Komitəyə də gedib çıxmışdı.

Azərbaycan KP MK-nın birinci katibi Mir Cəfər Bağırov partiyanın plenumlarının birindəki çıxışında gənc tədqiqatçının "millətçi" Nəriman Nərimanova aludə olmasını vurğulamış və Firidun haqqında belə demişdi: "Gör universitetdə iş nə yerə gəlib çatıb ki, Həsənov familiyalı bir tələbə Nərimanovun kim olduğunu bilməyə-bilməyə mənə müraciət etmişdir. O, "nərimanovçuluq" xəstəliyinə tutulmuşdur".

1951-ci ildə Firidun Həsənov universitetə "əlvida" deyib, təyinatla iş yerinə göndərildi. Bir müddət Bakıdakı 45 və 61 saylı məktəblərdə həm tarix fənnindən dərs dedi, həm də hər iki məktəbin pedaqoji kollektivinə rəhbərlik etdi. Lakin tədqiqat işləri onu özünə daha çox çəkirdi. Ona görə də Firidun müəllimliyin daşını birdəfəlik atıb, öz sevimli peşəsi ilə - tədqiqatla məşğul olmağa başladı. Ömrü boyu onu özünə yol yoldaşı, həmdəmi seçdi. Üstəlik, doğma şəhərinin adını da özünə təxəllüs götürdü: Şuşinski!

1959-cu ildən başlayaraq Firidun Şuşinski musiqi tariximizin tədqiqi ilə məşğul olmağa, eyni zamanda, Şuşa şəhərinin tarixini yazmağa başladı. Gənc tədqiqatçı müxtəlif vaxtlarda SSRİ-nin iri şəhərlərinə səfərə çıxdı, vaxtının çox hissəsini arxivlərdə, muzeylərdə, elmi kitabxanalarda keçirdi. Qocaman xanəndə və çalğıçıların, incəsənət xadimlərinin, musiqi həvəskarlarının dəfələrlə qonağı oldu, onların xatirələrini qələmə aldı. İran və Türkiyənin dövri mətbuatını gözdən keçirdi.

Dağınıq və pərakəndə olan minlərlə sənəd, fotoşəkil, onlarla afişa və konsert proqramı, 300-ə yaxın qrammafon valı və sair nadir əşyalar topladı, yığdığı musiqi materiallarını sistemləşdirdi. Qurban Pirimov, Seyid Şuşinski, Bülbül, Xan Şuşinski, Bəhram Mənsurov və onlarca digər musiqiçilərlə saatlarla, günlərlə söhbət etdi, musiqi mədəniyyətimizin açılmamış səhifələrini öyrəndi. Nəhayət "Şuşa" adlı ilk kitabını (1962) nəşr etdirdi. Bunun ardınca "Cabbar Qaryağdıoğlu" (1964), "Seyid Şuşinski" (1966), Tiflisdə gürcü dilində "Tiflisin köhnə musiqiçiləri" (1969) kitabları ərsəyə gəldi. 1968-ci ildə "Şuşa" rus dilində də çap olundu.

Firidun Şuşinskinin əzablı günləri də elə həmin vaxtdan başladı. Hər yerdən ona hücumlar oldu. Moskva, İrəvan, Tiflis, hətta Bakı mətbuatı ağızlarını Allah yoluna qoyub, bu vətənpərvər, qeyrətli tarixçini tənqid atəşinə tutmağa, ittiham etməyə başladılar. Səbəb də o idi ki, müəllif bu kitabda hər kəsi öz adı ilə vermiş, ermənilərin "milli qəhrəmanı", tayqulaq Androniki daşnak adlandırmış və vaxtilə onun Azərbaycan və türk xalqlarına qarşı törətdiyi cinayətləri ifşa etmişdi.

Mətbuatda gedən hədyanlar azmış kimi, Firidun Şuşinskini təqib etməyə başladılar. Ona "qatı millətçi", "burjua millətçisi", "xalqlar dostluğunun düşməni" damğası vurdular. Düz 8 il qəzet-jurnal redaksiyaları qapılarını onun üzünə bağladı. Firidun Şuşinski o illəri belə xatırlayırdı: "Şuşa" kitabının üstündə başım nələr çəkmədi. Ermənilərin əlindən üç il Şuşaya gedə bilmədim. Hər yerdə məni daşa basırdılar. Evimin qapısını və pəncərələrini dəfələrlə sındırdılar, telefonumu kəsdilər. Bir neçə dəfə mənə sui-qəsd etdilər.

Nəhayət, ermənilərin təzyiqi ilə Azərbaycan KP MK "Şuşa" kitabını büroda müzakirəyə qoydu. Burda iştirak edən bəzi partiya və dövlət xadimlərinin, yazıçıların, tarixçilərin Firidun Şuşinskinin ünvanına demədikləri söz qalmadı, "burjua mövqeyindən yazılan" kitabın yandırılması tələb olundu. Və... Və o vaxt Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsinin sədri vəzifəsində çalışan Heydər Əliyevin göstərişi ilə bu qeyrətli tarixçinin təqib olunmasına son qoyuldu. Sonralar Firidun Şuşinski etiraf edirdi: "Əgər ulu öndər Heydər Əliyev olmasaydı, bu qarğa-quzğunlar, az qala dərimi soyacaqdılar".

Sonralar ümummilli lider Heydər Əliyev özü də bu barədə söyləmişdi: "Xatirimdədir, mən hələ Mərkəzi Komitənin birinci katibi seçildiyim ərəfədə Şuşa haqqında bir kitab çıxmışdı. Müəllifi Firidun Şuşinski idi. Bu kitabı çox gözümçıxdıya salmışdılar. Xüsusən, ermənilər. Təəssüf ki, Bakıda olan ziyalılar da bu kitabın qəti əleyhinə çıxırdılar. Həmin kitabı mənə çatdırdılar. Oxudum, gördüm ki, yaxşı kitabdır... Nə isə, mən o zaman ermənilərin hücumunun qarşısını aldım".

Artıq 70-ci illərin əvvəllərində Firidun Şuşinskinin adı musiqi tarixçisi və tənqidçisi kimi bütün ölkədə məşhurlaşmışdı. O, illər uzunu idi ki, yorulmadan, tükənməz tədqiqat ehtirası, sonsuz yaradıcılıq enerjisi ilə elmi axtarışlarını davam etdirir, yeni yazıları ilə Azərbaycan musiqi mədəniyyəti tarixinin boş səhifələrini doldururdu.

Tədqiqatçı-alim öz qəhrəmanlarına vurğunluğu ilə min cür əzab-əziyyətə qatlaşaraq uzaq-uzaq şəhərlərə səfərə çıxır, klassik musiqiçilərimizi arayıb-axtarır, yüksək duyum və həssaslıqla görkəmli xanəndələr və çalğıçılar barədə maraqlı yazılar yazaraq onların sənəti və şəxsiyyəti ilə oxucuları tanış etməklə musiqi tariximizi zənginləşdirirdi.

Qeyd edək ki, musiqi irsimizi, ifaçılıq sənətimizi ona qədər öyrənən və bu sahədə xüsusi tədqiqat aparan ikinci bir şəxs olmamışdır. "Milli musiqimizin bir çox yeni səhifəsini açan bu fitri istedadlı musiqişünasa Azərbaycan xalqı minnətdar olmalıdır". Bu sözlər respublikanın Xalq artisti Tofiq Quliyevə məxsusdur.

Ümumiyyətlə, Firidun Şuşinskinin istər məqalələri, istərsə də bir-birinin ardınca çıxan kitabları musiqi ictimaiyyətimiz tərəfindən böyük rəğbətlə qarşılanır, yüksək qiymətləndirilirdi. 1970-ci ildə nəşr olunan "Azərbaycan xalq musiqiçiləri" kitabı yazıçının şöhrətini ölkəylə bir etdi. Bəstəkar Fikrət Əmirovun ön sözü ilə həyata vəsiqə alan bu sanballı, fundamental əsər müəllifin silsilə tədqiqatlarının ümumi toplusu idi. Burda xalqımızın mənəvi xəzinələrindən birinin - musiqi xəzinəsinin ən maraqlı, ən aktual məsələlərinə toxunulur, adları unudulmuş görkəmli musiqiçilərin təkcə ömür yolları və yaratdıqları əsərlər yox, həm də onların milli musiqi mədəniyyətimizin inkişafındakı böyük xidmətləri göstərilirdi.

Təsadüfi deyil ki, bu əvəzsiz kitabın musiqişünaslıq baxımından əhəmiyyətini və aktuallığını nəzərə alan Moskvanın "Sovetskiy kompozitor" nəşriyyatı 1979-cu ildə onu nəfis şəkildə nəşr edərək rusdilli oxucuları da milli xəzinəmizlə tanış etdi.

Özünün bütün bədii təfəkkür enerjisini əsirgəmədən bu mühüm sahəyə sərf edən Firidun Şuşinskinin respublika radiosu və televiziyasında apardığı silsilə verilişlər də praktiki əhəmiyyətinə və kütləviliyinə görə böyük əhəmiyyət kəsb edirdi. Bu baxımdan, onun "İfaçılıq sənəti" proqramı o zaman Azərbaycan televiziyasının ən populyar verilişlərindən hesab olunurdu.

Firidun Şuşinski xalq musiqimizin, muğamlarımızın keşiyində həmişə silahlı bir əsgər kimi dayanırdı. Tarın, kamanın, el havalarının qəlbinə kimsə dəydimi, ürəyinə toxundumu, o, dərhal silahını qaldırır, həyəcan təbili çalaraq musiqi cəbhəsində baş verən bütün xoşagəlməz halları tənqid atəşinə tuturdu. Həyəcan təbilinin səsi isə çox vaxt eşidilir, nəticə çıxarılırdı. Ömrünün qürub çağında Firidun müəllim musiqi sahəsində apardığı mübarizə tarixini gələcək nəslə çatdırmaq üçün "Musiqişünasın düşüncələri" adı altında çap etdirdi. Ona daha bir əzab-əziyyət gətirən, haqsızlıqlara məruz qoyan bu kitab Firidun müəllimin sağlığında sonuncu kitabı oldu.

Bir payız günü Firidun Şuşinski (20.X.1925–25-X.1997) haqq dünyasına üz tutdu. Amma çox nigaran getdi. Muğamlarımız, milli çalğı alətlərimiz, xalq musiqimizlə bağlı hələ sinəsi dolu idi. Doğma Şuşasının, Qarabağının düşmən tapdağında olmasının acıdan-acı nisgili ilə gözlərini əbədi yumdu.

***Vasif QULİYEV,***
***"Şuşa" qəzetinin redaktoru,***
***Əməkdar jurnalist***

# "Oliqarxın sistemi"

## *("The Oligarch's Design")*

# sənədli filminin nümayişi




**Dekabrın 19-da Nizami Kino Mərkəzində "AnewZ" Beynəlxalq Televiziyasının araşdırma seriyasından olan "The Oligarch's Design" sənədli filminin rəsmi nümayişi olub.**



Ekran əsərinin təqdimatında Milli Məclisin deputatları, Azərbaycanın televiziya kanallarının, informasiya agentliklərinin, media subyektlərinin rəhbərləri və ictimai-siyasi şəxslər iştirak ediblər.

Filmin təqdimatından əvvəl çıxış edən "AnewZ" Beynəlxalq Televiziyasının icraçı direktoru Rüfət Həmzəyev sənədli ekran əsəri haqqında məlumat verib. O bildirib ki, bu təkcə sənədli filmin premyerası deyil, həm də "AnewZ Investigations" platformasının rəsmi başlanğıcıdır. Bu sənədli film beynəlxalq araşdırma jurnalistikasının bütün istiqamətlərini özündə ehtiva edən ekran işidir.

Rüfət Həmzəyev diqqətə çatdırıb ki, "The Oligarch's Design" layihəsinin çəkilişləri bu ilin yanvar ayından etibarən 8 ölkədə həyata keçirilib və istehsal prosesi 10-11 ay davam edib. Filmin hazırlanması prosesinə 100-ə yaxın jurnalist, prodüser, operator, montajçı və tədqiqatçı cəlb olunub. Həmçinin filmin bir sıra epizodları mürəkkəb şəraitdə ərsəyə gətirilib.

Qeyd edilib ki, sənədli filmin əsas bölmələrindən biri Ruben Vardanyanın 2022-ci ildə Rusiya vətəndaşlığından imtina edib bölgəyə köçməsi və tanınmamış separatçı rejimin siyasi müstəvisində fəaliyyətə başlaması prosesinə həsr olunub. Bu proseslər Azərbaycan, Ermənistan və Ukraynada aparılmış araşdırmalar və müsahibələr, həmçinin deputatlar, prokurorlar, regional ekspertlər və jurnalistlərin təhlilləri əsasında təqdim olunur.

Bildirilib ki, "AnewZ Investigations" platforması vasitəsilə kanal uzunmüddətli araşdırma jurnalistikasını dərinləşdirməni, yoxlanılmış məlumatlara əsaslanan yanaşmanı, hesabatlılığı və güc mexanizmlərinin ictimai diqqətdən kənarda necə fəaliyyət göstərdiyinin daha dərindən anlaşılmasını prioritet kimi müəyyənləşdirir.

"AnewZ" Beynəlxalq Televiziyasının baş redaktoru Qay Şoun çıxışında filmin 4 əsas istiqamətdən ibarət olduğunu deyib: "Birinci fəsil maliyyə arxitekturasına həsr olunub. Araşdırmalar Böyük Britaniya, Litva və Amerika Birləşmiş Ştatlarında aparılıb və "Troyka" sistemi çərçivəsində ofşor strukturlar, vasitəçi banklar və "qabıq" şirkətlərin fəaliyyəti araşdırılır. İkinci fəsil xeyriyyəçilik və humanitar təşəbbüslər mövzusuna fokuslanır. Çəkilişlər əsasən Böyük Britaniyada, qismən isə Ermənistanda aparılıb. Bu fəsil xeyriyyə narrativlərinin elit siyasi və mədəni mühitlərlə necə kəsişdiyini beynəlxalq legitimlik və reputasiyanın hansı mexanizmlərlə formalaşdığını nümayiş etdirir. Üçüncü fəsil Ukraynada müharibə şəraitində hazırlanıb. Rusiyanın genişmiqyaslı işğalı fonunda logistika sanksiyaları və maliyyə şəbəkələrini təhlil edir. Bu hissə sahə reportajına təhlükəsizlik yanaşmasına və siyasətçilərlə analitiklərin birbaşa şahid ifadələrinə əsaslanır. Dördüncü və son fəsil yenidən Cənubi Qafqaz regionuna qayıdır. Azərbaycan və Ermənistanda aparılan çəkilişlər xarici maliyyə və siyasi mexanizmlərin regional səviyyədə siyasi və təhlükəsizlik mühitinə real təsirlərini ortaya qoyur".




Baş redaktorun sözlərinə görə, bütün fəsillər demək olar ki, eyni prinsiplərlə hazırlanıb. Film sübut və kontekst təqdim edir. Lakin nəticələri diktə etmir.

Sonra qonaqlar "The Oligarch's Design" sənədli filmini izləyiblər.

Film xeyriyyəçilik, maliyyə arxitekturası və dəqiqliklə qurulmuş narrativlər vasitəsilə siyasi təsirin necə formalaşdırıla biləcəyini araşdırır.

Bundan başqa, filmdə "Aurora Foundation" mövzusuna da toxunulub. Uzun illər ərzində dünyanın müxtəlif ölkələrindən tanınmış şəxslərin iştirak etdiyi platformanın nümayəndələri ilə müsahibələr aparılıb.

Araşdırma "OSINT" məlumatlarına (açıq mənbələr üzrə kəşfiyyat), eləcə də əvvəlki beynəlxalq araşdırmaların nəticələrinə əsaslanır. Həmin araşdırmalarda ofşor strukturlar vasitəsilə milyardlarla dolların dövriyyədən keçdiyi "Troika Laundromat" maliyyə şəbəkəsi təsvir olunub. Beynəlxalq araşdırma təşkilatlarının dərc etdiyi materiallar filmin faktoloji əsasının tərkib hissəsini təşkil edir.

***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 268 (30962) 20 dekabr 2025-ci il, şənbə

*Təbiətin təqvimi*

# Qış qapımızı kəsdirib...

## *Sabah xəzan fəsli yerini soyuq aylara verəcək*

**İlin 4 fəslinin hər biri özünəməxsus gözəlliyi, rəngi, insanlara bəxş etdiyi əhvali-ruhiyyə ilə digərindən fərqlənir. Aylardan bəri birgə dünyamızı bölüşdüyümüz payızı yola salıb, qışı qarşılayırıq. Qarlı-şaxtalı qışın da, qızılı yarpaqlarla torpağı bəzəyən yağışlı-çiskinli payızın da, şirin meyvələrlə süfrələri bəzəyən yayın da, təbiəti min rəngə çalan al-əlvan naxışlı baharın da öz cazibəsi var.**

Qış ilin ən soyuq və sərt fəslidir. Onu gözəlləşdirən və fərqləndirən əsas xüsusiyyəti qar yağışıdır. Qış səssiz addımlarla gəlir, təbiətin üzərinə ağ bir sükut salır. Dağlar ağ libasa bürünür, yarpaqsız ağaclar qollarını səmaya uzadıb bu ağırlığı qəbul edir. Soyuq külək köhnə nağılları pıçıldayır, gecələr ulduzlar daha parlaq yanır, buz tutmuş çaylar isə zamanın donmuş aynası kimi səssiz dayanır. Hər addımda qar xışıltısı eşidilir – bu, qışın öz dilidir, səbir və gözləmənin mahnısıdır.



Azərbaycanda və dünyanın bir çox yerində qış fəsli hər kəs üçün fərqli hisslər, xatirələr və təəssüratlarla yadda qalır. Bu fəsil həm təbiətin, həm də insan həyatının ayrılmaz bir hissəsidir. Onun gətirdiyi soyuq, sükut və təravət bir tərəfdən çətinlik, digər tərəfdən isə insanları bir araya gətirir, düşünməyə, yenidən dəyərləndirməyə, təbiətlə harmoniyada yaşamağa sövq edir. Ölkəmizin də iqlim şəraiti, ənənə və mədəniyyəti bu fəsli daha da rəngarəng və maraqlı edir. Qış ağ örtüyü ilə təbiəti duvaqlı gəlinə bənzədən, yeri, göyü, təbiəti donduran, həm də bütün bu xüsusiyyətləri ilə sevilən fəsildir. Təbiətin bu ağ libası insan ruhuna saflıq və rahatlıq gətirir.

Bu fəsil təbiətin dincəlməsidir: Torpaq istirahət edir, baharın gəlişinə güc toplayır. Ağaclar yarpaqlarını tökür, torpaq isə ağ örpəyə bürünür. Qarın ağ örtüyü təbiəti duvaqlı gəlinə bənzədir. Ağacların budaqlarında yığılan qar, çayların buzla örtülən səthi qışa xüsusi gözəllik qatır.

Qış insan ruhunu isindirir. İsti ocaq başında deyilən sözlər daha mənalı, sükutu isə daha dərin olur. Soyuq havalarda insanlar toplaşır, səmimi söhbətlər edirlər. Qaz və ya odun sobasının alovu qış gecələrinə xüsusi rahatlıq və xoş ab-hava qatır.

Havaların soyumasını uşaqlıq illərimizdə səbirsizliklə gözləyərdik. Əvvəlcədən görülən hazırlıq işləri-odun tədarükü, paltar və ərzaq ehtiyatı-qışın sərtliyinə qarşı sanki bir qalxan idi. Analar övladlarına isti əlcəklər, corablar, köynəklər toxuyardı. Qız-gəlinlər müxtəlif şirniyyatlar bişirər, süfrəyə pürrəngi çay gətirərdilər. Yay meyvələrinin qış üçün hazırlanan mürəbbələri süfrələri xüsusi bəzəyərdi.

O zaman biz qış gecələrini başqa cür keçirərdik. Kənddə işığın kəsilməsi çıraq gecələrinə çevrilərdi: Qohum-qonşular bir evə yığılıb maraqlı söhbətlər edərdi. Yenicə yumurtadan çıxmış cücələrin, qaz balalarının şirin civiltisinə qulaq asmaqla, isti sobanın közərən işığında kitab oxuyardıq.

“Bu gecə qarrayacaq” ümidi ilə yuxudan tez-tez oyanıb həyət-bacaya boylanardıq. Elə ki, qar dənəciklərini gördük, sevinər, sevincli qışqırığımızdan mışıl-mışıl yatanları da oyadardıq.

Buz bağlamış yollarla, üstündə sürüşdüyümüz su kanalları ilə məktəbə gedərkən Xeyrə və Minayə xalanın sübh tezdən qaladığı daş kömür sobasında qızınardıq. Dərs fasiləsi arası qar topasından adam düzəldib bəzəyərdik.

Şaxtadan üşümüş əllərimizin gizilti ilə istidə donunun açılmasının da özünəməxsus ləzzəti var idi. Soyuqdan qızarmış yanaqlar sanki qırmızı turpu xatırladırdı, bu – qışın həsrəti idi. Papaqlar, şərflər, əlcəklər, rezin uzunboğaz çəkmələr dolablardan çıxardı. Elə ki, məktəbdən qayıtdıq, bir tikə çörək yeyər-yeməz həyətə düşər, nə yorulmaq, nə üşümək bilərdik. Bizi evə çağırardılar. Ata-anamız, baba-nənəmiz “ay bala, evə gəlin”, – deyə dəfələrlə səsləsələr də, gecəni də qarın bəyazında oynayardıq... Əlcəklərimiz, pal-paltarımız, su çəkən çəkmələrin içərisində corablarımız tamamilə su olardı. “Ey, niyə qoymursunuz oynayaq”, – deyib könülsüz evə gedərdik. Gedən kimi də pal-paltarımızı, əlcək-çəkmələrimizi sobanın kənarına düzərdik ki, dərs oxuyana, yemək yeyənədək qurusun, yenə həyətə qaçaq.



Yıxılardıq, qalxardıq... Uşaqlarla zarafatımız bəzən dalaşmaqla nəticələnərdi. Ürəyimiz dözmürdü, tez də barışardıq. Qarı ovxalayıb yeyərdik, əlimiz çatan yerlərdən buzları qopарıb sorardıq. Xəstələnərdik də. İstiliyimiz yüksələrdi, lakin sağalan kimi vaxtı fövtə verməzdik. Həmin andaca əyin-başımızı geyinib qaçardıq bəyazlara doğru. İndi o bəyazlar bəyaz da xatirələrə çevrilib. Həmin xatirələr o qədər tərtəmiz, ülvidir ki, xatırladıqca insana mənəvi zövq verir. Çünki heç bir qüvvə, təsir o bəyazlığa xələl gətirə bilməzdi. Bu səbəbdən də qış bizim ən gözəl uşaqlığımız, unudulmaz xatirələrimizdir.

Sözsüz ki, qış fəsli orqanizmin gücünün də sınağa çəkildiyi dövrdür. Şaxtalı soyuq hava immuniteti zəiflədir, xəstəliklərin yayılmasına zəmin yaradır. Tibb mütəxəssislərinin tövsiyələrinə görə, düzgün qidalanma, isti geyim, fiziki aktivlik, təmiz hava və vitaminli məhsulların qəbulu çox vacibdir. Körpə məsum uşaqların və ahıl insanların bədən müqavimətini artırması, infeksiyalardan qorunması, gigiyenik qaydalara ciddi əməl eməsi olduqca vacib hesab edilir. Soyuqda uzun müddət qalmaq isə donma və hipoterniya kimi riskləri artırır.

Təbiət qar gözləməklə qışa xoş gəldin deməyə hazırlaşır. Odur ki, diqqətlər ölkə sinoptiklərinə yönəlib. Proqnozlara görə, gələn il yanvar və fevral aylarının sonlarında paytaxta qar yağacaq. Bu fəsil gah yağışlı, gah qarlı, gah şaxtalı, gah da küləkli qonağımız olacaq. Bu qışın füsunkarlığını, gözəl bir qışın ağ nağılının ləzzətini yaşamaq gərək...

Bakı Dövlət Universitetinin Astrofizika kafedrasından verilən məlumata görə, dekabrın 21-i Şimal yarımkürəsində qış, Cənub yarımkürəsində isə yay fəsli başlayır. Qış fəslinin uzunluğu 88 gün 23 saat 42 dəqiqə 52 saniyə təşkil edəcək.

Gəlişi və ağ örpəyi ilə qıs fəsli ölkəmizə paklıq, firavanlıq gətirsin!

***Müşfiq MİRZƏ***
***XQ***

**İDMAN**

## Prezident Kubokunda növbəti qarşılaşmalar



**Azərbaycan Atçılıq Federasiyasının təşkilatçılığı ilə 12-ci Prezident Kuboku uğrunda çövkən yarışlarının qrup mərhələsində növbəti oyunlar baş tutub.**

Dövlət Sərhəd Xidmətindən verilən məlumata görə, Binə Atçılıq Mərkəzində təşkil olunan ilk qarşılaşmada “Elit” “Embavud”a 4:0 hesabı ilə qalib gəlib.

Günün ikinci görüşündə isə “Sərhədçi” komandası “Zəfər”dən üstün olub – 4:1.

Qeyd edək ki, 12-ci Prezident Kubokunun növbəti oyunları bu gün keçiriləcək.

## Misli Premyerdə XVI tur




**Misli Premyer Liqasında cari ilin sonuncu – XVI turuna start verilib.**

İlk oyun günündə Yevlax şəhər stadionunda baş tutan matçda “Kəpəz” “Turan Tovuz”u qəbul edib. Görüş 2:0 hesabı ilə tovuzluların xeyrinə başa çatıb. Qolları oyunun 7-ci dəqiqəsində Alexandro Serrano, 47-ci dəqiqəsində isə Joarlem Santos vurublar.

“Turan Tovuz” hazırda 27 xalla 4-cü yerdə qərarlaşıb. Hesabında 9 xal olan “Kəpəz” 10-cu pillədədir.

Qeyd edək ki, XVI tura dekabrın 20-də keçiriləcək “Karvan-Yevlax” – “Neftçi”, “Zirə” – “İmişli”, dekabrın 21-də “Qəbələ” – “Qarabağ”, “Araz-Naxçıvan” – “Şamaxı”, dekabrın 22-də isə “Sumqayıt” – “Sabah” oyunları ilə yekun vurulacaq.

## AFFA klubları cərimələyib



**AFFA İntizam Komitəsi Misli Premyer Liqasının I turundan təxirə salınmış “Sabah” – “Qarabağ” matçı ilə bağlı cəzaları açıqlayıb.**

AFFA-dan verilən məlumata görə, bu barədə komitənin iclasında qərarlar qəbul olunub.

Oyun bitdikdən sonra meydançaya kənar şəxs daxil olduğuna görə “Sabah” klubu 2500 manat cərimələnib.

“Qarabağ” isə azarkeşləri tərəfindən rəqib komandanın ünvanına kütləvi şəkildə təhqiramiz ifadələr səsləndirildiyinə və bu hal cari mövsümdə 3-cü dəfə yaşandığına görə Ağdam təmsilçisi 7000 manat ziyana düşüb. Bununla yanaşı, oturacaqlar sındırıldığı, stadiona zərər vurulduğu üçün “Qarabağ” daha 3000 manat ödəməli olacaq. Stadiona dəymiş ziyan son çempion tərəfindən qarşılanacaq.

Ağdam klubuna həmçinin oyuna təyin edilmiş vaxtdan gec gəldiyinə görə xəbərdarlıq edilib.

***Ə.QABİL***
***XQ***

**HAVA**

## Payızın son şənbəsi: gündüz yağmursuz, gecə çiskinli...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və axşam bəzi yerlərdə çiskinli olacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək.**

Havanın temperaturu gecə 2-4, gündüz 7-11 dərəcə isti olacaq. Atmosfer təzyiqi 770 millimetr civə sütunundan 767 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 80-85, gündüz 60-70 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz olacaq. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti, gündüz 7-12 dərəcə isti, dağlarda gecə 5-10 dərəcə şaxta, gündüz 2-7 dərəcə isti olacaq.

***XQ***




**Ləğvetmə prosesində olan “Təmir Tikinti ANKZ-9” ASC səhmdarlarının nəzərinə!**

“Təmir Tikinti ANKZ-9” ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı 23 yanvar 2026-cı il saat 10.30-da cəmiyyətin yerləşdiyi ünvanda keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

1. Cəmiyyətin ləğvetmə balansının təsdiq edilməsi.
2. Cəmiyyətin qalıq əmlakının və pul vəsaitinin səhmdarlar arasında bölünməsi planını əks etdirən hesabatın təsdiq edilməsi.
3. Cəmiyyətə məxsus səhmlərin ləğv edilməsi və dövriyyədən çıxarılması.
4. Digər məsələ.

Səhmdarlar ümumi yığıncaqda müzakirəyə verilmiş məsələlərlə bağlı sənədlərlə hər həftənin iş günləri saat 13.00-dək tanış ola bilərlər.

**Əlaqə telefonu:** 050-552-37-87.

**Ünvan:** Sumqayıt şəhəri, İnşaatçılar qəsəbəsi 2.

✓ ***2019-cu il mayın 3-də Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən “AMAL GROUP” MMC-yə verilmiş EL seriyalı, 331/2019 nömrəli lisenziya və lisenziyanın əlavəsi itdiyi üçün etibarsız sayılır. VÖEN(1305578581).***

✓ ***29 may 2025-ci ildə Dövlət Sərhəd Xidmətinin Kadrlar Baş İdarəsi tərəfindən Əsədov Əkbər Anar oğlunun adıma verilmiş DSX seriyalı, 0017264 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.***



**DİREKTOR – BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**T E L E F O N L A R:**
**Reklam və elanlar: 493-82-21**
**Qəbul şöbəsi: 493-24-75**
**Məsul katib: 493-61-02**
**Texniki şöbə: 493-59-64**
**Mühasibatlıq: 498-85-29**
**Email: xalqqazeti@gmail.com**
**info@xalqqazeti.az**
**+994 (51) 280-16-44**

**“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.**

**Ü N V A N I M I Z:**
**AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.**
**Şəhadətnamə 022273**

**İNDEKS 0282**
**TİRAJ 3596**
**SİFARİŞ 2332**
**QİYMƏTİ 60 qəpik**

**Növbətçi redaktor**
**Mirbağır YAQUBZADƏ**
**Çapa imzalanmışdır 00:00**